Tanınmış neft mütəxəssislərimiz

# BİR ÖMRÜN SƏTİRLƏRİ

(ədəbi portret)

Bakı, "Ünsiyyət", 2007

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

26.343-8+3r
B 66

**Tərtibçi–müəlliflər:** ***Nisə Alxazova,***
*baş metodist, "Xan qızı Natəvan" mükafatı laureatı*
***İradə Alxazova,***
*pedaqoq, "Fəzilət" mükafatı laureatı*

**Redaktor:** **İsrafil Əhmədov,**
*şərqşünas*

**"Bir ömrün sətirləri"**. "Ünsiyyət",
Bakı, 2007, 152 səh. şək.21 səh.

*Kitab neft sənayesinin çoxsaylı mütəxəssislərindən biri olan Alxazov Siyavuş Məmmədiyə oğlunun 70 illik yubileyi ilə əlaqədar oxucuları onun tərcümeyi-halı ilə tanış edir. Kitabda S.M.Alxazovun özü tərəfindən yazılmış tərcümeyi-hal, onun haqqında qəzet və toplularda dərc olunmuş materiallar və tərcümeyi-halla bağlı onun şəxsi arxivindən götürülmüş rəsmi sənədlər və fotoşəkillər toplanmışdır.*

*Kitabın buraxılmasında əsas məqsəd saf, təmiz və məhsuldar yaşanmış faydalı bir tale ömrünü nümunə göstərməklə mənəvi tərbiyə prosesinə müsbət təsir göstərməkdir. Kitab-toplu gənclər üçün nəzərdə tutulmuşdur.*

$M\frac{4702600000}{(093-2007)}$

© "Ünsiyyət" nəşriyyatı, 2007



## TƏRTIBÇI-MÜƏLLIFLƏRDƏN

Tanınmış mütəxəssislər haqqında yazmaq yazılı ədəbiyyatda çoxdan bəri mövcud olan təcrübə və həqiqətdir. İndiyədək onlar haqqında saysız-hesabsız qiymətli kitablar yazılmışdır. Onları gənclərə nümunə göstərmək məqsədilə, qısa tərcümeyi-hal kitablarının buraxılmasını məqsədəuyğun hesab edirik.

Siyavuş Məmmədiyyə oğlu Alxazovun nümunəvi bir həyat yolu keçməsi onun məhz vətənpərvərliyindən, milliliyindən, xalqına olan məhəbbətindən xəbər verir. Siyavuş müəllim 50 ildir ki, gündə 16 saat işləyərək, özü haqqında fikirləşmədən, ölkəyə, xalqa nə isə verməyə çalışmışdır. Bu – xalqa xidmət nümunəsidir. Elə bu səbəbdən də onu xalqa, ictimaiyyətə tanıtmağı lazım bildik.

Qeyd olunmalıdır ki, nümunəvi adamlar çoxdur və onların hamısı haqqında iri həcmli əsərlər yazmaq və çap etmək mümkün deyil. Lakin hər halda onların hamısını oxuculara təqdim etmək qiymətli mənəvi keyfiyyətlərin təbliği məsələsində mühüm rol oynaya bilər.

Bu kitab - toplu tərtib edilərkən ilk növbədə mətbuatda çıxan materiallar əsas götürülmüş, qəzetlərdə, internetdə və toplularda dərc olunan yazılar toplanmış, rəsmi sənədlərdən və şəxsi arxiv materiallarından istifadə olunmuşdur.

*Nisə Alxazova,*
*baş metodist, "Xan qızı Natəvan" mükafatı laureatı*

*İradə Alxazova,*
*pedaqoq, "Fəzilət" mükafatı laureatı*

## REDAKTORDAN

Dünyada hər nə varsa varislərə ötürülür. Dəyərli adamlar unudulmamalıdır. Xalqına, millətinə, bəşəri düşüncələrə ləyaqətlə xidmət göstərmiş yaradıcı və zəhmətkeş insanları diqqət və qayğı ilə əhatə edərək, onları gələcək nəsillərə nümunə göstərmək vacibdır.

Keçdiyi 70 illik ömür yolunu portret-janrında oxuculara təqdim etdiyimiz Alxazov Siyavuş Məmmədiyə oğlu Azərbaycan neft sənayesində çalışan çoxsaylı mütəxəssislərdən biridir. Bu gün o, artıq uzun və şərəfli ömür yolu keçmiş bir insandır. İki il əvvəl onun 70 illik yubileyi qeyd olundu. Onun ideal təmiz həyatı, çoxcəhətli fəaliyyəti, zəngin nailiyyətləri, diqqəti cəlb edir. Odur ki, onun haqqında mövcud olan və dərc olunmuş tərcümeyi-hal materiallarının toplu halında oxuculara təqdim olunması, hesab edirik, müsbət təşəbbüsdür. Bu şəxsin həyat yolu özünün orijinallığı və maraqlılığı ilə fərqlənir və çoxları üçün örnək ola bilər.

Kitabı çapa hazırlayarkən toplanmış çap materiallarında olan bəzi səhvlər düzəldilmiş, dəqiqləşdirilmiş və məntiqdən irəli gələn cüzi dəyişikliklər edilmişdir. Lakin ilk təşəbbüs və bu tipli ilk nəşr kimi kitabın səhvləri də yox deyil. Oxuculardan xahiş edirik rəy və təkliflərini "Ünsiyyət" nəşriyyatına bildirsinlər.

*İsrafil Əhmədov,*
*şərqşünas*







***24 aprel 1935***
***Alxazov Siyavuş Məmmədiyə oğlu***
***Dəniz neftçisi-geofizik***

***Mühəndis – ixtiraçı,***
***alim – pedaqoq,***
***jurnalist – publisist,***
***maarifçi – ictimaiyyətçi.***

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti

"Neftqazlayihə" institutu "Neftqazmədən geofizikası"

laboratoriyası nın aparıcı elmi işçisi, texnika elmləri namizədi

------------------------

Bakı Dövlət Universiteti Geologiya fakültəsi "Seysmologiya

və yer təkinin fizikası kafedrasının müəllimi"

--------------------------

Azərbaycan Jurnalistlər Birliyinin üzvü, publisist,

"Qızıl qələm" mükafatı laureatı

--------------------------

Həvəskar filmlərin Beynəlxalq, Ümumittifaq və Respublika

müsabiqələrinin laureatı





## ***Dünyanı mənəviyyat, tamlıq və kamillik xilas edəcək!***

*Siyavuş Alxazov*

"Dənizneftqazlayihə" DETLİ Neftqazmədən geofizikası laboratoriyasının aparıcı elmi işçisi, t.e.n. 1935-ci il təvəllüdlü, azərbaycanlı, ali təhsilli Alxazov Siyavuş Məmmədiyə oğlu haqqında

## XASİYYƏTNAMƏ

S.M. Alxazov 1959-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunu "Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları" (04.00.12) ixtisası üzrə bitirmiş və "dağ mühəndisi-geofizik" ixtisasını almışdır.

İnstitutu bitirdikdən sonra S.M.Alxazov təyinatla Neft Daşlarında 31 il çalışmışdır. Burada o, əvvəlcə Mədən geofizika ekspedisiyasının dəstəsində texnik-operator, mühəndis-operator, M/G dəstəsinin növbə rəisi və ekspedisiyanın rəis müavini kimi texniki sahədə fəaliyyət göstərərək, Neft Daşlarının quyularında şəxsən geofiziki tədqiqat ölçü işləri aparmış və sonra bu işlərə başçılıq etmiş, yuxarı təşkilatın (kantorun) tapşırığı ilə müəssisədə ilk OKS-56 avtomat karotaj stansiyasının, yeni geofiziki: induksiya, dielektrik, maqnit karotajı üsullarının və cihazlarının mənimsənilib işə salınmasında iştirak etmiş, radioaktiv karotaj cihazlarının etalonlaşdırılması üsulu və texnologiyasını mənimsəyərək müəssisədə tətbiq etmiş və yuxarı təşkilatın (trestin) əmri və tərtib etdiyi proqramı əsasında iki aylıq seminar – kursun rəhbəri kimi müəssisənin mühəndis – texnik işçilərinin ixtisasının artırılmasına kömək göstərmişdir, sonra isə trestin tapşırığı ilə ekspedisiyada interpretasiya xidmətini təşkil etmiş, nəzarət-interpretasiya dəstəsinin əsasını qoymuş və 24 il dəstənin rəisi kimi çalışaraq qazılan hər bir quyu kəsilişinin mədən – geofiziki tədqiqatları göstəricilərinin təhlil nəticələri olan geoloji – geofiziki "Rəy" lər, quyulardan neft və qaz almaq məqsədi ilə sınaq obyektlərinin seçilməsi barədə "Tövsiyyə"lər





vermiş və "Günəşli" və "Həzi Aslanov" neft və qaz yataqlarının kəşfində iştirak etmişdir. Neft Daşlarında işlədiyi müddətdə beş səmərələşdirici təklifi istehsalatda tətbiq olunmuş və dörd elmi məqaləsi dərc olunmuşdur. İki hökumət mükafatı (medal) almışdır.

1990-cı ildə S.M. Alxazov elmi işə dəvət olunaraq, köçürmə yolu ilə və müsabiqədən keçməklə Ümumittifaq Neft Elmi – Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutu "Geofizika işlərinin təhlükəsizliyi" laboratoriyasında böyük elmi işçi vəzifəsini tutmuş, iki il sonra "Qazıma işlərinin təhlükəsizliyi" laboratoriyasında həmin vəzifədə çalışmışdır. İnstitutda işlədiyi 4 il ərzində 3 ixtiranın və 10-dan çox elmi – tədqiqat mövzularının işlənməsində iştirak etmişdir. İnstitutun Elmi Şurasının "Neft – mədən işləri" bölməsinin elmi katibi olmuşdur.

1994-cü ildən S.M. Alxazov köçürmə yolu ilə və müsabiqədən keçərək "Dənizneftqazlayihə" Dövlət Elmi – Tədqiqat və Layihə İnstitutunun "Neftqazmədən geofizikası" laboratoriyasında b.e.i. vəzifəsini tutur. Burada o, əsasən, Azərbaycanın dəniz yataqlarının neft, qaz və kondensat ehtiyatlarının hesablanması ilə məşğuldur. Burada işlədiyi müddətdə 15-ə qədər elmi-tədqiqat işlərinin icraçısı və məsul icraçısı olmuş, 1640, 1694 saylı mövzuları və qazıma laboratoriyası üzrə 2079 saylı mövzunun geofizika üzrə üçüncü mərhələsini müstəqil işləmişdir. S.M. Alxazov 1995-ci ildən AzərGeofizika Elmi – Tədqiqat İnstitutunun dissertantı olmuş və 1998-ci ildə qazıma və geofizika ixtisasları üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1999-cu ildə onun doktorluq dissertasiyasının mövzusu təsdiq olunmuşdur. 2000-ci ilin mayından həmin laboratoriyada aparıcı elmi işçi vəzifəsində çalışır. S.M. Alxazov institutun Elmi Şurasının "Geoloji-kəşfiyyat və neftqaz yataqlarının işlənməsi", "Neft və qaz quyularının qazılması" və "İqtisadi tədqiqatlar" bölmələrinin üzvüdür. "Dənizneftqazlayihə"də işlədiyi 9 il müddətində özünü səriştəli və bacarıqlı bir mütəxəssis

kimi göstərmişdir. O, intizamlı və sadədir, tapşırıqları vaxtında və keyfiyyətli yerinə yetirir, iş yoldaşları arasında hörmətə malikdir, özünə və laboratoriya işçilərinə qarşı tələbkardır. Gənc kadrların yetişməsinə kömək edir. Müdiriyyət tərəfindən təşəkkürləri vardır. Hazırda institutda ETİ ilə yanaşı yeni texnikanın tətbiqi ilə məşğuldur.

25 dərc olunmuş əsas elmi əsərlərin, o cümlədən, altı patentin müəllifidir. Beynəlxalq, Ümumittifaq və respublika konfrans və seminarlarında məruzələrlə çıxış etmişdir.

Xasiyyətnamə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim etmək üçün verilir.

| | |
|---|---|
| "Dənizneftqazlayihə" DövETLİ-nin direktor əvəzi | *B.Ə.Süleymanov* |
| Geoloji-kəşfiyyat və neftqaz yataqlarının işlənməsi sahəsində elmi işlər üzrə direktor müavini | *N.Ə.Əkbərov* |
| İnstitutun baş mühəndisinin müavini | *S.C.Ibrahimov* |
| İnstitutun elmi katibi | *F.İ.Səmədova* |
| Elmi-texniki şöbənin rəisi | *S.S.Səmədov* |
| Kadrlar şöbəsinin rəisi | *R.A.Həsən-zadə* |
| Neftqazmədən geofizikası laboratoriyasının müdiri | *T.M.Cavadzadə* |

*2003-cü il*





# GİRİŞ ƏVƏZİ

## 1. XALQ SÖZÜ

**Hamı baxır, ancaq hamı görmür**

* * *

**Həqiqət suda batmaz, odda yanmaz**

* * *

**Yaxşı mal özü-özünü tərifləṙ**

* * *

**Dilə güc vermə, iş gör**

* * *

**Biliyin kökü acıdır, meyvəsi şirin**

* * *

**Dünyada ən çətin iş – yaxşı ad qazanmaqdır**

* * *

**Töhmət öldürər, qiymət qaldırar**

* * *

**Uçmaq üçün yarananları sürünməyə təhrik etmək günahdır**





## 2. RƏHBƏR SÖZÜ

"Azərbaycan neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərli insanları – böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışlar".

*Heydər Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

«Труд нефтяников на море – больше чем героизм»
"Neftçilərin dənizdə zəhməti – qəhrəmanlıqdan artıqdır"
(Tərc. – İ.A.)

*L.İ. Brejnev,*
*Sovet İttifaqı Kommunist*
*Partiyasının Baş katibi*

«Нефтяники Баку дали фронту и стране столько горючего, сколько нужно было для защиты Отечества, для быстрой победы над врагом. Их вклад в дело победы над немецко-фашистскими захватчиками воистину неоценим».

"Bakı neftçiləri cəbhəyə və ölkəyə Vətənin müdafiəsi, düşmən üzərində qələbənin tezləşdirilməsi üçün lazım olan qədər yanacaq vermişlər. Onların alman-faşist işğalçıları üzərində qələbə işinə verdikləri töhfə həqiqətən ölçüyəgəlməzdir" (Tərc.-İ.A.).

*Q.K. Jukov,*
*Sovet İttifaqı marşalı, 4 dəfə Sovet*
*İttifaqı Qəhrəmanı, SSRİ Silahlı Qüvvələri*
*Baş Komandanının müavini,*
*keçmiş müdafiə naziri*

## 3. ŞAİR SÖZÜ

*Cabir Novruz,*
*Xalq şairi, Əməkdar incəsənət xadimi*

### SAĞLIĞINDA QIYMƏT VERIN INSANLARA

Bir arzum var, ay adamlar qoyun deyim,
Sağlığında qiymət verin insanlara,
Yaxşılara sağlığında yaxşı deyin,
Sağlığında yaman deyin yamanlara.
Yalnız, yalnız sağ olanda,
Hər kəs əsil qiymətini bilər onda,
Bu sözlərim düz olmasa
töhmət edin.
Sizdən rica eləyirəm milyon kərə,
Şairlərə sağlığında hörmət edin,
Sağlığında heykəl qoyun ölməzlərə...
Gələcəyə çox da ümid bağlamayın,
Sözünüzü sonralara saxlamayın.
Zəhləm gedir sonralardan,
Vaxtsız dinən zurnalardan,
Boşboğazdan, avaradan,
Toydan sonra nağaradan.
Sağlığında sevindirin təmizləri,
Siz həyatda bu amalla addımlayın.
Sağlığında ifşa edin xəbisləri,
Satqınlara sağlığında satqın deyin,
Tülkü deyin tülkülərə,
aslan deyin aslanlara;
Sağlığında qiymət verin insanlara...
Hər kəs bilsin öz yerini
necə sağdır,





Bu, pislərin həyatını qısaltmaqdır,
Yaxşıların həyatını uzatmaqdır...
Bu nədəndir ölən kimi, qəlbimizdə
Adamlara sevgi, hörmət aşıb-daşır.
Ölən kimi yaxşılar da yaxşılaşır,
Yamanlar da yaxşılaşır...
Çirkinlər də təmiz olur ölən kimi...
Yadlar belə əziz olur ölən kimi...
Xatirələr söyləyirik,
nekroloqlar qollayırıq,
Hamısını ucdantutma yaxşı deyib
o dünyaya yollayırıq.
Bu gecikmiş xeyir-dua kimə gərək?
Bundan məzar böyüyəcək,
ya ölənmi diriləcək?
Xoşum gəlmir
bu köhnəlmiş adətlərdən,
xoşum gəlmir...
Bu sərdabə sevgilərdən,
hörmətlərdən xoşum gəlmir.
İstəmirəm vaxt-vədəsiz şöhrəti mən,
Bir an ömrü milyon qızıl ölüm gələ,
dəyişmərəm...
Diri üçün iynə boyda hörməti mən
Ölü üçün min heykələ dəyişmərəm...
Düz deməsəm, onda məni bağışlayın,
Üz tutaram uşaqlara,
qocalara, cavanlara,
Sağlığında qiymət verin insanlara,
Yaxşılara sağ olanda yaxşı deyin,
Sağlığında yaman deyin yamanlara...

*Musa Yaqub,*
*Əməkdar incəsənət xadimi*

## YAXŞI ADAMLARI QORUYAQ GƏLIN

Yaxşı adamları qoruyaq gəlin
Yaxşılıq kövrəkdir bir duyğu kimi,
Hər cürə tənəyə dözüb dayanmaz.
Yamanlıq murdarça çubuğu kimi
Nə qədər əyəsən yenə də sınmaz.

Yaxşı adamları qoruyaq gəlin,
Pislik harda olsa, girəcək gözə.
Üzündə təbəssüm, dişində zəhər.
Yaxşılıq qapıda dəvət gözləsə,
Pislik yol gözləməz,
bacadan girər.

Yaxşı adamları qoruyaq gəlin,
Pisliyə nə var ki, o qəzəb, o kin
Bozardıb üzünü qarda, sazaqda,
Çöldə yovşan olub yaşaya bilər.
Meydanı boş qoyub lap dar ayaqda
Kolda dovşan olub yaşaya bilər.
Ağac koğuşunda,
Daş çatdağında,
Lap Ay səhrasında, lap Ay dağında
Sürünə-sürünə yaşaya bilər,
Bəzən tikan olub gül ləçəyinə
Bürünə-bürünə yaşaya bilər.
Bədxahlıq nə qədər özünü yorsa,
Yenə də yaxşılıq meydanı gendir.





Bu var ki,
düzlüyün bir yolu varsa,
Əyrilik yolunun haçası mindir.
Göbələk yığılmış ağac gözləyir,
Ki bitib dikəlsin yıxılan üstdə.
Yaxşı adamları qoruyaq gəlin,
Bədxah niyyətləri,
Əyri nəzəri
Düzlük qorxusuyla öldürmək olar.
Dişlərində zəhər gəzdirənləri
Yarpız qoxusuyla öldürmək olar.

Demək ki, çiçəklər qucaq-qucaqdır,
Qanqallar necə var yaşayacaqdır.
Yüngüllər necə var yaşayacaqdır,
Zərif çiçəkləri
qoruyaq gəlin,
Təmiz çiçəkləri
qoruyaq gəlin.

*Sentyabr, 1971*

5679

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# 70 İLİN LÖVHƏSİ





## 1. ÜRƏK SÖZÜM

### Belə gəldim bu dünyaya

Belə gəldim bu dünyaya,
Payız – qışa, yaza-yaya.
Yoğrulmadım, yapılmadım,
Belə gəldim bu dünyaya.

Tanrı verən ömürdü bu.
Ömrümdü bu, günümdü bu.
Ağlamağa, həm gülməyə,
Tanrı verən ömürdü bu.

Ömrü bu cür yaşamışam.
Nə tapmışam, nə almışam.
İnanma sən, inanmasan.
Ömrü belə yaşamışam!

Dərə keçib, dağlar aşdım,
Nə döndüm mən, nə də çaşdım.
Hərdən coşub, coşub-daşdım.
Ömrü bu cür yaşamışam!

Ömür mənim, tale mənim,
Ömür yollu tale-mənəm.
Əkən mənəm, biçən mənəm.
Bu ömrü, mən yaşamışam!

Çox yanmışam, alışmışam.
Çətinliyə alışmışam.
Bir gün qələm alıb ələ
Dedim: “Belə yaşamışam!”

Naşı dedi: - “ixtisar et”.
Düşmən dedi: - “intihar et”.
Dostum dedi: - “iftixar et”.
Ömrüm budur, yaşamışam!

Çətin həyat oldu bir şam,
Əridim də, oldum tamam.
Ömrümü de, necə kəsim?
Axı, bunu, yaşamışam!

*Siyavuş Alxazov*

*Bakı, 21 avqust 2006-ci il*





## 2. TƏRCÜMEYI – HAL

### Qısa rəsmi variant

1935-ci il aprelin 24-də Bakı şəhərində hərbi qulluqçu ailəsində anadan olmuşam. Orta məktəbi Tbilisi şəhərində qızıl medalla ‚urtarıb, 1959-cu ildə Bakı şəhərində Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyasını) bitirərək dağ mühəndisi-geofizik ixtisasını almışam.

Təyinatla “Azneftgeofizika” trestinin Dənizdə Geofizika İşləri Kantorunda (DGİK) işə başlamış və kantorun “Neft Daşları” Dəniz Mədən-Geofizika Ekspedisiyasında texnik-operator, mühəndis-operator, mədən-geofizika dəstəsinin növbə rəisi, ekspedisiya rəisinin müavini-texniki rəhbər, ekspedisiyanın nəzarət-interpretasiya dəstəsinin rəisi (1959-1990) vəzifələrində işləmişəm.

Neft Daşlarında işləyərkən, gündəlik mühəndis işlərimdən başqa, Kantorun rəhbərliyinin tapşırığı ilə müəssisədə ilk OKS-56 avtomat karotaj stansiyasının, yeni geofiziki üsulların – induksiya, dielektrik və maqnit karotajı üsulları və cihazlarının respublikada ilk dəfə mənimsənilib işə salınmasında iştirak etmiş, Trestin rəhbərliyinin əmri (1964) və tərtib etdiyi proqramı əsasında iki aylıq seminar – kursun rəhbəri və müəllimi kimi müəssisənin mühəndis-texnik işçilərinin ixtisasının artırılmasına kömək göstərmiş, Trestin tapşırığı ilə Ekspedisiyada interpretasiya xidmətini təşkil etmiş (1965), geofiziki üsullarla aparılan quyu tədqiqat işlərinin təhlili və nəticələrin interpretasiyası yolu ilə “Neft Daşları” və “Palçıq Pilpiləsi” yataqlarını öyrənmiş, “Günəşli” və “Həzi Aslanov” yataqlarının kəşfində iştirak etmişəm. Neft Daşlarında qazılan yüzlərlə quyuların lülələrinin geofiziki üsulla (inklinometriya) idarə olunmasında müəyyən rol oynamış, özümün ixtira etdiyim

inklinometr vasitəsilə Azərbaycanda rekord – 60 dərəcə əyriliyə malik quyuların ölçülməsini təmin etmişəm.

1990-cı ildə elmi işə dəvət olunaraq müsabiqə yolu ilə Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunda (ÜNETTİ) "Geofizika işlərinin təhlükəsizliyi" sektorunun böyük elmi işçisi vəzifəsində işləmişəm. 1994-cü ildən indiyədək "Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat və Layihə institutunun "Neftqazmədən geofizikası" laboratoriyasının hazırda aparıcı elmi işçisi vəzifəsində çalışıram.

1998-ci ildə AZərbaycan Dövlət Neft Akademiyasında "Böyük zenit bucaqlı mail istiqamətlənmiş quyuların lülələrinin əyrilik parametrlərinin ölçülməsinin texnika və texnologiyasının işlənməsi və təkmilləşdirilməsi" mövzusunda iki ixtisas – "Quyuların qazılması" (05.15.10) və "Faydalı qazıntı yataqlarının axtarışı və kəşfinin geofiziki üsulları" (04.00.12) üzrə dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsini almışam.

Hazırda geofizika və qazıma sahələrində eyni vaxtda: geofiziki tədqiqat üsulları, mədən geofizikasının texnika və texnologiyası, quyu geofiziki tədqiqat materiallarının interpretasiyası, neft və qaz ehtiyatlarının hesablanması, inklinometriya, maili və üfqi qazıma, qazıma zamanı təzahürlərlə əlaqədar mürəkkəbləşmələrin təyini, fiziki sahələrin qazımada tətbiqi, quyu geofiziki tədqiqatları və hidrodinamika, geofizikada iqtisadi tədqiqatlar, əməyin təşkili və mühafizəsi, təhlükəsizlik texnikası, normativ-texniki sənədlərin işlənməsi və s. məsələləri üzrə müxtəlif problemlər üzərində işləyirəm. Eyni zamanda 2001-ci ildən, öz yeniliklərimin istehsalata tətbiqi ilə məşğulam.

150-dən artıq elmi işin müəllifiyəm. Bunlardan elm və istehsalat üçün daha çox əhəmiyyəti olanlardan: "İnklinometriyanın bəzi problemləri və onların həlli yolları", "Diametrini saxlamaq şərtilə kabel əlaqəli nöqtəvi ölçüyə malik inklinometrin ölçü diapazonunun böyüdülməsinin mümkünlüyü barədə",





"KİTU – təkmilləşdirilmiş yeni inklinometrdir", "Quyu lüləsinin üç proyeksiyasının eyni vaxtda operativ qurulması üsulu", "Videokarotaj", "Quyuların qazılması zamanı qaz təhlükəli vəziyyətin qabaqcadan aşkar edilməsi texnologiyasının işlənməsi", "Neft sənayesində təhlükəsizlik qaydaları", "Qazıma prosesində qaz təhlükəli vəziyyətin qabaqcadan aşkar edilməsi üçün qurğu" və s.-ni göstərmək olar. "Qövsün radiusdan asılılığının xüsusi halı" üçün teorem təklif etmiş, geofizikada ilk dəfə "mürəkkəbdən sadəyə fəlsəfi prinsipini irəli sürmüş və inklinometriya sahəsi üçün lakonik model hazırlamişam".

İstehsalatda tətbiq olunan 5 səmərələşdirici təklif üçün vəsiqə, 5 ixtira üçün müəlliflik şəhadətnaməsi və ixtira, sənaye nümunəsi və əmtəə nişanı üçün 7 patent almışam.

Geofizika, geologiya, üfqi qazıma və təhlükəsizlik texnikası üzrə 1991-ci ildən Bakı və digər şəhərlərdə keçirilən beynəlxalq konfranslarda elmi məruzələrlə çıxış etmişəm.

Mühəndislik, ixtiraçılıq və elmi işlərilə yanaşı, 1962-ci ildən orta ümumtəhsil, peşə-texniki, orta ixtisas, ali və ixtisasartırma təhsil sistemlərinin təhsil müəssisələrində dərs demiş, geniş maarifçilik fəaliyyəti göstərmişəm. Neft Daşlarında işlədiyim 31 il ərzində dəniz şəhərinin mədəni həyatının formalaşmasında müəyyən rolum olmuşdur. Burada "Xəzərin səsi "- "Qolos Kaspiya" yerli radio verilişləri studiyası yaratmış (1965), 15 il ona rəhbərlik etmiş və burada şəxsi yaradıcılıqla iştirak etmişəm. "Neft Daşları" – "Neftyanıye Kamni" qəzetlərinin açılmasının təşəbbüsçülərindən biri olmuş və burada ictimai əsaslarla əməkdaşlıq və müxbirlik etmişəm. 1975-ci ildə Neft Daşlarının Mədəniyyət sarayı nəzdində Azərbaycanda ilk "Xəzərfilm" Xalq Özfəaliyyət Kinostudiyası yaratmış və burada geniş kino maarifi ilə məşğul olmuşam. 30 kino həvəskarı hazırlamış, 22 film çəkmiş və çoxlu Diplomlarla təltif olunmuşam. Neft Daşlarında bir sıra yaradıcılıq təşkilatlarının filiallarını açmış və onların işində şəxsən geniş fəaliyyət göstərmişəm. 30 il Neft Daşlarında

bir sıra mədəni-maarif tədbirlərinin təşkilatçısı və iştirakçısı olmuşam. Mədəniyyət sarayında ədəbiyyat və incəsənətə dair mühazirələr oxumuşam. Bir sıra qəzet və jurnalların, həmçinin Azteleradionun ştatdankənar müxbiri olmuş, 500-dən artıq jurnalistik yazıların müəllifiyəm.

Respublika, Ümumittifaq və Beynəlxalq həvəskar filmlər müsabiqələri və "Qızıl qələm" mükafatı laureatıyam. "Rəşadətli əməyə görə" (1970) və "Əmək veteranı" (1986) medalları ilə və çoxlu sayda Fəxri fərmanlarla təltif olunmuşam. Beynəlxalq geofizika (SEG), geologiya (EAQO) cəmiyyətlərinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Hazırda elmi-texniki işlərlə yanaşı Bakı Dövlət Universitetində geofizikadan mühazirələr oxuyur, publisistik fəaliyyətimi davam etdirirəm.

*Siyavuş Alxazov*

*May 2007-ci il*





***Geniş rəsmi variant***

Mən, Alxazov Siyavuş Məmmədiyə oğlu, milliyyətcə azərbaycanlı, 1935-ci il aprelin 24-də Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində, hərbi qulluqçu ailəsində anadan olmuşam.

***I. Valideynlər, qohumlar.***



*Atam*

Atam, Alxazov Məmmədiyə Kərim oğlu, 1905-ci ildə Azərbaycanın Şəki şəhərində anadan olmuşdur. 1922-24- cü illərdə Şəkidə ilk aktyorlardan biri kimi Şəki professional teatrının (indiki Sabit Rəhman adına Şəki Dövlət Daim teatrının) əsasını qoyanlardan biri olmuşdur. 1919-1922-ci illərdə, Şəki gimnaziyasında, 1924-1928-ci illərdə Tbilisidə Cənubi Qafqaz Ali Piyada Məktəbində oxumuş, təyinatla Bakıda Salyan Qazarması rəisinin köməkçisi vəzifəsində, həmçinin, 1940-41-ci illərdə Kişinyov şəhəri hərbi komissarlığında işləmişdir. Partiya mənsubiyyəti olmayıb. 1941-ci ildə Böyük Vətən Müharibəsinə çağırılaraq kapitan rütbəsində topçu alayının batareya komandiri kimi Odessa və Sevastopol uğrunda cəbhələrdə vuruşmuş və 1944-cü ilin fevralında itkin düşmüşdür.



*Anam*

Anam Alxazova Surə Sadıx qızı Təbriz mənşəli Cənubi azərbaycanlı olub, 1914-cü ildə Gürcüstanın paytaxtı Tiflis şəhərində anadan olmuşdur. 5 sinif oxumuş və 1928-ci ildə ailə həyatı


Bacım

qurmuşdur. İki övlad böyütmüşdür (qız və oğul). Poylu kəndində birinci sinif müəllimısi olmuş, müharibə dövründə (və sonra da) Tiflisdə cəbhə üçün işləyən fabrikdə tikişçi işləmişdir. 1961-ci ildən Bakıda mənim himayəmdə olub. Partiya mənsubiyyəti olmayıb. 1982-ci ildə uzun sürən və ağır xəstəlikdən sonra, Bakıda vəfat etmişdir.

Bacım, Xəlilzadə Sevil Məmmədiyə qızı, 1933-cü ildə Tiflisdə anadan olmuşdur. Orta təhsillidir. Partiya mənsubiyyəti yoxdur. Əvvəl Tiflisdə, fabrikdə usta-toxucu, sonra isə Bakıda, aptekdə qablaşdırıcı işləmişdir. Hazırda təqaüdçüdür. Üç uşaq böyütmüşdür: Rüstəm (1962), Sevda (1964) və Abduləvvəl (1967). Gəlinləri – Şəhla (1962) və Mehribandır (1977). Nəvələri Azər (1992), Lalə (1994) və Rüfət (1998), İlahə (2000)-dir.

Yeznəm Xəlilzadə Oktay Abduləvvəl oğlu, 1935-ci ildə Şəkidə anadan olmuşdur. Dülgərlik peşəsinə yiyələnmiş, sonra uzun müddət Neft Daşlarında fəhlə işləmişdir. 1972-ci ildə burada Neft Texnikumunu bitirmişdir. Partiya mənsubiyyəti yox idi. Ağır xəstəlikdən sonra 2000-ci ildə dünyasını dəyişib.


Yeznəm

Bakı, Şəki, Təbriz, İjevsk, (Telman), Sankt-Peterburq (Pərvin) Nyu-York (Rəna), Nalçik (Yavər), Mingəçevir (Saniyə) şəhərlərində yaxın-uzaq qohumlarımız var. Nə özüm, nə də yoldaşım tərəfdən həbs olunmuş qohumlarımız yoxdur..






Əmim Saleh


Dayım Firid

***II. Təhsil, ixtisas, peşə.***

1943-cü ildə uşaq bağçasından köçürmə yolu ilə, 31 nömrəli Tiflis kişi, beynəlmiləl, orta məktəbinin Azərbaycan bölməsinə daxil olmuş və 1954-cü ildə 37 (indiki 73) nömrəli Tiflis Azərbaycan orta məktəbini qızıl medalla bitirmişəm. Bütün siniflərdə 11 il əlaçı olmuşam. Gənc kimyaçıların respublika olimpiadasının bütün üç dövrəsinin qalibi olmuş və Fəxri fərmanla təltif olunmuşam (1954-cü il). 1950-1954-cü illərdə məktəbdənkənar müəssisələrin bir sıra dərnəklərinə üzv olub qabiliyyətimi sınamışam. Tiflis pioner və məktəblilər sarayında – xoreoqrafiya, foto, rəsm, dülgərlik, dəmirçilik və bilyard dərnəklərində; Respublika gənc texniklər stansiyasında – aviamodelçilər, radiotexniklər, "Morze əlifbası" seksiyalarında; Respublika Aqrobiostansiyasının torpaq-əkin sahəsində;


Bacım və mən. Bakı, 1939-cu il


Bakı, 1941-ci il

Tbilisi şəhər "Balneoloji kurortu" nəzdində idman seksiyasında məşğul olmuş və çox faydalanmışam. V-VI siniflərdə iki il məktəbin nəfəsli orkestrində (şəhərdə cəmi iki belə orkestr var idi) " alt " musiqi alətində çalmışam. VII sinifdən tar, qaval və marakas musiqi alətlərində çalmağı öyrənmişəm. Məktəbin "Pioner" və "Komsomolçu" divar qəzetlərinin redaktoru olmuşam. Gürcüstan LKGİ Mərkəzi Komitəsinin və Gürcüstan SSR Maarif Nazirliyinin Fəxri fərmanları ilə təltif olunmuşam.

1954-cü ildə Bakıda Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş, 1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyasını) bitirmiş və dağ mühəndisi-geofizik ixtisasını almışam. 1956-1959-cu illərdə institut Komsomol Komitəsinin mədəni-kütləvi işlər üzrə üzvü işləmişəm. İnstitutun ədəbiyyat birliyinin üzvü, nümayəndəsi və divar qəzetinin redaktoru və Tələbə Elmi Cəmiyyətinin (TEC) üzvü olmuşam. İnstitutun tələbə elmi konfranslarında elmi məruzələrlə və çoxtirajlı "Neft kadrları uğrunda" qəzetində məqalələrlə çıxış etmişəm. I və II kurslarda ikən institutun xalq çalğı alətləri ansamblında tar musiqi alətində çalmışam. Bir sıra fəxri fərmanlarla təltif olunmuşam.

1970-ci ildə Bakı Axşam Marksizm – Leninizm Universitetini bitirərək, ali siyasi təhsilin "iqtisadi biliklərin təbliğatçısı" ixtisasını almışam.

1990-cı ildə Azərbaycan Texniki Yaradıcılıq və Patentşünaslıq İctimai institutunu bitirib "patentşünas" ixtisasını almışam.

1988-1990-cı illərdə keçmiş SSRİ ali və orta ixtisas təhsili nazirliyi Ali Məktəb Problemləri Elmi - Tədqiqat institutu





"Təlimin yeni üsul və vasitələri" Moskva fakültəsinin Azərbaycan Filialının dinləyicisi olmuşam.

1970, 1975, 1979-cu illərdə müvafiq olaraq Qroznı, Ufa, Moskva, şəhərlərinin neft institutlarında əsas ixtisasım üzrə ixtisas artırma kurslarında oxumuşam.

1972-1973 və 1978-1979-cu dərs illərində Bakı şəhər müəllimləri təkmilləşdirmə institutlarında "kimya-biologiya müəllimi" ixtisasını almışam.

1966- cı ıldə, üç aylıq "həvəskar-sürücü" kurslarında oxumuş, 1973-cü ildə "dar plyonkalı" kino nümayişi üzrə həvəskar, 1975-ci ildə isə "III dərəcəli peşəkar kinomexanik" ixtisasını almışam.

***III. Əmək fəaliyyətim***

Əmək fəaliyyətimə fəhləlikdən başlamışam. Hələ tələbə ikən, 1957-ci ildə Cizak şəhərində, iki aylıq tədris istehsalat təcrübəsi vaxtı 10.07.-10.09.1957 Özbəkistan Geofizika Ekspedisiyası Zərəfşan dəstəsinin Metallometriya qrupunda III, sonra IV dərəcəli fəhlə işləmişəm. Əmək kitabçamız var idi. Maaş alırdıq. Sonra təhsilimi və institut Komsomol Komitəsinin üzvü kimi ictimai işlərimi bitirdikdən sonra, əmək və yaradıcılıq fəaliyyətimi, arzu və istəyimə müvafiq olaraq, mühəndis – ixtiraçı, elmi-pedoqoji, jurnalist-naşir, maarifçi-publisist, kino və ictimai iş istiqamətlərində davam etdirdim. Məqsədim isə - hələ məktəbdə komsomol katibi işləyərkən məndə formalaşmış olan xalqa xidmət idi.

**1. Mühəndislik işlərim.**

İnstitutun geoloji-kəşfiyyat fakültəsini "Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları" (04.00.12) ixtisası üzrə bitirdikdən sonra (1959), təyinatla "Azneftgeofizika" trestinin Dənizdə Geofizika İşləri Kantoruna gəlmiş, burada 31 il mühəndislik fəaliyyətində olmuş və kantorun "Neft Daşları" Dəniz Mədən-Geofizika Ekspedisiyasında texnik-operator, mühəndis-operator, mədən-geofizika dəstəsinin növbə

rəisi, nəzarət-interpretasiya dəstəsinin rəisi və Ekspedisiya rəisinin müavini-texniki rəhbər kimi vəzifələrdə çalışmışam.

Uzun müddətli istehsalat fəaliyyətimlə mühəndis işinin nə dərəcədə məsuliyyətli olduğunun şahidi olmuşam. Xüsusilə mühəndis-geofizikin apardığı texniki tədbirlər və geofiziki tədqiqat işləri yataqların öyrənilməsinin açarıdır. Yer təkinin öyrənilməsində, yataqların mənimsənilməsində, neft-qaz hasilatının əldə olunmasında və artırılmasında geofizikin ilkin və həlledici rolu var və onun sözü və əməli əsas və həlledicidir.

1959-1990-cı illərdə Xəzərin Azərbaycan sektorunun xüsusilə Abşeron arxipelaqının öyrənilməsində hər şeydən əvvəl ümumiyyətlə dəniz neft mütəxəssisi kimi mədən geofizikasının hər iki-texnika və interpretasiya sahələrində Neft Daşlarında səmərəli və faydalı mühəndislik fəaliyyətim olmuşdur.

Əvvəlcə geofizikanın texnika sahəsində fəaliyyət göstərərək, Neft Daşlarının yüzlərlə quyularında şəxsən geofiziki-tədqiqat ölçü işləri aparmış, sonra da bu işlərə başçılıq etmiş, kontor rəhbərliyinin tapşırığı ilə müəssisədə ilk OKS-56 avtomat karotaj stansiyasının, yeni geofiziki üsulların-induksiya, dielektrik, maqnit karotajı üsulları və cihazlarının Azərbaycanda ilk dəfə mənimsənilib işə salınmasında iştirak etmiş, radioaktiv karotaj cihazlarının etalonlaşdırılmasının üsulunu və texnologiyasını mənimsəyərək müəssisədə tətbiq etmiş və trectin əmri (1964) və tərtib etdiyi proqramı əsasında iki aylıq seminar-kursun rəhbəri və müəllimi kimi müəssisənin mühəndis-texnik işçilərinin ixtisasının artmasına kömək göstərmişəm.

Sonra isə trestin tapşırığı ilə ekspedisiyada interpretasiya xidmətini təşkil etmiş, nəzarət-interpretasiya dəstəsinin əsasını qoymuş (1966) və dəstənin rəisi kimi yüzlərlə qazılan quyuların lülələrinin elmi-texniki əsaslarla düzgün istiqamətləndirilməsini və quyu dibinin neftli-qazlı obyektlərə çatdırılmasını təmin etmiş, 1970-ci illərdə özümün ixtira etdiyim 0-90 diapazonlu inklinometr vasitəsilə respublikada rekord əyriliyə malik





quyuların qazılmasını mümkün etmiş, qazılan hər quyu üçün tədqiqlərin mədən-geofiziki göstəricilərinin təhlili nəticələri olan geoloji-geofiziki "Rəy" lər, quyulardan neft və qaz almaq məqsədilə sınaq obyektlərinin təyini barədə "Tövsiyyə" lər, yatağın istismarına nəzarət məqsədilə yerinə yetirilən ölçü kompleksinin təhlili nəticələri olan "Rəy" lər və quyuların mədən-geofiziki tədqiqat materiallarının miqdarı təhlili üzrə respublikada ilk müfəssəl rəsmi "Rəy"i (1973-cü il, "Neft Daşları" yatağı, quyu № 1726) verməklə və bu işi müntəzəm davam etdirərək çox vacib geofiziki parametrlər hazırlamaqla "Neft Daşları" və "Palçıq Pilpiləsi" yataqlarını geofiziki üsullarla mükəmməl öyrənmiş, "Günəşli" və "Həzi Aslanov" neft yataqlarının isə kəşfində iştirak etmişəm.

Neft Daşlarında işlədiyim müddətdə dörd elmi işim texniki məcmuələrdə dərc olunmuş və bir neçə işləmələrimin tətbiqinə trest tərəfindən icazə verilmişdir. Trestin əmri əsasında Qroznı (1970), Ufa (1975) və Moskva (1979) şəhərlərində üç ay öz ixtisasımı təkmilləşdirmiş və bu zaman V.V.Daxnov, S.Q.Kamarov, B.Yur.Venndelşteyn, S.S.İtenberq və b. məşhur geofiziklərdən dərs almış, onlarla təmasda olmuşam.

1969-cu ildə interpretasiya işlərinin avtomatlaşdırılması üzrə elektron-hesablama maşınlarının mənimsənilməsi məqsədilə trest tərəfindən üç nəfərlik nümayəndə heyyəti tərkibində Ufa şəhərinə (Başkordostan) ezam olunmuşam.

1970-ci ildən Ümumittifaq Elmi-Texniki Cəmiyyətin üzvü idim.

Müəssisə rəhbərliyinin əmrləri əsasında Azərbaycan Neft və Kimya İnstitutunun Vyetnamlı tələbələrinin diplom işlərinin istehsalat rəhbəri olmuşam (1970-1974).

"Rəşadətli əməyə görə" (1970), "Əmək veteranı" (1986) medalları, müəssisənin Fəxri fərmanları (1967,1985), "Kommunist əməyi zərbəçisi" fəxri adı və təşəkkürnamələrlə təltif olunmuşam.

Hazırda əsas işim olan elmi – pedaqoji işimlə yanaşı mühəndislik fəaliyyətimi davam etdirirəm (dəniz neft-qaz yataqlarının ehtiyatlarının hesablanması üçün lazım olan parametrlərin hazırlanması üzrə).

**2. İxtiraçılıq, səmərələşdiricilik və konstruksiya işlərim.**

Vəsiqə almış və Neft Daşlarında istehsalata tətbiq olunmuş 5 səmərələşdirici təklifin, müəlliflik şəhadətnaməsi və patent almış 5 ixtiranın, patentlər almış 1 sənaye nümunəsinin və 2 əmtəə nişanının müəllifiyəm. Hazırda, hələ mühafizə sənədləri almamış 30-a qədər ixtiralarım var.

Fotoya aid ilk ixtiramı hələ məktəbdə ikən düşünmüş, konstruksiyasını vermiş və öz əlimlə düzəltmişəm. Həmin universal cihaz haqqında Azərbaycan Neft və Kimya institutu Tələbə Elmi Cəmiyyətinin elmi konfransında məruzə etmiş və cihazı nümayiş etdirmişəm (Məruzələrin annotasiyaları. Azneftkimya institutu nəşriyyatı, Bakı, 1958).

Universal foto cihazından əvvəl konstruksiyasını verib düzəltdiyim uşaq oyuncaqlarından, cihaz və qurğu maketlərindən ibarət bir neçə əl işlərim olub.

2001-ci ildən indiyədək müntəzəm olaraq institutun və "Azneft" istehsalat Birliyinin texniki tədbirlər planı əsasında öz yeniliklərimin istehsalata tətbiqi ilə məşğulam.

Bundan başqa hazırda 30-a qədər yeni ixtiralarımın mühafizə sənədləri üzərində işləyirəm.

**3. Elmi işlərim.**

1990-cı ildə elmi işə dəvət olunaraq, köçürmə yolu ilə və müsabiqə vasitəsilə SSRİ Neft sənayesi nazirliyinin Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunun (ÜNETTİ) – (hazırda Azərbaycan Dövlət Elmi-Tədqiqat Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası İnstitutu - ADETƏM və TTİ) – "Geofizika işlərinin təhlükəsizliyi" bölməsində böyük elmi işçi vəzifəsini tutmuş, iki il sonra, bölmənin bağlanması ilə





əlaqədar, "Qazıma işlərinin təhlükəsizliyi" laboratoriyasında həmin vəzifədə çalışmışam. İnstitutda işlədiyim 4 il ərzində üç ixtira və 10-dan artıq elmi-tədqiqat işlərinin hazırlanmasında icraçı və ya məsul icraçı kimi iştirak etmişəm. İnstitutun Elmi Şura bölməsinin katibi olmuşam.

1994-cü ildən köçürmə yolu ilə və müsabiqə vasitəsilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Dənizdə Neftçıxarma" İstehsalat Birliyinin Dəniz Neft və Qaz Yataqlarının İşlənməsi üzrə Dövlət Elmi Tədqiqat və Layihə İnstitutu – "Dənizneftqazlayihə"nin (hazırda – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Neftqazlayihə" institutu) "Neftqazmədən geofizikası" laboratoriyasında 6 il böyük elmi işçi vəzifəsində çalışmış və 2000-ci ildən indiyədək aparıcı elmi işçi vəzifəsində işləyirəm. İnstitutda işlədiyim müddətdə 5 patent almış və 20-yə qədər elmi-texniki işləmənin icraçısı, məsul icraçısı olmuş və bur neçə mövzunu müstəqil işləmişəm. Burada işlədiyim müddətdə bütün dəniz neft və qaz yataqlarının ehtiyatlarının hesablanmasında iştirak etmişəm. Azərbaycanda neft və qaz yataqlarının qeyri antiklinal strukturlarda axtarılması məqsədilə qazılan quyularda (2004-cü il, "Mil düzü", quyular № 1 və 2) aparılan quyu geofiziki tədqiqat nəticələrinin ilk dəfə keyfiyyət və kəmiyyət təhlillərinin nəticələrini dərc etdirmişəm. Yeni texnikanın tətbiqi ilə də məşğulam.

İnstitutun eyni vaxtda 3 elmi bölməsinin – "Geoloji kəşfiyyat və neftqaz yataqlarının işlənməsi", "Quyuların qazılması" və "İqtisadi tədqiqatlar" bölmələrinin üzvü olmuş, Neftçi – Geoloqlar Cəmiyyəti İnstitut şöbəsinin sədri ictimai vəzifəsində işləmiş, Beynəlxalq, Ümumittifaq və Respublika konfrans və seminarlarında məruzələrlə çıxış etmişəm.

İstehsalatda və elmi-tədqiqat institutlarında aldığım böyük təcrübə əsasında yaratdığım çoxsaylı yeniliklərimi ümumiləşdirərək, 1995-ci ildə "Azərgeofizika" Elmi – Tədqiqat İnstitutunun dissertantı oldum və 3 il sonra, 1998-ci ildə "Böyük zenit

bucaqlı mail istiqamətlənmiş quyuların lülələrinin əyrilik parametrlərinin ölçülməsinin texnika və texnologiyasının işlənməsi və təkmilləşdirilməsi" mövzusunda iki ixtisas – "Quyuların qazılması" (05.15.10) və "Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları" (04.00.12) ixtisasları üzrə Azərbaycan Dövlət Neft Akademiyasında namizədlik dissertasiyası müdafiə edib texnika elmləri namizədi alimlik dərəcəsi almışam. Bir il sonra doktorluq dissertasiyamın mövzusu təsdiq olunmuşdur.

Dəniz neftinin müxtəlif sahələri ilə maraqlanıram. Geofizika və qazmanın eyni vaxtda: geofiziki tədqiqat üsulları, mədən geofizikasının texnika və texnologiyası, quyu geofiziki tədqiqat materiallarının nterpretasiyası, neft və qaz ehtiyatlarının hesablanması, inklinometriya, maili və üfqi qazıma, qazıma zamanı təzahürlərlə əlaqədar mürəkkəbləşmələrin təyini, fiziki sahələrin qazımada tətbiqi, quyu geofiziki tədqiqatları və hidrodinamika, geofizikada iqtisadi tədqiqatlar, əməyin təşkili və mühafizəsi, təhlükəsizlik texnikası, normativ-texniki sənədlərin işlənməsi və s. məsələləri üzrə müxtəlif problemlər üzərində işləyirəm.

Hazırda 150-dən artıq, o cümlədən 25 fond işinin və 30 elmi məruzənin müəllifiyəm. Bunlardan elm və istehsalat üçün daha çox əhəmiyyəti olanlardan: "İnklinometriyanın bəzi problemləri və onların həlli yolları", "Diametrini saxlamaq şərtilə kabel əlaqəli nöqtəvi ölçüyə malik inklinometrin ölçü diapazonunun böyüdülməsinin mümkünlüyü barədə", "KİTU – təkmilləşdirilmiş yeni inklinometrdir", "Quyu lüləsinin üç proyeksiyasının eyni vaxtda operativ qurulması üsulu", "Videokarotaj", "Quyuların qazılması zamanı qaz təhlükəli vəziyyətin qabaqcadan aşkar edilməsi texnologiyasının işlənməsi", "Neft sənayesində təhlükəsizlik qaydaları", "Qazıma prosesində qaz təhlükəli vəziyyətin qabaqcadan aşkar edilməsi üçün qurğu" və s.-ni göstərmək olar.





Bundan başqa "Qövsün radiusdan asılılığının xüsusi halı" üçün teorem təklif etmiş, geofizikada ilk dəfə "mürəkkəbdən sadəyə" fəlsəfi prinsipini irəli sürmüş və inklinometriya sahəsi üçün lakonik model işləmişəm.

Məktəb fənn dərnəyindən tutmuş Krasnodar ölkəsinin Divnomorsk şəhərində "Üfqi qazmanın texnika və texnologiyası" mövzusunda keçirilən (22.05.1991) Ümumittifaq seminarına qədər müxtəlif auditoriyalarda elmi, ədəbi, publisist məruzə və mühazirələrlə çıxış etmiş, bir sıra dissertasiyalara rəsmi rəylər yazmış, tələbələrin diplom işlərinin və məruzələrinin elmi rəhbəri olmuşam. İnstitut rəhbərliyi tərəfindən təşəkkürnamələrim var. Hazırda institutda və şəxsi təşəbbüslə elmi fəaliyyətimi davam etdirirəm.

1964-cü ildən "Bilik" cəmiyyətinin, 1977-ci ildən isə kitabsevərlər cəmiyyətinin üzvü olmuşam.

**4. Pedaqoji işlərim.**

1962-ci ildən (kiçik fasilələrlə) əvəzçilik və saathesabı qaydası ilə pedaqoji fəaliyyətlə məşğul olmuşam. Hal-hazıra



*Neft Daşlarındakı 73 nömrəli məktəbin müəllimlər kollektivi. Neft Daşları, 1964-cü il. Soldan 1-ci*

qədər 32 il pedaqoji stajım var. Gündüz, axşam, qiyabi, növbəli və istehsalat təlimi formalarında işləyən orta ümumtəhsil, peşə - texniki, orta – ixtisas, ali və ixtisasartırma təhsil sistemləri üzrə azərbaycan və rus təhsil müəssisələrində - Bakı şəhəri Əzizbəyov RXMŞ Neft Daşlarındakı 73 nömrəli tam orta növbəli fəhlə - gənclər, Nizami RXMŞ 214 nömrəli gündüz rus orta ümumtəhsil məktəblərində, Bakı Kompüter Litseyində (BKL), Bakı Axşam Neft Texnikumunun (BANT) SovİKP XXII qurultayı adına (hazırda "Neft Daşları") Neftqazçıxarma idarəsi nəzdindəki filialında, Bakı Dövlət Universitetində və Dənizdə Geofizika İşləri kantoru nəzdində iki aylıq ixtisasartırma kurs-seminarda Kimya, Biologiya, Darvinizm, Coğrafiya, Fizika, Riyaziyyat, Astronomiya, Rəsm-xətt, Neft və neftmədən geologiyası, Geodeziya, Neft və qaz quyularının qazılması, Neft və qaz quyularının istismarı, Neft və qaz mədənlərinin avadanlığı, Təhlükəsizlik texnikası, Geofiziki tədqiqat üsulları, Geofiziki məlumatların geoloji interpretasiyası, Mədən-geofiziki cihazlar və Mədən-geofiziki materialların interpretasiyası fənlərindən dərs demişəm.

214 saylı məktəbdə keçirilən müsabiqə və attestasiya nəticələrinə görə Nizami RXMŞ-nın əmri ilə 1994-cü il noyabrın 1-dən mənə I kateqoriyalı (14-cü dərəcə) müəllim adı verilmişdir. 2000-ci il sentyabrın 1-dən isə ali kateqoriyalı (15-ci dərəcə) müəllim kimi fəaliyyət göstərmişəm.

1994-cü ilin yanvar ayında 214 nömrəli məktəbdə "Gənc Tusiçilər" fizika üzrə fənn dərnəyi təşkil etdim və 3 il ona rəhbərlik etdim.

Ali məktəblərdə testlə qəbul imtahanları vaxtı təhsil nazirliyinin təyinatı ilə iki dəfə - Bakıda (1994) və Naxçıvanda (1995) nəzarətçilər qrupunun rəhbəri, peşə-texniki məktəblər və litseylər üzrə Respublika coğrafiya olimpiadasında isə yoxlama komissiyasının sədri (17.06.2001-ci ildə) olmuşam.

1978-ci ildən Azərbaycan Pedaqoji Cəmiyyətinin üzvü olmuş, həmin ilim iyun ayından isə Cəmiyyətin Mərkəzi Şurasının





tapşırığı ilə, 73 nömrəli məktəbin nəzdində Cəmiyyətin ilk təşkilatını yaratmış və onun sədri seçilmişəm.

Texnikumda işləyərkən fənn komissiyasının sədri olmuşam.

10-a qədər elmi-pedaqoji və elmi-metodik işlərin müəllifiyəm.

Hal-hazırda Bakı Dövlət Universiteti geologiya fakültəsində dərs deyirəm. Tələbə, mütəxəssis və elmi kadrların hazırlanı ısında fəaliyyətimi davam etdirirəm.

**5. Jurnalistlik işlərim.**

1969-cu ildən – SSRİ Jurnalistlər İttifaqının, hazırda isə Azərbaycan Jurnalistlər Birliyinin üzvüyəm.

1955-ci ildən çap olunuram. İlk yazım AzSİ-nin "Neft kadrları uğrunda" çoxtirajlı qəzetində çap olunub. İndiyədək Bakı və Moskvanın 50-yə qədər kütləvi informasiya orqanlarında, o cümlədən Azərbaycanın və Keçmiş İttifaqın radio və televiziyaları ilə 500-dən çox jurnalistik materiallarım dərc olunub.

1966-1978-ci illərdə Azərbaycan Dövlət Teleradio Komitəsinin, "Vışka", "Bakı"–"Baku" qəzetlərinin və "Təşviqatçı"–"Aqitator" jurnallarının ştatdankənar müxbiri olmuşam.

1965-ci il aprelin 24-də Neft Daşlarında yaratdığım yerli "Xəzərin səsi" – "Qolos Kaspiya" radiostudiyasının ilk verilişini təşkil etdim və 1980-cı ilə qədər burada ictimai əsaslarla təşkilatçı-redaktor işlədim (1988-1991-ci illərdə radiostudiya ştatlı kimi fəaliyyət göstərmişdir). Radiostudiyada işlədiyim müddətdə 1500 radio verilişləri hazırlamışam.

"Neft Daşları" – "Neftyanıye Kamni" qəzetlərinin açılmasının təşəbbüsçülərindən biri olmuşam. İlk nömrənin çıxdığı vaxtdan (03.10.1967) qəzetlərin ictimai əməkdaşı və müxbiri olmuşam.

1977-ci ildə AJİ idarə heyyətinin tapşırığı ilə Neft Daşlarında jurnalistlər ittifaqının ilk təşkilatını yaratmışam.

1993-cü il aprelin 24 "İnsan – texnika - təbiət" aylıq kütləvi texniki və ensiklopedik – publisistik jurnalı təsis etmişəm

(şəhadətnamə № 638, 1993-cü il; şəhadətnamə № 49, 1994-cü il – Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi). Lakin maliyyə çətinliyindən jurnal hələ işıq üzü görməyib.

"Qızıl qələm" mükafatı laureatıyam.

Keçmiş SSRİ Neft Sənayesi nazirliyinin və "Neft Daşları" NQÇİ-nin Fəxri fərmanları ilə təltif olunmuşam.

Hazırda publisistik yazılarımla dövri mətbuatda çıxış edirəm.

**6. Naşirlik işlərim.**

Naşirlik – fəaliyyətimin yeni sahəsidir. Lakin maliyyə imkanlarım məhduddur. Bu sahədə gördüyüm işlər çox deyil: Fəlsəfə elmləri namizədi Davud Dəmirlinin "Ziyalı ömrünün işıqları" (publisistik qeydlər), tərtibçi-müəlliflər Nisə Alxazova və İradə Alxazovanın tanınmış neft mütəxəssislərimiz seriyasından "Bir ömrün sətirləri" (Ədəbi portret), Vahid Hacıyevin "50 ilin bəhrəsi" (publisistik toplu), özümün tərtib etdiyim "Neft Daşlarının şairləri" və "Raboçiy – poet s Neftyanıx Kamney" kitablarını nəşr etmişəm.

1993-cü ildə təsis etdiyim və baş redaktoru olduğum "İnsan – texnika – təbiət" jurnalını hələ də nəşr edə bilməmişəm. Onun nəşrinə 2008-ci ildə başlamağı planlaşdırıram. Yeni nəşriyyat açmağı da nəzərdə tutmuşam.

Hazırda bu sahədə axtarışlarla məşğulam.

**7. Publisistik işlərim.**

"Kirpi", "Göyərçin" jurnallarında, "Azərbaycan müəllimi", "Vışka", "Neft Daşları" və başqa qəzetlərdə, həmçinin ekranda (kiçik ekran, Bakı və Moskva teleekranı) publisistik yazılarla, film və süjetlərlə çıxış etmişəm.

Bədii-publisistik, elmi-publisist, sahə-publisistikası və kino-publisistika işlərim "Publisistin pasportu" və "Dənizdə izim qaldı" məcmüələrində toplanmışdır.

Hazırda dövri mətbuatda publisistik yazılarımla çıxış edirəm.





**8. Maarifçilik işlərim.**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Bakı şəhəri Əzizbəyov rayonunda yerləşən 73 nömrəli məktəbdə - 18 ilə yaxın və Nizami rayonundakı 214 nömrəli məktəbində - 5 il vicdanlı işimlə xalq ümumtəhsil maarifi sahəsində çox zəhmət çəkmişəm. Lakin maarifçilik sahəsində işim bununla bitmir. Gənc nəsli elmi-texniki sahədə maarifləndirmək üçün 214 nömrəli məktəbin nəzdində dərsdənkənar tədbir olaraq fizika üzrə "Gənc Tusiçilər" fənn dərnəyi təşkil etdim (29.01.1994). Dərnəyin geniş fəaliyyəti və zəngin təcrübəsi "Azərbaycan müəllimi" qəzetində geniş işıqlandırılmışdır.

Gənc nəslin mədəni maarifləndirilməsi üçün hələ məktəbdə ikən 4 il məktəb komsomol təşkilatının katibi işləyərkən tez-tez şagirdləri mədəni-maarif ocaqlarına-teatrlara, muzeylərə, kinostudiyaya və bir çox başqa yerlərə ekskursiyalara aparır, institutda isə institut Komsomol Komitəsinin üzvü kimi çox geniş mədəni-maarif, mədəni-kütləvi tədbirlər keçirirdim.

1973-1992-ci illərdə Neft Daşlarında kino maarifi sahəsində geniş fəaliyyət göstərmişəm. Burada təşkil etdiyim "Xəzərfilm" həvəskarlar kinostudiyasını 14.01.1975-ci ildə Azərbaycan Həmkarlar İttifaqı Şurasının kino üzrə Şurası təsdiq etmiş, üç il sonra – 01.04.1978-ci ildə isə kinostudiyaya respublikada ilk dəfə olaraq fəxri ad verildi – "Xəzərfilm" Xalq Özfəaliyyət Kinostudiyası. Neft Daşları Mədəniyyət sarayının kinostudiyasında əvvəl həvəskarlar kinostudiyasının rəhbəri sonra isə kinorejissor vəzifələrində işləmişəm. "Neft Daşları" NQÇ idarəsi rəhbərliyinin dəvətilə 01.11.85 – 01.07.86 və 15.01.90 – 20.08.92-ci illərdə burada əvəzçilik üzrə kinorejissor vəzifəsində işləmişəm.

Kino mədəni-maarif sahəsində 7,5 il əmək stajım var. Burada işlədiyim bütün müddətdə 30 kino həvəskarı hazırladım (onlardan ikisi müstəqil həvəskar film də çəkdilər). Studiya tərəfindən 22

film çəkildi. Onlar 17 mükafat almışdır. Kinostudiya üzvləri üçün kino maarifi üzrə seriya mühazirələr oxumuşam.

Maarifçilik fəaliyyətimə həsr olunmuş bir kitab da çap olunub (Davud Dəmirli "Ziyalı ömrünün işıqları". Bakı, "Ünsiyyət" nəşriyyatı, 2006. 76 s., şəkilli).

Hazırda Bakı Dövlət Universitetində (BDU) ixtisas fənnini tədris etməklə yanaşı, gənc nəslin ümumi maarifləndirilməsi ilə də məşğulam.

**9. Kino incəsənəti sahəsindəki işlərim.**

Neft Daşlarına həsr olunmuş 22 həvəskar filmlərin ssenarı müəllifi, rejissoru, operatoruyam. Onların çoxunun istehsalını təkbaşına yerinə yetirmişəm. Əvvəl mənzildə, sonra Neft Daşları Mədəniyyət sarayında ictimai həvəskar kinostudiya təşkil etmişdim (1973-1975). İlk filmi 1973-cü ildə çəkmişəm. Respublika, Ümumittifaq və Beynəlxalq müsabiqələrin laureatıyam. Filmlərim kiçik ekranda Bakı və Moskva televiziyası ilə nümayiş etdirilmişdir.

01.12.1974-cü ildən AHİŞ-in Respublika kino həvəskarları klubunun, 1978-ci ildən isə respublika Kinematoqrofçılar İttifaqı Aktivinin üzvü olmuşam.

Hazırda kiçik kino ilə məşğul deyiləm. İmkan daxilində böyük kino ilə məşğul olmağı nəzərdə tuturam (sənədli, bədii-publisist, elmi-kütləvi və tədris filmi janrlarında).

**10. İctimai işlərim və partiya-siyasi mənsubiyyətim.**

Pioner (1945-1949), komsomolçu (1949-1960), kommunist (1960-1991) olmuşam. 1991-ci il oktyabr ayından Azərbaycan Kommunist Partiyası öz fəaliyyətini dayandırmışdır. O vaxtdan heç bir siyasi partiyanın üzvü olmamışam.

1950-1954-cü illərdə məktəb komsomol təşkilatının katibi, 1956-1959-cu illərdə institut – Komsomol Komitəsinin üzvü,





1962-1987-ci illərdə ekspedisiyada qrup partiya təşkilatçısı, sex partiya təşkilatı katibi və müəssisə ilk partiya təşkilatı katibinin müavini, 1960-1990-cı illərdə iqtisadi məktəbin rəhbəri və təbliğatçısı, Gürcüstanda və Azərbaycanda bir sıra rayon komsomol və partiya konfranslarının nümayəndəsi olmuşam.

Məktəbin bir sıra fənn dərnəklərinin sədri və katibi, institutun ədəbiyyat birliyinin nümayəndəsi, respublikada bir sıra yaradıcılıq cəmiyyət və ittifaqlarının ilk təşkilatlarının sədri və ya katibi olmuşam.

1947-1949-cu illərdə "Pioner", 1949-1954-cü illərdə "Gənc komsomolçu" məktəb divar qəzetlərinin, 1956-1959-cu illərdə institutun "Ədəbiyyat" divar qəzetinin redaktoru, 1967-1980-cı illərdə "Neft Daşları" neftçıxarma idarəsinin "Xalq nəzarəti" divar qəzetı redaksiya heyətinin üzvü olmuşam. 1967-1972-ci illərdə "Neft Daşları" – "Neftyanıye Kamni" çoxtirajlı qəzetlərinin ictimai əməkdaşı, bir sıra qəzet, jurnal və Azteleradionun ştatdankənar müxbiri olmuşam.

ÜNETTT institutu Elmi Şura seksiyasının katibi (15.04.93 – 01.07.94), Azərbaycan Neftçi – Geoloqlar Cəmiyyətinin "Dənizneftqazlayihə" institutu nəzdindəki şöbəsinin sədri olmuşam (2004-2006).

Bir sıra partiya, təhsil və təsərrüfat müəssisə və təşkilatların təşkil etdikləri yoxlama komissiyalarının üzvü kimi işlərində fəaliyyət göstərmişəm.

**IV. Hərbi mükəlləfiyyətim.**

Yanacaq – sürtgü materialları (JSM) ixtisası üzrə mühəndis – texniki qoşunların arxa cəbhə xidməti üzrə mühəndis – baş leytenant rütbəsində ehtiyat zabiti olmuşam.

Hazırda hərbi mükəlləfiyyətim yoxdur.

### V. Ailə həyatım.



Birinci həyat yoldaşım Elmira

İlk dəfə 1971-ci il sentyabrın 28-də evlənmişəm. Birinci yoldaşım Alxazova Elmira Xanağa qızı (1944, Bakı) biologiya müəllimisi idi. 1975-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (indiki N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetini) bitirmiş, orta ümumtəhsil məktəbində qrup tərbiyəçisi vəzifəsində işləyirdi. Atası Xanağa həkim, anası Məryəm satıcı, qardaşı Faiq fəhlə idi. Partiya mənsubiyyəti yox idi. 1979-cu ildə uzun sürən ağır xəstəlikdən sonra vəfat edib.



Həyat yoldaşım Nisə xanım

İkinci dəfə 1985-ci il sentyabrın 11-də ailə həyatı qurmuşam. Yoldaşım Alxazova Nisə Ağa-Hüseyn qızı (1942, Bakı) ingilis dili müəlliməsidir. 1968-ci ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunu bitirib. Hazırda Azərbaycan Dövlət Slavyan Universitetində baş metodist vəzifəsində işləyir. 47 illik qüsursuz əməyinə görə "Xan qızı Natəvan" mükafatı laureatıdır. Atası Ağa-Hüseyn Böyük Vətən Müharibəsi iştirakçısı olub, dəmiryol işçisi idi, anası Əminə rayon deputatı olub, dəmiryol işçisi idi, bacıları: Qərənfil – ingilis dili müəlliməsi, Nəzakət – türk dili üzrə mütəxəssis, Gülzar – rus dili müəlliməsi, Əzizə - hüquqşünasdır və qardaşı Ramiz – fəhlə idi. Partiya mənsubiyyətiləri yoxdur.







Qızımız İradə



Nəvəm Səmayə

Bir övladımız var – Alxazova İradə Siyavuş qızı (1974, Bakı), rus dili müəlliməsi və xarici iqtisadi əlaqələr üzrə mütəxəssisdir. 1991-ci ildə Bakı ş. Nizami rayonu 220 nömrəli orta ümumtəhsil məktəbini (burada 10 il dərs əlaçısı olmuşdur), 1996-cı ildə M.F. Axundov adına Azərbaycan Dövlət Rus Dili və Ədəbiyyatı İnstitutunu fərqlənmə diplomu ilə (indiki Azərbaycan Dövlət Slavyan Universitetini) və 2000-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirmişdir. Dövlət idarələrində şöbə rəisi, bölmə müdiri, aparıcı mütəxəssis vəzifələrində çalışmışdır. Hazırda işıq idarəsində operator işləyir. Müsbət keyfiyyətlərinə görə "Fəzilət" mükafatı laureatıdır. 1989-cu ildə Vaqif Mustafazadə adına Bakı 1 nömrəli musiqi məktəbini bitirmişdir (1984-cü ildə daxil olmuşdu).



Kürəkənim Nazim

1987-1997-ci illərdə 10-a qədər müxtəlif peşələrə yiyələnmişdir. 2 illik ingilis dili, 2 illik biçmə-tikmə, 2 illik makinaçılar, 2 illik kulinariya və s. peşələri o cümlədəndir.

Partiya mənsubiyyəti yoxdur.



Yoldaşımla toyda. Bakı,2006-cı il

2003-cü il sentyabrın 10-da ailə həyatı qurmuş və 2004-cü il iyulun 1-də qızı Səmayə dünyaya gəlmişdir.

Kürəkənim Məmmədzadə Nazim Allahverdi oğlu (1974, Bakı), orta təhsillidir, hərbiçidir. Atasını və anası Səmayəni erkən itirmişdir. Partiya mənsubiyyəti yoxdur. İkinci anası qərbi azərbaycanlı Solmaz – təqaüdçü, qardaşı Şahin Azərbaycan Dövlət İqtisad Universitetinin I kurs tələbəsidir.

Ailəmiz metronun "Neftçilər" stansiyasının yanında, Qara Qarayev prospekti, ev № 61, mənzil № 59 ünvanda, iki otaqlı mənzildə yaşayır (ev tel: 421 60 74). Mənzil yoldaşımındır. Özüm isə təyinatla gələrək gənc mütəxəssis kimi mənzil uçotuna dayanmağıma baxmayaraq, indiyədək işlədiyim müəssisələrdən (ömrüm boyu isə öz ixtisasımla işləyirəm) mənzil almamışam. Neft Daşlarında işləyərkən mənə deputatın dəstəyi ilə neftqazçıxarma idarəsi fondundan, burada apardığım ictimai işlərə görə mükafat olaraq verilən birotaqlı



Şəxsi arxivim





mənzili satıb, həmin vəsaitlə qızıma ailə həyatı qurmuşam.

Hazırda yaradıcılıq üçün heç bir sosial şəraitim yoxdur. 1954-1968-ci illərdə ümumi yataqxanada və kirayədə yaşamışam. Ondan sonrakı dövrlərdə isə heç bir daşınan – daşınmaz əmlakım: şəxsi maşınım, bağım, torpaq sahəm, mənzilim, dəst mebelim və s. yoxdur. Bütün var-dövlətim: ailəm, arxivim, şəxsi kitabxanam (5 min nüsxə) və fərdi, 1970-ci illərin nümunəsi olan kinostudiyamdır.



Yazı masam

*Siyavuş Alxazov*

*May, 2007-ci il*

**Tərcümeyi-halın verildiyi yerlərin siyahısı**
**(Tarix, səbəb, verildiyi yer)**

**1.** 1951-ci il, aprel – pasport almaq üçün Tbilisi şəhəri, Kirov rayonunun 14-cü milis şöbəsinə (rus dilində).

**2.** 1952-ci il, aprel – hərbi uçota düşmək üçün Tbilisi, Kirov rayon hərbi komissarlığına (rus dilində).

**3.** 22.11.1953-cü il – Sovet İttifaqı Kommunist Partiyası sıralarına keçməkdən ötrü zəmanət almaq üçün, Tbilisi, Kirov rayonu, Kommunist Gənclər İttifaqı Rayon Komitəsinə (rus dilində).

**4.** 05.07.1954-cü il – İnstituta daxil olmaq üçün Azərbaycan Sənaye İnstitutuna, indiki Azərbaycan Dövlət Neft Akademiyasına (rus dilində)

**5.** 18.05.1958-ci il – həmin institutun hərbi kafedrası üçün.

**6.** 1959-cu il, yanvar – mənzil uçotuna düşmək üçün, Dzerjinski, indiki Nərimanov Rayon İcraiyyə Komitəsinə (rus dilində).

**7.** 1959-cu il, avqust – şəxsi iş üçün "Azneftgeofizika" trestinin Dənizdə Geofizika İşləri Kantoruna (Artyom adası, indiki Pirallahı adası), hazırki "Neftqazmədən geofizikası" trestinə (qum adası) – rus dilində.

**8.** 10.08.1960-cı il – Sov.İKP sıralarına keçmək üçün, Artyom, indiki Əzizbəyov Rayon Partiya Komitəsinə (rus dilində).

**9.** 26.11.1961-ci il – Sov.İKP üzvlüyünə keçmək üçün, yenə oraya (rus dilində).

**10.** 26.04.1962-ci il – (18.08.1962-ci il) Neft Daşlarındakı 73 nömrəli fəhlə - gənclər məktəbinə əvəzçilik üzrə işə qəbul olunmaq üçün, Artyom (indiki Əzizbəyov Rayon Xalq Maarif Şurasına, azərbaycan dilində).





**11.** 1963-cü il, dekabr – dissertant təsdiq olunmaq üçün Azərbaycan Neft və Kimya İnstitutunun aspiranturasına (rus dilində).

**12.** 1965-ci il, dekabr – rəhbər kadrların uçota alınması münasibətilə, Əzizbəyov rayon partiya komitəsinə (rus dilində).

**13.** 04.11.1966-cı il – Azteleradionun ştatdankənar müxbirliyi üçün, AzSSR Nazirlər Soveti yanında radio verilişləri və televiziya Komitəsinin kadrlar şöbəsinə (Azərbaycan dilində) .

**14.** 15.11.1966-cı il – SSRİ Jurnalistlər İttifaqının üzvlüyünə qəbul olunmaq üçün, Moskvaya, Jurnalistlər İttifaqına (rus dilində).

**15.** 09.06.1967-ci il – Dənizdə Geofizika İşləri Kantoruna, işlədiyim yerdə şəxsi işim üçün (rus dilində).

**16.** 06.12.1967-ci il – "Sovetskaya kultura" mərkəzi qəzetin ştatdankənar müxbirliyi üçün, xüsusi müxbir Rauf Əliyevə (rus dilində).

**17.** 20.03.1968-ci il – Bakı Axşam Neft Texnikumunun Neft Daşlarındakı filialında dərs demək üçün, Bakı, Çapayev küç. 88, BANT-na (rus dilində).

**18.** 14.04.1968-ci il – Azərbaycan Kommunist Partiyası Bakı Komitəsinin Axşam Marksizm – Leninizm Universitetinə qəbul olunmaq üçün, Bakı, Lermontov küç, MLU-nə (rus dilində).

**19.** 11.04.1971-ci il – SovİKP MK-nın Ali Partiya Məktəbinə qəbul olunmaq üçün, Əzizbəyov rayon PK-nə (rus dilində).

**20.** 15.09.1977-ci il – Neft Daşlarındakı 73 nömrəli f/g məktəbində iki illik fasilədən sonra yenidən dərs demək üçün (rus dilində).

**21.** 13.06.1978-ci il – "Xəzərfilm" Xalq Özfəaliyyət Kinostudiyasının kinorejissoru vəzifəsinə keçmək üçün, SovİKP XXII qurultayı adına NQÇİ Mədəniyyət sarayına (rus dilində).

**22.** 25.02.1979-cu il – işlədiyim yerdə şəxsi işim üçün, Dənizdə Geofizika İşləri Kantoruna (rus dilində).

**23.** 01.07.1985-ci il – Şəxsi işim üçün "Xəzərdənizgeofizika" trestinə (rus dilində).

**24.** 05.03.1989-cu il – Bakı şəhəri, Nizami rayon pasport şöbəsinə, atamın adının düzgün yazılması üçün (Azərbaycan dilində)

**25.** 29.01.1990-cı il - ÜNETTTİ-yə, böyük elmi işçi vəzifəsinə keçmək üçün, müsabiqəyə (Azərbaycan dilində).

**26.** 10.08.1992-ci il – 214 nömrəli rus ümumtəhsil məktəbinə əvəzçilik üzrə fizika müəllimi qəbul olunmaq üçün müsabiqəyə (rus dilində).

**27.** 30.08.1993-cü il – saat hesabı qaydasında dərs demək üçün, Bakı Kompüter Litseyinə (Azərbaycan dilində).

**28.** 04.07.1994-cü il – Şəxsi işim üçün "Dənizneftqazlayihə" elmi-tədqiqat institutuna (Azərbaycan dilində).

**29.** 02.11.1994-cü il – I kateqoriyalı müəllim adının verilməsi üçün, 214 nömrəli məktəbə (Azərbaycan dilində).

**30.** 24.04.1995-ci il – Dissertant qəbul olunmaq üçün Azər Geofizika Elmi-Tədqiqat institutuna (Azərbaycan dilində).

**31.** 10.12.1998-ci il – namizədlik dissertasiyamın təsdiqi üçün, AAK-a (Azərbaycan dilində).

**32.** 01.092004-cü il – saat hesabı dərs demək üçün Bakı Dövlət Universitetinə (BDU).

**Qeyd:** tərcümeyi-hal tarixindən asılı olaraq müxtəlif variantlarda təqdim olunmuşdur.





## 3. BİOQRAFİYA

**"RESPUBLIKA"**
**Gündəlik ictimai-siyasi, sosial-iqtisadi qəzet**
**Təsisçi: Azərbaycan Respublikası Prezidentinin işlər idarəsi və qəzetin redaksiya heyəti.**
**Baş redaktor: Teymur Əhmədov**
**18 aprel 2006-cı il, çərşənbə axşamı**
**№ 083 (2628) səh.7.**

RESPUBLİKA 18 aprel 2006-cı il

# Tanınmış neftçi-alim



Azərbaycan Dövlət Neft Şirkəti "Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunun aparıcı elmi işçisi, texnika elmləri

mai-siyasi və elmi-texniki yaradıcılıq fəaliyyəti göstərmiş (1950-1954) məktəb komsomol təşkilatının katibi Azərbaycan Neft və Kimya İnstitutu Komsomol Komitəsinin üzvü olmuşdur.

S.Alxazov əmək fəaliyyətinə 1957-ci ildə tələbə ikən Cizak şəhərində yerləşən Özbəkistan Geofizika Ekspedisiyasının Zərəfşan dəstəsində təlilelikdən başlamışdır. O kəşfiyyatçı-geofizik kimi Qısar və Zərəfşan dağlarını qarış-qarış gəzmiş və metallometriya qrupu işçiləri ilə birlikdə burada maqnit kəşfiyyatı üsulu ilə faydalı qazıntı yatağı [illegible] malyası aşkar etmişdir.

İnstitutun geoloji-kəşfiyyat fakültəsini bitirdikdən [illegible] tədqiqat ölçü işləri aparmış və sonra bu işlərə başçılıq etmiş, rəhbərliyin tapşırığı ilə müəssisədə ilk OKS 58 avtomat karotaj stansiyasının, yeni geofiziki usulların—induksiya, dielektrik, maqnit karotajı usulları və cihazlarının Azərbaycanda ilk dəfə mənimsənilib işə salınmasında iştirak edərək radioaktiv karotaj cihazlarının etalonlaşdırılmasının üsulunu və texnologiyasını mənimsəmiş və tərtib kollektivinin (1964) tərtib etdiyi proqram əsasında iki aylıq seminar-kurslarında müəssisənin mühəndis-texnik işçilərinin ixtisasının artmasına kömək göstərmişdir. Sonra isə ekspedisiyada interpretasiya [illegible] təşkil

təşəbbüsçülərindən biri olmuş, Azərbaycan Jurnalistlər İttifaqının (1976) Azərbaycan Kitabsevərlər Cəmiyyətinin (1977) Azərbaycan Pedaqoji Cəmiyyətinin (1978) Neft Daşlarında ilk təşkilatlarını yaratmış və onların işlərinə rəhbərlik etmişdir.

Dəniz şəhərində neftçilərin çətin əmək fəaliyyətinə, istirahət və yaradıcılıqlarına həsr olunmuş 22 saneddi həvəskar film çəkmiş Respublika, Ümumittifaq və Beynəlxalq müsabiqələrin laureatı olmuşdur.

1990-cı ildə S.Alxazov Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunun "Geofizika işlərinin təhlükəsizliyi" bölmə-

S.Alxazov 1995-ci ildə "AzərGeofizika" Elmi-Tədqiqat İnstitutunun dissertantı olur və 3 il sonra, 1998-ci ildə "Böyük zenit bucaqlı maili istiqamətlənmiş quyuların lülələrinin ayrılık parametrlərinin ölçülməsinin texnika və texnologiyasının işlənməsi və təkmilləşdirilməsi" mövzusunda ilk ixtisas—"quyuların qazılması" və "Faydalı qazıntı yataqlarının axtarış və kəşfiyyatının geofiziki usulları" ixtisasları üzrə Azərbaycan Neft Akademiyasında namizədlik dissertasiyası müdafiə edib texnika elmləri namizədi alimlik dərəcəsini alır. Bir il sonra isə onun doktorluq dissertasiyasının mövzusu təsdiq edilir.

## TANINMIŞ NEFTÇİ - ALİM

Azərbaycan Dövlət Neft Şirkəti "Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunun aparıcı elmi işçisi, texnika elmləri namizədi, Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyəti institut şöbəsinin sədri, Azərbaycan Milli Geofizika Komitəsinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, alim-pedaqoq, mühəndis-ixtiraçı Alxazov Siyavuş Məmmədiyə oğlu uzun illər Azərbaycan neft sənayesi sahəsində səmərəli fəaliyyət göstərmişdir.

Alxazov Siyavuş Məmmədiyə oğlu 1935-ci il aprelin 24-də Bakı şəhərində, hərbi qulluqçu ailəsində anadan olmuşdur.

Uşaqlıq və gənclik illərini Tbilisidə keçirən Siyavuş Alxazov orta təhsilini burada almış və məktəbi qızıl medalla başa vurduqdan sonra (1954) Bakıda Azərbaycan Neft və Kimya İnstitutunu (1959), Axşam Marksizm-Leninizm Universitetini (1970), Azərbaycan Texniki Yaradıcılıq və Patentşünaslıq İnstitutunu (1990) bitirmişdir. Hələ təhsil illərində S.Alxazov ictimai-siyasi və elmi-texniki yaradıcılıq fəaliyyəti göstərmiş məktəb komsomol təşkilatının katibi (1950-1954), Azərbaycan Neft və Kimya İnstitutu Komsomol Komitəsinin üzvü olmuşdur.

S.Alxazov əmək fəaliyyətinə 1957-ci ildə tələbə ikən, Cizak şəhərində yerləşən Özbəkistan Geofizika Ekspedisiyasının Zərəfşan dəstəsində fəhləlikdən başlamışdır. O, kəşfiyyatçı-geofizik kimi Qisar və Zərəfşan dağlarını qarış-qarış gəzmiş və metallometriya qrupu işçiləri ilə birlikdə burada maqnit kəşfiyyatı üsulu ilə faydalı qazıntı yatağı anomaliyası aşkar etmışdir.

İnstitutun geoloji-kəşfiyyat fakültəsini bitirdikdən sonra (1959) S.Alxazov təyinatla "Azneftgeofizika" trestinin Dənizdə Geofizika İşləri Kantoruna gəlmiş və kantorun "Neft Daşları" Dəniz Mədən-Geofizika Ekspedisiyasında texnik-operator, mühəndis-operator, mədən-geofizika dəstəsinin növbə rəisi,





nəzarət-interpretasiya dəstəsinin rəisi və ekspedisiya rəisinin müavini vəzifələrində çalışmışdır. Otuz ildən artıq bir müddətdə Neft Daşlarında çalışan Siyavuş Alxazov "Neft Daşları" neft-qaz yatağının və Neft Daşları dəniz şəhərinin dünya şöhrəti qazanmasında müəyyən rol oynamışdır.

1959-1990-cı illərdə Xəzərin Azərbaycan sektorunun, xüsusilə Abşeron arxipelaqının öyrənilməsində S.Alxazovun səmərəli fəaliyyəti olmuşdur. O, mədən-geofizika dəstəsində, sonra isə ekspedisiyanın texniki rəhbəri kimi, Neft Daşlarının yüzlərlə quyularında geofiziki tədqiqat ölçü işləri aparmış və sonra bu işlərə başçılıq etmiş, rəhbərliyin tapşırığı ilə müəssisədə ilk OKS-56 avtomat-karotaj stansiyasının, yeni geofiziki üsulların – induksiya, dielektrik, maqnit karotajı üsulları və cihazlarının Azərbaycanda ilk dəfə mənimsənilib işə salınmasında iştirak etmiş, radioaktiv karotaj cihazlarının etalonlaşdırılmasının üsulunu və texnologiyasını mənimsəmiş və trest kollektivinin (1964) tərtib etdiyi proqram əsasında iki aylıq seminar-kurslarında müəssisənin mühəndis-texnik işçilərinin ixtisasının artmasına kömək göstərmişdir. Sonra isə ekspedisiyada interpretasiya xidmətini təşkil etmiş, nəzarət-interpretasiya dəstəsinin əsasını qoymuş (1966) və dəstənin rəisi kimi yüzlərlə qazılan quyuların lülələrinin elmi-texniki əsaslarla düzgün istiqamətləndirilməsini və neftli-qazlı obyektlərə çatdırılmasını təmin etmişdir.

Neft Daşlarında işlədiyi müddətdə S.Alxazovun beş səmərələşdirici təklifi istehsalatda tətbiq olunmuş, dörd elmi işi məcmuələrdə dərc edilmişdir.

1960-1990-cı illərdə S.Alxazov Neft Daşlarında geniş maarıfçilik fəaliyyəti göstərmişdir. S.Alxazov dəniz neftçilərinin maariflәndirilməsi və onların nailiyyətlərinin geniş təbliği məqsədilə Neft Daşlarında "Xəzərin səsi" – "Qolos Kaspiya" radiostudiyasının (1965), respublikada ilk "Xəzərfilm" Xalq Özfəaliyyət Kinostudiyasının (1975) əsasını qoymuş, çoxtirajlı

"Neft Daşları"-"Neftyanıye Kamni" qəzetlərinin açılmasının (1967) təşəbbüsçülərindən biri olmuş, Azərbaycan Jurnalistlər İttifaqının (1976), Azərbaycan Kitabsevərlər Cəmiyyətinin (1977), Azərbaycan Pedaqoji Cəmiyyətinin (1978) Neft Daşlarında ilk təşkilatlarını yaratmış və onların işlərinə rəhbərlik etmişdir.

Dəniz şəhərində neftçilərin çətin əmək fəaliyyətinə, istirahət və yaradıcılıqlarına həsr olunmuş 22 sənədlİ həvəskar film çəkmiş, Respublika, Ümumittifaq və Beynəlxalq müsabiqələrin laureatı olmuşdur.

1990-cı ildə S.Alxazov Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunun "Geofizika işlərinin təhlükəsizliyi" bölməsində, iki il sonra "Qazma İşlərinin təhlükəsizliyi" laboratoriyasında böyük elmi işçi vəzifəsində çalışmışdır. İnstitutda İşlədiyi 4 il ərzində üç ixtiranın müəllifi, 10-dan artıq elmi-tədqiqat işinin icraçısı, məsul icraçısı və institutun Elmi Şura bölməsinin katibi olmuşdur. 1994-cü ildən S.Alxazov Dəniz Neft və Qaz Yataqlarının İşlənməsi üzrə Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutu – "Dənizneftqazlayihə"- nin "Neftqazmədən geofizikası" laboratoriyasında 6 il böyük elmi işçi və 2000-ci ildən aparıcı elmi işçi vəzifəsində çalışmışdır. İnstitutda işlədiyi müddətdə 5 patent almış və 20-yə qədər elmi-texniki işləmənin icraçısı, məsul icraçısı olmuş və bir neçə mövzunu müstəqil işləmişdir. 2001-ci ildən institutun və "Azneft" İB-nin texniki tədbirlər planı əsasında elmi-texniki yeniliklərin dəniz-neft yataqlarında tətbiqi ilə məşğuldur.

S.Alxasov 1995-ci ildə "AzərGeofizika" Elmi-Tədqiqat İnstitutunun dissertantı olur və 3 il sonra, 1998-ci il-də "Böyük zenit bucaqlı mail istiqamətlənmiş quyuların lülələrinin əyrilik parametrlərinin ölçülməsinin texnika və texnologiyasının işlənməsi və təkmilləşdirilməsi" mövzusunda iki ixtisas –"Quyuların qazılması" və "Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları" ixtisasları üzrə Azərbaycan Neft





Akademiyasında namizədlik dissertasiyası müdafiə edib texnika elmləri namizədi alimlik dərəcəsini alır. Bir il sonra isə onun doktorluq dissertasiyasının mövzusu təsdiq edilir.

O, 1962-ci ildən kiçik fasilələrlə geniş pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 2000-ci ildə 15-ci dərəcəli (ali kateqoriyalı) müəllim olmuşdur.

195ˁ ci ildən mətbuatda çap olunan S. M. Alxazov 2500-ə qədər elmi, texniki, pedaqoji, bədii, publisistik və jurnalistik yazıların müəllifidir.

S.M.Alxazov "Rəşadətli əməyə görə" (1970), "Əmək veteranı" (1986) medalları və çoxlu sayda fəxri fərmanlar, təşəkkürnamələrlə təltif olunmuşdur.

Yüksək mənəviyyatlı, sözün əsil mənasında, böyük insan, elm fədaisi Siyavuş Alxazova Azərbaycan elminin inkişafı naminə yeni-yeni uğurlar diləyirik.

*Nüsrəf Xəlılov,*
*"Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat*
*və Layihə İnstitutu neft və qaz yataqlarının*
*axtarışı və kəşfiyyatı laboratoriyasının*
*müdiri, professor.*

## «БАКИНСКИЙ РАБОЧИЙ»

Ежедневная общественно-политическая газета
Учредители: Управление делами Президента Азербайджанской Республики и редколлегия газеты
Главный редактор: Агабек Аскеров
1 декабря 2006 года, пятница, № 222 (25468), с.2.

# КАК «ЗВУЧИТ» МЕСТОРОЖДЕНИЕ, ПЕРВЫМ СЛЫШИТ ГЕОФИЗИК





## КАК «ЗВУЧИТ» МЕСТОРОЖДЕНИЕ, ПЕРВЫМ СЛЫШИТ ГЕОФИЗИК

Планета Земля расслаивается на оболочки – атмосферу, гидросферу и литосферу, то есть, земную твердь. Атмосферу изучают, запуская воздушные шары, космические аппараты и ракеты, гидросферу – бороздя океаны на научных кораблях, спускаясь в батискафах на дно морей.

Литосферу же то есть, земные недра, познают с помощью бурения. Однако человек не может спустится в скважину с прибором, поэтому на больших глубинах проводится каротаж. По - французски, это слово означает «морковка». На морковку похож столбик, горной породы – керн, поднятый из скважины для изучения. Многим слово «каротаж» кажется недостаточно емким, поэтому наряду с ним употребляются такие определения – промысловая геофизика геофизические методы исследования скважин.

Геофизик – ключевая фигура в нефтяной сфере. Это всевидящий «глаз», просвечивающий и прослушивающий приборами земные недра.

Скважинные снаряды, имеющие форму трубок, начиненные различными электронными датчиками физических характеристик пластов, спускаются на большие глубины на специальном тросе, внутри которого проходят жилы каротажного кабеля. Кабель продвигается в скважине, а датчики передают сигналы, которые регистрируются самописцами на поверхность земли. И геофизики, интерпретируя результаты (расшифровывая графики самописцев), находят скопления нефти и открывают новые месторождения. Они точно указывают, на какой глубине какие запасы, просвечивая и прослушивая приборами толщу земли. И делается это с помощью геофизических станций, оснащеных сверхчувствительными приборами. Геофизики всегда живут

рядом с буровиками, - контролируют и обеспечивают точность проходки и попадания скважин в нефтеносный пласт.

Каждое месторождение имеет свою историю, своих героев-первооткрывателей, свои подтвержденные запасы.

Сотни геофизиков работали на легендарных Нефтяных Камнях за 57 лет эксплуатации. Об одном из них расскажем.

47 лет служит в геофизике Сиявуш Мамедия оглы Алхазов, из них 31 год провел на Нефт Дашлары и хорошо помнит свой первый рабочий день, экстремальный и потрясающий…

1959 год. Выпускник Азербайджанского института нефти и химии Сиявуш Алхазов получил престижное направление на работу в промыслово-геофизическую контору треста «Азнефтегеофизика» на легендарные, известные всему миру Нефтяные Камни. Одухотворенный и радостный, он приплыл на корабле и сразу получил первое задание: отремонтировать каротажный кабель на заброшенной приэстакадной площадке на окраине морского промысла. Работа затянулась. Наступила темная безлунная ночь. Дул сильный ветер. Площадка скрипела и качалась. Казалось, вот-вот морская пучина поглотит ее, а Сиявуш впервые оказался в открытом море. Пережив стресс, но выполнив задание, вернулся на базу. И принял твердое решение: «Останусь. Буду работать здесь». Хотя многие молодые специалисты не выдерживали первых штормовых испытаний и возвращались на берег.

Нефтяные Камни стремительно развивались. Добыча нефти росла. Широким фронтом развернулось бурение. Бурились наклонно-направленные скважины, а это требовало высокой инженерной ответственности, точности. Нужны были квалифицированное геофизическое обеспечение, передовая геофизическая наука и практика, грамотные инженеры-геофизики, энтузиазисты, бесстрашные волевые





люди. В те годы – полвека назад – и сама геофизическая наука не была такой разносторонне развитой. Новые каротажные методы исследования – индукционный, магнитный, диэлектрический, акустический и другие не применялись. Все это еще только предстояло освоить, внедрить.

Перед молодыми геофизиками руководство треста ставило высокую планку: чтобы получить должность инженера, от них требовалось не менее трех самостоятельных замеров. Но, с другой стороны, и выполнение ответственных заказов им не доверяли.

Сиявуш Алхазов терпеливо ждал своего часа. Впитывал и осваивал опыт аксакалов, много читал, работал над собой. Однажды в экспедицию поступил тревожный звонок: ствол одной бурящейся скважины отклонился от проекта, появилась угроза того, что он не попадает в продуктивный пласт. Заказ был принят. Лица геофизиков помрачнели. Все молчали. Никто не осмеивался взять на себя ответственность вернуть отклонившуюся скважину в проектное направление. Не ожидая обсуждений, Сиявуш Алхазов решительно сказал:

- Я еду, - и быстро вышел из кабинета начальника экспедиции.

Сиявуш вернулся вечером, выполнив инклинометрические замеры в двух скважинах, вычислил фактические координаты и пространственное положение, указал буровикам угол и азимут дальнейшей проходки. Все обошлось благополучно. Первая профессиональная победа дала молодому специалисту большой творческий импульс, уверенность в себе. Он без устали ездил по скважинам, эстакадами и на отдельные основания, то на автомашине то на катере. Работы выполнял оперативно, добросовестно, качественно.

Постепенно о нем сложилось высокое мнение: «Алхазов настоящий моряк и специалист». Ему стали доверять руко-

водство геофизической партией, технику. Давая геофизикам сложные заказы, буровики просили: «Пришлите к нам Сиявуша».

Однажды на вахте Алхазова случилось ЧП: позвонили с отдельного основания и сообщили, что на скважине остановлены исследования из-за повреждения каротажного кабеля. Алхазов прекрасно понимал, что тут телефонным советом дело не исправишь, нужна конкретная помощь.

- Ждите моего приезда, - сказал он.

Директор конторы бурения обеспечил его катером. Алхазов приехал на отдельное основание, поднялся на буровую по 12-метровой лестнице и стал тестировать каротажный кабель омметром-тестером. Утечка была большая. На деревянный настил основания было размотано четыре километра кабеля, но место аварии не обнаружилось. Наконец, он увидел, как дрогнула стрелка прибора.

- Вот вам точное место разрыва кабеля, - радостно воскликнул Алхазов.

Отрубили аварийную часть, соединили концы, качественно выполнили заказ, потому что вновь заработали самописцы наземных приборов, регистрирця параметры пород бурящихся скважин на скрытых от глаз глубинах.

В 1959 – 1966 годах Алхазов работал в технической части геофизической экспедиции. Кроме текущих вопросов, он занимался внедрением новых геофизических методов каротажных исследований – индукционного, магнитного, диэлектрического, акустического. Участвовал в освоении первой на Нефтяных Камнях автоматической каротажной станции. А потом проводил семинары и курсы повышения квалификации инженерно-геофизического состава.

В 1966 году он создал и возглавил интерпретационную партию, чтобы обеспечить обработку материалов по геофизическим исследованиям.





Интерпретация – это расшифровка. По тросу-кабелю датчики передают сигналы на поверхность из ствола бурящейся скважины, которые на земле после усиления регистрируются самописцами. Эти сигналы «рассказывают» о свойствах пород окружающих скважину, размерах и форме встреченных пластов.

В 1967 году известный буровой мастер Герой Социалистического Труда Исрафил Гусейнов установил европейский рекорд – на Нефтяных Камнях пробурил наклонно-направленную скважину с отклонением от вертикали на 2060 метров, то есть, больше, чем на 2 километра. Алхазов руководил проводкой скважины-рекордсменки, обеспечивал точность азимута, вычислял и ее пространственное положение.

За это достижение группа нефтяников была удостоена Государственной премии Азербайджана.

Шел 1979 год. Морское управление буровых работ «Нефт Дашлары» запланировало пробурить скважину с рекордной кривизной ствола 60 градусов. Однако «на вооружении» геофизиков еще не было приборов, способных замерять отклонение ствола больше, чем на 50 градусов. Тогда Сиявуш Алхазов создал новый измерительный прибор к инклинометру с диапазоном измерения до 90 градусов, получил на него патент и авторское свидетельство. Этим прибором он выручил геофизиков страны, когда одна за другой были пробурены три высокодебитных скважины с кривизной ствола свыше 60 градусов.

До 1990 года Сиявуш Алхазов работал в интерпретационном отделе геофизической экспедиции и именно в эти годы он, будучи начальником отдела контрольно – интерпретационной партии, осуществлял инклинометрию, отклонение от вертикали сотен бурящихся скважин, обеспечивал проектную точность проходки, доводя их до забоя, до

продуктивного пласта, для получения больших притоков нефти. Выдавал геолого-геофизического заключения на каждую законченную бурением скважину. Это был период бурного развития Нефтяных Камней. Все скважины были наклонно-направленными, бурились с одного куста с отклонением на 2 с лишним километра.

Инженер-геофизик Сиявуш Алхазов хорошо знал геологию месторождения своего района, умело обращался со сложными приборами, отлично знал методику геофизических исследований, приемы расшифровки материалов, эффективно решал поставленные перед ним геологические задачи.

Одновременно вел активную общественную деятельность. Как человек творческий, он стал организатором первой в Азербайджане самодеятельной Народной киностудии и лауреатом международного конкурса любительских фильмов. Как член Союза журналистов Сиявуш муаллим писал интересные статьи в разные газеты, стал лауреатом премии «Золотое перо». И как профессионал щедро отдавал свои знания и опыт людям, - несколько десятилетий преподавал в Нефтяном техникуме, филиал которого находился на «Камушках».

В 1990 году Сиявуш муаллим был приглашен на работу в Научно-исследовательский проектный институт «Гипроморнефтегаз» на должность старшего научного сотрудника в лабораторию нефтегазопромысловой геофизики, где он трудится по сей день. Здесь он защитил кандидатскую диссертацию по двум специальностям – по бурению и геофизике. Он – автор 150 научных работ, в том числе 8 изобретений, 25 исследований. 30 научных докладов. С 2000 года он – ведущий научный сотрудник.

О сегодняшней своей деятельности Сиявуш муаллим рассказывает так:





- Мы изучаем все нефтегазоконденсатные месторождения на новом современном уровне. Побываем на промыслах. Поднимаем материалы геофизических исследований за все предыдущие годы, заново интерпретируем их с помощью современной техники и технологии, ведем пересчет запасов нефти и газа. Геофизики установили, что на «Нефт Дашлары» имеется 30 миллионов тонн остаточных извлекаемых запасов нефти. По международным критериям, это равнозначно новому месторождению. А это значит, «Нефт Дашлары» предстоит пережить вторую молодость.

В этом году будем делать пересчет запасов в НГДУ «Гум адасы», потом – в «Наримановнефть».

На меня возложена дополнителная задача и по разработке и внедрению геофизического обеспечения горизонтального метода бурения скважин, то есть, вхождения скважины в пласт, как это делают американцы – бурением минимального количества скважин охватывают огромную площадь, добывают по 1000 – 2000 тонн нефти в сутки из каждой скважины.

Накоплено много знаний, ценного опыта, с каждым днем работать все интереснее. Хочется еще многое сделать для своего народа, государства. Отдать все силы любимой профессии. Я счастлив, что состоялся, как геофизик-нефтяник, - признался Сиявуш муаллим.

*Рауфа Кеноер*

“KREDO”
Müstəqil ictimai-siyasi,
publisistik qəzet.
Təsisçi: Q.Fikrət
Baş redaktor: Əli Rza Xələfli
16 aprel 2005-ci il. № 33-34
(309-310), s.11.


16 aprel 2005-ci il KREDO 11

İLLƏRİN İZİ





## İLLƏRİN İZİ

Azərbaycan ziyalılarından biri Azərbaycan Dövlət Neft Şirkəti "Dənizneftqazlayihə" Dövlət Elmi Tədqiqat və Layihə İnstitutunun aparıcı elmi işçisi, texnika elmləri namizədi, Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyəti İnstitut şöbəsinin sədri, Azərbaycan Milli Geofizika Komitəsinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, mühəndis-ixtiyasçı, alim-pedaqoq, jurnalist-publisist, maarifçi-ictimaiyyətçi Alxazov Siyavuş Məmmədiyə oğlunun anadan olmasının 70, yaradıcılıq və əmək fəaliyyətinin 55 itliyi tamam olur.

Alxazov Siyavuş Məmmədiyə oğlu 1935-ci il aprelin 24-də Bakı şəhərində, hərbiçi ailəsində anadan olmuşdur.

Atası Məmmədiyə Kərim oğlu (1905-ci il təvəllüdlü) Şəki gimnaziyasında təhsil aldıqdan sonra, Tiflisdə Cənubi Qafqaz Ali Piyada Məktəbini bitirmiş, təyinatla Bakı Salyan Qazarması rəisinin köməkçisi işləmiş və topçu alayının batareya komandiri kimi kapitan rütbəsində, 1945-ci İlin fevralında Böyük Vətən müharibəsi cəbhəsində itkİn düşmüşdür. Respublika Xatirə Kitabının məlumatına görə indiki Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının əsasını qoyanlardan biri olmuşdur (1922).

Anası Surə xanım Hacı Sadıx qızı Təbriz mənşəli Tiflis azərbaycanlılarından idi. Hərbi geyimlər üzrə tikişçi-usta kimi fabrikdə işləmiş, sonra bir qədər müəllimlik etmişdir. İki övladını (qız və oğul) ayağa qaldırdıqdan sonra, 68 yaşında Bakıda vəfat etmişdir.

Uşaqlıq və gənclik illərini Tbilisidə keçirən Siyavuş Alxazov orta təhsilini burada almış və on bir il əlacı olmaqla məktəbi qızıl medalla başa vurduqdan sonra (1954), Bakıda Azərbaycan Neft və Kimya İnstitutunu (1959), axşam Marksizm-Leninizm Universitetini (1970), Azərbaycan Texniki Yaradıcılıq və Patentşünaslıq İnstitutunu (1990) və digər təhsil ocaqlarını bitirərək, “dağ mühəndisi-geofizik”, “iqtisadi biliklərin təbliğatçısı", "patentşünas", "jurnalist", "fizika müəllimi", "kimya-biologiya

müəllimi", "coğrafiya müəllimi", "III kateqoriyalı kinomexanik" və başqa 10-dan çox ixtisas və peşələrə yiyələnmiş və fəhlə, texnik, mühəndis, elmi işçi, pedaqoq, jurnalist və kinorejissor vəzifələrində çalışmışdır.

Hələ təhsil illərində S.M.Alxazov ictimai-siyasi və elmi-texniki yaradıcılıq fəaliyyəti göstərmişdir. O, dörd il (1950-1954) məktəb komsomol təşkilatının katibi, məktəbin "Pioner" və "Komsomolçu" divar qəzetlərinin redaktoru, üç il (1956-1959) Azərbaycan Neft və Kimya İnstitutunun Komsomol Komitəsinin mədəni-kütləvi işlər üzrə üzvü, institutun ədəbiyyat dərnəyinin nümayəndəsi olmuş, məktəbin və məktəbdənkənar müəssisələrin bir sıra fənn, peşə və bədii dərnəklərində Tələbə Elmi Cəmiyyəti və digər yaradıcı kollektivlərin işində iştirak etmiş, elmi məruzələrlə çıxış etmiş, özünün bir sıra ixtira və konstruksiyalarını öz əlilə sərgilər üçün hazırlamış və gənc kimyaçıların respublika olimpiadasının qalibi olmuşdur (1954, Tbilisi).

S.M.Alxazov əmək fəaliyyətinə 1957-ci ildə tələbə ikən, Cizak şəhərində yerləşən Özbəkistan Geofizika Ekspedisiyasının Zərəfşan dəstəsində fəhləlikdən başlamışdır. Burada o, kəşfiyyatçı geofizik - əvvəl III, sonra IV dərəcəli metallometr kimi Qisar və Zərəfşan dağlarını qarış-qarış gəzmiş və metallometriya qrupu işçiləri burada faydalı qazıntı yatağı anomaliyası aşkar etmişlər. Bunun üçün ona rəhbərlik tərəfindən təşəkkür elan edilmişdir.

İnstitutun geoloji-kəşfiyyat fakültəsini "Faydalı qazıntı yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı" (04.00.12) ixtisası üzrə bitirdikdən sonra (1959), S.M.Alxazov təyinatla "Azneftgeofizika" Trestinin Dənizdə Geofizika İşləri Kantoruna gəlmiş və kantorun "Neft Daşları" Dəniz Mədən-Geofizika Ekspedisiyasında texnik-operator, mühəndis-operator, mədən-geofizİka dəstəsinin növbə rəisi, nəzarət-interpretasiya dəstəsinin rəisi və ekspedisiya rəisinin müavini vəzifələrində çalışmışdır. 30 ildən artıq bir müddətdə Neft Daşlarında öz ixtisası və əvəzçilik üzrə işlədiyi digər sahələrdə: İstehsalat, elm, təhsil, mədəniyyət və





ictimai işlərdə çalışan Siyavuş Alxazov "Neft Daşları" neftqaz yatağının və Neft Daşları dəniz şəhərinin dünya şöhrəti qazanmasında müəyyən rol oynamışdır.

1959-1990-cı illərdə Xəzərin Azərbaycan sektorunun, xüsusilə, Abşeron arxipelağının öyrənilməsində S.M.Alxazovun, hər şeydən əvvəl, dəniz neft mütəxəssisi kimi mədən geofizikasının hər iki: texnika və interpretasiya sahələrində Neft Daşlarında səmərəli və faydalı mühəndislik fəaliyyəti olmuşdur. S.M.Alxazov mədən geofizika dəstəsində, sonra isə ekspedisiyanın texniki rəhbəri kimi əvvəlcə geofizikanın texniki sahəsində fəaliyyət göstərərək. Neft Daşlarının yüzlərlə quyularında şəxsən geofizika tədqiqat ölçü işləri aparmış və sonra bu işlərə başçılıq etmiş, kantor rəhbərliyinin tapşırığı ilə müəssisədə ilk yeni avtomat karotaj stansiyasının, yeni geofiziki üsulların - induksiya, dielektrik, maqnit karotajı üsulları və cihazlarının mənimsənilib işə salınmasında iştirak etmiş, radioaktiv karotaj cihazlarının etalonlaşdırılmasının üsulunu və texnologiyasını mənimsəyərək müəssisədə tətbiq etmiş və trestin əmri (1964) və tərtib etdiyi proqramı əsasında iki aylıq seminar-kursun rəhbəri və müəllimi kimi müəssisənin mühəndis-texnik işçilərinİn ixtisasının artırılmasına kömək göstərmişdir. Sonra isə trestin tapşırığı ilə ekspedisiyada interpretasiya xidmətini təşkil etmiş (1963), nəzarət-interpretasiya dəstəsinin əsasını qoymuş (1966) və dəstənin rəisi kimi qazılan hər quyu üçün tədqiqlərin mədən-geofiziki göstəricilərinin təhlili nəticələri olan geoloji-geofiziki "Rəylər", quyulardan neft və qaz almaq məqsədilə sınaq obyektlərinin təyini barədə "Tövsiyələr", yatağın istismarına nəzarət məqsədilə yerinə yetirilən ölçü kompleksinin təhlili nəticəsi olan "Rəylər" vermiş və "Günəşli" və "Həzi Aslanov" neft yataqlarının kəşfində iştirak etmiş, quyuların mədən-geofiziki tədqiqat materiallarının miqdarı təhlili üzrə respublikada ilk müfəssəl rəsmi "Rəy" vermişdir. (1973-cü il, "Neft Daşları" yatağı, quyu N-1726).

Neft Daşlarında işlədiyi müddətdə S.M.Alxazovun beş səmərələşdirici təklifi istehsalatda tətbiq olunmuş, dörd elmi işi elmi

məcmuələrdə, dərc edilmiş və bir neçə işləmələrinin tətbiqinə trest tərəfindən icazə verilmişdir.

1960-1990-cı illərdə S.M.Alxazov Neft Daşlarında geniş maarifçilik fəaliyyəti göstərmişdir. O, burada mühəndisliklə yanaşı, elmi, pedaqoji, maarifçilik, mədəniyyət və jurnalistika sahələrində çalışmışdır. S.M.Alxasov burada 30 il iqtisadi məktəbin təbliğatçısı olmuş, məktəb və texnikumda dərs demiş, kino maarifçisi olmuş və geniş miqyasda müxbirlik etmişdir. S.M.Alxasov dəniz neftçilərinin maarifləndirilməsi və onların nailiyyətlərinin geniş təbliği məqsədilə, Neft Daşlarında "Xəzərin səsi" - "Qolos Kaspiya" radiostansiyasının (1965), respublikada ilk "Xəzərfilm" Xalq Özfəaliyyət Kinostudiyasının (1975) əsasını qoymuş, çoxtirajı "Neft Daşları" – "Neftyanıe Kamni" qəzetlərinin açılmasının (1967), Təşəbbüsçülərindən biri olmuş, Azərbaycan Jurnalistlər İttifaqının (1976), Azərbaycan Kitabsevərlər Cəmiyyətinin (1977), Azərbaycan Pedaqoji Cəmiyyətinin (1978), Neft Daşlarında ilk təşkilatlarını yaratmış və bu işlərdə şəxsi yaradıcılıqla iştirak və onların işlərinə rəhbərlik etmişdir. S.M.Alxazov Neft Daşlarında işlədiyi müddətdə 1500 yerli radio verilişləri hazırlamış, 100-dən artıq informasiya və süjetləri Bakı və Moskvanın radio və televiziyası ilə səslənmiş və göstərilmiş, 500-dən artıq müxtəlif janrlı jurnalistik materialları Neft Daşları, Bakı və Moskva şəhərlərinin 50-yə qədər müxtəlif mətbuat orqanlarında dərc edilmiş, 30 nəfər kino həvəskarı hazırlamış (onlardan bir neçəsi, müstəqil, həvəskar film çəkmişdir), mədəniyyət sarayında və kitabxanada neftçilər qarşısında ədəbiyyat və kino maarifi sahələrində məruzələr etmiş və mühazirələr oxunuş, dəniz şəhərində neftçilərin çətin əmək şəraitinə, istirahət və yaradıcılıqlarına həsr olunmuş 22 sənədli həvəskar film çəkmiş, respublika, ümumittifaq və beynəlxalq müsabiqələrin laureatı olmuşdur. Siyavuş Alxasov 1969-cu ildən SSRİ Jurnalistlər İttifaqının, 1978-ci ildən Azərbaycan Kinematoqrafçılar İttifaqı Aktivinin üzvü, 15 il sex partiya təşkilatı katibi olmuş və uzun





müddət bir sıra respublika qəzet və jurnallarının və Azteleradionun ştatdankənar müxbiri kimi Neft Daşlarını təmsil etmişdir.

1990-cı ildə S.MAlxazov elmi işə dəvət olunaraq, köçürmə yolu ilə və müsabiqə vasitəsilə Ümumittifaq Neft Elmi Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunun "Geofizika işlərinin təhlükəsizliyi" bölməsində böyük elmi işçi vəzifəsini tutmuş, iki il sonra "Qazma işlərinin təhlükəsizliyi" laboratoriyasında həmin vəzifədə çalışmışdır. İnstitutda işlədiyi dörd il ərzində üç ixtiranın müəllifi, 10-dan artıq elmi tədqiqat işlərinin icraçısı, məsul icraçısı və Elmi Şura bölməsinin katibi olmuşdur. 1994-cü ildə S.M.Alxazov köçürmə yolu ilə və müsabiqə vasitəsilə Dəniz Neft və Qaz Yataqlarının işlənməsi üzrə Dövlət Elmi Tədqiqat və layihə İnstitutu - "Dənizneftqazlayihə"-nin "Neftqazmədən geofizikası" laboratoriyasınıda 6 il böyük elmi işçi vəzifəsində çalışmış və 2000-ci ildən burada aparıcı elmi işçi vəzifəsinə keçirilmişdir. İnstitutda işlədiyi müddətdə 5 patent almış və 20-yə qədər elmi-texniki işləmənin icraçısı və məsul icraçısı olmuşdur. S.M.Alxazov eyni zamanda institutun üç elmi bölməsinin - "Geoloji-kəşfiyyat və neft-qaz yataqlarının işlənməsi". "Quyuların qazılması" və "İqtisadi tədqiqatlar" bölmələrinin üzvü olmuş, beynəlxalq, ümumittifaq və respublika konfrans və seminarlarında məruzələrlə çıxış etmişdir. S.M.Alxazov istehsalatda və elmi tədqiqat institutlarında aldığı böyük təcrübə əsasında yaratdığı çoxsaylı elmi-texniki yeniliklərini ümumiləşdirərək, 1995-ci ildə "AzərGeofizika" Elmi Tədqiqat İnstitutunun dissertantı olur və üç il sonra, 1998-ci ildə "Böyük zenit bucaqlı mail istiqamətlənmiş quyuların lülələrinin əyrilik parametrlərinin ölçülməsinin texnika və texnologiyasının işlənməsi və təkmilləşdirilməsi" mövzusunda iki ixtisas – "quyuların qazılması" (05.15.10) və "faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları" (04.00.12) ixtisasları üzrə Azərbaycan Neft Akademiyasında namizədlik dissertasiyası müdafiə edib texnika elmləri namizədi alimlik dərəcəsini alır. Bir il sonra isə onun doktorluq dissertasiyasının mövzusu təsdiq edilir.

Hazırda S.M.Alxazov 150 elmi İşin, o cümlədən, 8 ixtiranın, 25 tədqiqat işinin və 30 elmi məruzənin müəllifidir. Siyavuş müəllimi dəniz neftinin müxtəlif sahələri maraqlandırır. O, eyni vaxtda mədən-geofiziki tədqiqatların interpretasiyası, inklinometriya, əyri qazıma, qazına zamanı təzahürlərlə əlaqədar mürəkkəbləşmələrin təyini, fiziki sahələrin qazımada tətbiqi, iqtisadiyyat, əməyin təşkili, əməyin mühafizəsi və təhlükəsizlik texnikası məsələləri üzrə müxtəlif problemlər üzərində işləyir.

S.M.Alxazov respublikada çox təcrübəli və yüksək səviyyəli dəniz neftçisi və geofizika mütəxəssislərindəndir. O, bir geofizik kimi, müstəqil olaraq məsələ qoymağı, onu həll və tətbiq etməyi bacarır.

S.M.Alxazov 1962-ci ildən kiçik fasilələrlə, geniş pedaqoji **fəaliyyətlə məşğul ol**muşdur. O, dəvət və müsabiqə əsasında orta ümumtəhsil, peşə-texniki, orta ixtisas, istehsalat təhsili və ali təhsil sistemləri üzrə 6 müəssisədə Neft Daşlarındakı 73 saylı axşam-növbəli məktəbdə (Azərbaycan dilində), Bakının Nizami rayonundakı 214 saylı rus məktəbində, Bakı Kompüter Liseyində (Azərbaycan və rus dillərində), Bakı Axşam Neft Texnikumunun Neft Daşlarındakı filialında (rus dilində), Dəniz Mədən-Geofizika Kantorunda (rus dilində) və Bakı Dövlət Universitetində (Azərbaycan dilində) qiyabi, axşam, gündüz və istehsalat kurs-seminar təhsİl formalarında 31 təhsil ili ərzində 18 fəndən - Kimya, Zoologiya, Darvinizm əsasları, Fizika, Riyaziyyat, Astrononiya, Rəsmxət (orta təhsil sistemi üzrə), Ümumi biologiya, Dünyanın iqtisadi və sosial coğrafiyası (peşə-texniki təhsil sistemi üzrə), Ümumi neft və neft-mədən geologiyası, Geodeziya, Neft və qaz quyularının qazılması, Neft və qaz quyularının istismarı, Neft mədənlərinin avadanlığı, Təhlükəsizlik texnikası (orta ixtisas təhsili üzrə), Mədən geofizikasının texnika və texnologiyası, Mədən-geofiziki tədqiqat materiallarının interpretasiyası (istehsalat təhsili sistemi üzrə) və Geofiziki tədqiqat üsulları (ali təhsil sistemi üzrə, fənlərindən dərs demişdir.





S.M.Alxazova 1994-cü ildə 214 saylı məktəbdə attestasiya yolu ilə 14-cü dərəcəli (I kateqoriyalı) müəllim adı verilmiş, 2000-ci ildə isə 15-ci dərəcəli (ali kateqoriyalı) müəllim olmuşdur. S.M.Alxazov Azərbaycan Pedaqoji Cəmiyyətinin üzvü (1978-ci ildən), Cəmiyyətin Neft Daşlarındakı ilk təşkilatının sədri (1978-ci ildən), 214 saylı məktəbin "Gənc Tusiçilər" fizika üzrə fənn dərnəyinin yaradıcısı və rəhbəri (1994-1997), iki dəfə (1994; 1995) ali məktəblərə qəbul imtahanlarında nəzarətçilər qrupunun rəhbəri, peşə-texniki məktəblər və liseylər üzrə respublika coğrafiya olimpiadasında yoxlama komissiyasının sədri (17.06.2001) və dərs dediyi müddətdə pedaqoji sahəyə aid 10-a qədər elmi-metodiki işlərin müəllifi olmuşdur.

1955-ci ildən çap olunan S.M.Alxazov 2500-ə qədər elmi, texniki, pedaqoji, bədii. publisistik yazıların müəllifidir. O, müxtəlif istiqamətli yaradıcılığı indi də davam etdirir. Siyavuş müəllimin kitab, jurnal, qəzetdən ibarət 5 min nüsxəli zəngin kitabxanası, 150 qovluqdan ibarət çox zəngin arxivi, 50-yə qədər eksponatdan ibarət əl işləri kolleksiyası və rəsmləri vardır. Siyavuş müəllimin gözəl ailəsi vardır. Yoldaşı Nisə xanım Slavyan Universitetində baş metodistdir. Yeganə övladı – qızı İradə 3 universitet bitirmiş, 10 peşəyə yiyələnmişdir. İşıq idarəsində şöbə rəisi işləyir. Bir qız anasıdır.

S.M.Alxazov "Rəşadətli əməyə görə" (1970), "Əmək veteranı" (1986) medalları və çoxlu sayda Fəxri fərmanlar və təşəkkürnamələrlə təltif olunmuşdur.

S.M.Alxazov qayğıkeş ailə başçısı, çox çalışqan, işgüzar, sadə və təvazökar bir insan kimi onu tanıyanların hörmətini qazanmışdır.

*Elnur İsgəndərov*

**"NEFT DAŞLARI"**
İctimai-iqtisadi, siyasi neftçi qəzeti
Təsisçi: "Neft Daşları" Neft və
Qazçıxarma idarəsi
Baş redaktor: Xeyrulla Ağayev
14 may 2005-ci il. № 5-6 (1404), s.7.

№ 5-6 (1404) 14 may 2005-ci il



S. Alxazov - 70

ZİYALI ÖMRÜ





## ZİYALI ÖMRÜ

Uşaqlıq və gənclik illərini Tbilisidə keçirən Siyavuş Alxazov orta təhsilini burada almış və on bir il əlacı olmaqla məktəbi qızıl medalla başa vurduqdan sonra (1954), Bakıda Azərbaycan Neft və Kimya İnstitutunu (1959), axşam Markisizm-Leninizm Universitetini (1970), Azərbaycan Texniki Yaradıcılıq və Patentşünaslıq İnstitutunu (1990) və digər təhsil ocaqlarını bitirərək, "dağ mühəndisi-geofizik", "iqtisadi biliklərin təbliğatçısı", "patentşünas", "jurnalist", "fizika müəllimi", "kimya-biologiya müəllimi", "coğrafiya müəllimi", "III kateqoriyalı kinomexanik" və başqa 10-dan çox ixtisas və peşələrə yiyələnmiş və fəhlə, texnik, mühəndis, elmi İşçi, pedaqoq, jurnalist və kinorejissor vəzifələrində çalışmışdır.

Hələ təhsil illərində S.M.Alxazov ictimai-siyasi və elmi-texniki yaradıcılıq fəaliyyəti göstərmişdir. O, dörd il (1950-1954) məktəb komsomol təşkilatının katibi, məktəbin "Pioner" və "Komsomolçu" divar qəzetlərinin redaktoru, üç il (1956-1959) Azərbaycan Neft və Kimya İnstitutunun Komsomol Komitəsinin mədəni-kütləvi işlər üzrə üzvü, institutun ədəbiyyat dərnəyinin nümayəndəsi olmuş, məktəbin və məktəbdənkənar müəssisələrin bir sıra fənn peşə və bədii dərnəklərində Tələbə Elmi Cəmiyyəti və digər yaradıcı kollektivlərin işində iştirak etmiş, elmi məruzələrlə çıxış etmiş, özünün bir sıra ixtira və konstruksiyalarını öz əlilə sərgilər üçün hazırlamış və gənc kimyaçıların respublika olimpiadasının qalibi olmuşdur (1954, Tbilisi).

S.M.Alxazov əmək fəaliyyətinə 1957-ci ildə tələbə ikən, Cizak şəhərində yerləşən Özbəkistan Geofizika Ekspedisiyasının Zərəfşan dəstəsində fəhləlikdən başlamışdır. Burada o, kəşfiyyatçı geofizik - əvvəl III sonra IV dərəcəli metallometr kimi Qisar və Zərəfşan dağlarını qarış-qarış gəzmiş və metallometriya qrupu

işçiləri burada faydalı qazıntı yatağı anomafiyası aşkar etmişlər. Bunun üçün ona rəhbərlik tərəfindən təşəkkür elan edilmişdir.

İnstitutun geoloji-kəşfiyyat fakültəsini "Faydalı qazıntı yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı" (04.12.00) ixtisası üzrə bitirdikdən sonra (1959), S.M.Alxazov təyinatla "Azneftgeofizika" Trestinin Dənizdə Geofizika İşləri Kantoruna gəlmiş və kantorun "Neft Daşları" Dəniz Mədən-Geofizika Ekspedisiyasında texnik-operator, mühəndis-operator, mədən-geofizika dəstəsinin növbə rəisi, nəzarət-interpretasiya dəstəsinin rəisi və ekspedisiya rəisinin müavini vəzifələrində çalışmışdır. 30 ildən artıq bir müddətdə Neft Daşlarında öz ixtisası və əvəzçilik üzrə işlədiyi digər sahələrdə: istehsalat, elm, təhsil, mədəniyyət və ictimai işlərdə çalışan Siyavuş Alxazov "Neft Daşları" neftqaz yatağının və Neft Daşları dəniz şəhərinin dünya şöhrəti qazanmasında müəyyən rol oynamışdır.

1959-1990-cı illərdə Xəzərin Azərbaycan sektorunun, xüsusilə, Abşeron arxipelağının öyrənilməsində S.M.Alxasovun, hər şeydən əvvəl, dəniz neft mütəxəssisi kimi mədən geofizikasının hər iki: texnika və interpretasiya sahələrində Neft Daşlarında səmərəli və faydalı mühəndislik fəaliyyəti olmuş dur. S.M.Alxazov mədən-geofizika dəstəsində, sonra isə ekspedisiyanın texniki rəhbəri kimi əvvəlcə geofizikanın texniki sahəsində fəaliyyət göstərərək, Neft Daşlarının yüzlərlə quyularında şəxsən geofiziki tədqiqat ölçü işləri aparmış və sonra bu işlərə başçılıq etmiş, kantor rəhbərliyinin tapşırığı ilə müəssisədə ilk OKS-56 avtomat karotaj stansiyasının, yeni geofiziki üsulların - indiksiya, dielektrik, maqnit karotajı üsulları və cihazlarının mənimsənilib işə salınmasında iştirak etmiş, radioaktiv karotaj cihazlarının etalonlaşdırılmasının üsulunu və texnologiyasını mənimsəyərək müəssisədə tətbiq etmiş və trestin əmri (1964) və tərtib etdiyi proqramı əsasında iki aylıq seminar-kursun rəhbəri və müəllimi kimi müəssisənin mühəndis-texnik işçilərinin ixtisasının artırılmasına kömək göstərmişdir. Sonra isə





trestin tapşırığı ilə ekspedisiyada İnterpretasiya xidmətini təşkil etmiş, nəzarət interpretasiya dəstəsinin əsasını qoymuş (1966) və dəstənin rəisi kimi qazılan hər quyu üçün tədqiqlərin mədən-geofiziki göstəricilərinin təhlili nəticələri olan geoloji-geofiziki "Rəylər", quyulardan neft və qaz almaq məqsədilə sınaq obyektlərinin təyini barədə "Tövsiyyələr", yatağın İstismarına nəzarət məqsədilə yerinə yetirilən ölçü kompleksinin təhlili nəticəsi olan "Rəylər" vermiş və "Günəşli" və "Həzi Aslanov" neft yataqlarının kəşfində iştirak etmiş, quyuların mədən-geofiziki tədqiqat materiallarının miqdarı təhlili üzrə respublikada ilk müfəssəl rəsmi "Rəy" vermişdir. (1973-cü il, "Neft Daşları" yatağı, quyu №-1726).

Neft Daşlarında işlədiyi müddətdə S.M.Alxazovun beş səmərələşdirici təklifi istehsalatda tətbiq olunmuş, dörd elmi işi, elmi məcmuələrdə dərc edilmiş və bir neçə işləmələrinin tətbiqinə trest tərəfindən icazə verilmışdir.

1960-1990-cı illərdə S.M.Alxazov Neft Daşlarında geniş maarifçilik fəaliyyəti göstərmişdir. O, burada mühəndisliklə yanaşı, elmi, pedaqoji, maarifçilik, mədəniyyət və jurnalistika sahələrində çalışmışdır. S.M.Alxazov burada 30 il iqtisadi məktəbin təbliğatçısı olmuş, məktəb və texnikumda dərs demiş, kino maarifçisi olmuş və geniş miqyasda müxbirlik etmişdır. S.M.Alxazov dəniz neftçilərinin maarifləndirilməsi və onların nailiyyətlərinin geniş təbliği məqsədilə, Neft Daşlarında "Xəzərin səsi" - "Qolos Kaspiyə" radiostansiyasının (1965), respublikada ilk "Xəzərfilm" Xalq Özfəaliyyət Kinostudiyasının (1975) əsasını qoymuş, çoxtirajlı "Neft Daşları" - "Neftyanıye Kamni" qəzetlərinin açılmasının (1967) təşəbbüsçülərindən biri olmuş, Azərbaycan Jurnalistlər" İttifaqının (1976), Azərbaycan Kitabsevərlər Cəmiyyətinin (1977), Azərbaycan Pedaqoji Cəmiyyətinin (1978) Neft Daşlarında ilk təşkilatlarını yaratmış və bu işlərdə şəxsi yaradıcılıqla iştirak və onların işlərinə rəhbərlik etmişdir S.M.Alxasov Neft Daşlarında işlədiyi

müddətdə 1500 yerli radio verilişləri hazırlanmış, 100-dən artıq informasiya və süjetləri Bakı və Moskvanın radio və televiziyası ilə səslənmiş və göstərilmiş, 500-dən artıq müxtəlif janrlı jurnalistik materialları Neft Daşları, Bakı və Moskva şəhərlərinin 50-yə qədər müxtəlif mətbuat orqanlarında dərc edilmiş, 30 nəfər kino həvəskarı hazırlamış (onlardan bir neçəsi, müstəqil, həvəskar film çəkmişdir), mədəniyyət sarayında və kitabxanada neftçilər qarşısında ədəbiyyat və kino maarifi sahələrində məruzələr etmiş və mühazirələr oxumuş, dəniz şəhərində neftçilərin çətin əmək şəraitinə, istirahət və yaradıcılıqlarına həsr olunmuş 22 sənədli həvəskar filmi çəkmiş, respublika, ümumittifaq və beynəlxalq müsabiqələrin laureatı olmuşdur. Siyavuş Alxazov 1969-cu ildən SSRİ Jurnalistlər İttifaqının, 1978-ci ildən Azərbaycan Kinematoqrafçılar İttifaqı Aktivinin üzvü, 15 il sex partiya təşkilatı katibi olmuş və uzun müddət bir sıra respublika qəzet və jurnallarının və Azteleradionun ştatdankənar müxbiri kimi Neft Daşlarını təmsil etmişdir.

1990-cı ildə S.M.Alxazov elmi işə dəvət olunaraq, köçürmə yolu ilə və müsabiqə vasitəsilə Ümumittifaq Neft Elmi Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunun "Geofizika işlərinin təhlükəsizliyi" bölməsində böyük elmi işçi vəzi-fəsini də tutmuş, iki il sonra "Qazma işlərinin təhlükəsizliyi" laboratoriyasında həmin vəzifədə çalışmışdır. İnstitutda işlədiyi dörd il ərzində üç ixtiranın müəllifi, 10-dan artıq elmi tədqiqat işlərinin icraçısı, məsul icraçısı və Elmi Şura bölməsinin katibi olmuşdur. 1994-cü ildən S.M.Alxasov köçürmə yolu ilə və müsabiqə vasitəsilə Dəniz Neft və Qaz Yataqlarının işlənməsi üzrə Dövlət Elmi Tədqiqat və layihə İnstitutu – “Dənizneftqazlayihə”nin “Neftqazmədən geofizikası” laboratoriyasında 6 il böyük elmi işçi vəzifəsində çalışmış və 2000-ci ildən burada aparıcı elmi işçi vəzifəsinə keçirilmişdir. İnstitutda işlədiyi müddətdə 5 patent almış və 20-yə qədər elmi-texniki işləmənin icraçısı və məsul





icraçısı olmuşdur. S.M.Alxazov eyni zamanda institutun üç elmi bölməsinin - "Geoloji-kəşfiyyat və neftqaz yataqlarının işlənməsi", "Quyuların qazılması" və "İqtisadi tədqiqatlar" bölmələrinin üzvü olmuş, beynəlxalq, ümumittifaq və respublika konfrans və seminarlarında məruzələrlə çıxış etmişdir. S.M.Alxazov istehsalatda və elmi tədqiqat institutlarında aldığı böyük təcrübə əsasında yaratdığı çoxsaylı elmi-texniki yeniliklərini ümumiləşdirərək, 1995-ci İldə "AzərGeofizika" Elmi Tədqiqat İnstitutunun dissertantı olur və üç il sonra, 1998-ci ildə "Böyük zenit bucaqlı mail istiqamətlənmiş quyuların lülələrinin əyrilik parametrlərinin ölçülməsinin texnika və texnologiyasının işlənməsi və təkmilləşdirilməsi" mövzusunda iki ixtisas - "quyuların qazılması" (05.15.10) və "faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları" (04.00.12) ixtisasları üzrə Azərbaycan Neft Akademiyasında namizədlik dissertasiyası müdafiə edib texnika elmləri namizədi alimlik dərəcəsini alır. Bir il sonra isə onun doktorluq dissertasiyasının mövzusu təsdiq edilir. Hazırda S.M.Alxazov 150 elmi işin, o cümlədən, 8 ixtiranın, 25 tədqiqat işinin və 30 elmi məruzənin müəllifidir. Siyavuş müəllimi dəniz neftinin müxtəlif sahələri maraqlandırır. O, eyni vaxtda mədən-geofiziki tədqiqatların interpretasiyası, İnklinometriya, əyri qazıma, qazıma zamanı təzahürlərlə əlaqədar mürəkkəbləşmələrin təyini, fiziki sahələrin qazımada tətbiqi, iqtisadiyyat, əməyin təşkili, əməyin mühafizəsi və təhlükəsizlik texnikası məsələləri üzrə müxtəlif problemlər üzərində işləyir.

S.M.Alxazov respublikada çox təcrübəli və yüksək səviyyəli dəniz neftçisi və geofizika mütəxəssislərindəndir. O, bir geofizik kimi, müstəqil olaraq məsələ qoymağı, onu təhlil və tətbiq etməyi bacarır. S.M.Alxazov 1962-ci ildən, kiçik fasilələrlə, geniş pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, dəvət və müsabiqə əsasında orta ümumtəhsil, peşə-texniki, orta ixtisas, istehsalat təhsili və ali təhsil sistemləri üzrə 6 müəssisədə Neft Daşlarındakı

73 saylı axşam-növbəli məktəbdə (Azərbaycan dilində), Bakının Nizami rayonundakı 214 saylı rus məktəbində, Bakı Kompüter Liseyində (Azərbaycan və rus dillərində), Bakı Axşam Neft Texnikumunun Neft Daşlarındakı filialında (rus dilində), Dəniz Mədən-Geofizika Kantorunda (rus dilində) və Bakı Dövlət Universitetində (Azərbaycan dilində) qiyabi, axşam, gündüz və istehsalat-kurs-seminar təhsil formalarında 31 təhsil ili ərzində 18 fəndən - Kimya, Zoologiya, Darvinizm əsasları, Fizika, Riyaziyyat, Astronomiya, Rəsmxət (orta təhsil sistemi üzrə), Ümumi biologiya, Dünyanın iqtisadi və sosial coğrafiyası (peşə-texniki təhsil sistemi üzrə), Ümumi neft və neft-mədən geologiyası, Geodeziya, Neft və qaz quyularının qazılması, Neft və qaz quyularının istismarı, Neft mədənlərinin avadanlığı, Təhlükəsizlik texnikası (orta İxtisas təhsili üzrə), Mədən geofizikasının texnika və texnologiyası, Mədən- geofiziki tədqiqat materiallarının interpretasiyası (istehsalat təhsili sistemi üzrə) və Geofiziki tədqiqat üsulları (ali təhsil sistemi üzrə) fənlərindən dərs demişdir. S.M.Alxazova 1994-cü İldə 214 saylı məktəbdə attestasiya yolu ilə 14-cü dərəcəli (I kateqoriyalı) müəllim adı verilmiş, 2000-ci ildə isə 15-ci dərəcəli (ali kateqoriyalı) müəllim olmuşdur. S.M.Alxazov Azərbaycan Pedaqoji Cəmiyyətinin üzvü (1978-ci ildən), Cəmiyyətin Neft Daşlarındakı ilk təşkilatının sədri (1978-ci ildən), 214 saylı məktəbin "Gənc Tusiçilər" fizika üzrə fənn dərnəyinin yaradıcısı və rəhbəri (1994-1997), iki dəfə (1994, 1995) ali məktəblərə qəbul imtahanlarında nəzarətçilər qrupunun rəhbəri, peşə-texniki məktəblər və liseylər üzrə respublika coğrafiya olimpiadasında yoxlama komissiyasının sədri (17.06.2001) və dərs dediyi müddətdə pedaqoji sahəyə aid 10-a qədər elmi-metodiki işlərin müəllifi olmuşdur.

1955-ci ildən çap olunan S.M.Alxasov 2500-ə qədər elmi, texniki, pedaqoji, bədii, publisistik və jurnalistik yazıların müəllifidir. O, müxtəlif istiqamətli yaradıcılığı indi də davam etdirir. Siyavuş müəllimin kitab, jurnal, qəzetdən ibarət 5 min nüsxəli





zəngin kitabxanası, 150 qovluqdan ibarət çox zəngin arxivi, 50-yə qədər eksponatdan ibarət əl işləri kolleksiyası və rəsmləri vardır. Siyavuş müəllimin gözəl ailəsi vardır. Yoldaşı Nisə xanım Slavyan Universitetində baş metodistdir. Yeganə övladı - qızı İradə 3 universitet bitirmiş, 10 peşəyə yiyələnmişdir. İşıq idarəsində şöbə rəisi işləyir. Bir qız anasıdır.

S.M.Alxasov "Rəşadətli əməyə görə" (1970), "Əmək veteranı" (1986) medalları və çoxlu sayda Fəxri fərmanlar və təşəkkürnamələrlə təltif olunmuşdur.

S.M.Alxasov qayğıkeş ailə başçısı, çox çalışqan, işgüzar, sadə və təvazökar bir insan kimi onu tanıyanların hörmətini qazanmışdır.

Aprelin 24-də Bakıda saat $15^{00}$ "Zirvə" restoranı öz zirvə sahibini gözləyirdi. Əslində Siyavuş müəllimin bu tədbirlərdən xəbəri yox idi. Ona bir gün əvvəl xəbər verilmişdi. Yubiley gecəsinin təşkilatçıları – qızı İradə və kürəkəni Nazim idi. "Zirvə" restoranına Siyavuş müəllimin qohum - əqrabası, qonşuları, dostları, yoldaşları toplaşmışdılar. Yubiley gecəsini Nazim və İradə açdılar, qonaqları salamladılar. Yubiley haqqında ağız dolusu razılıq və tərif dedilər və övladlıq borclarını bir daha yerinə yetirdilər.

Yubiley gecəsində iştirak edənlərin, demək olar ki, hamısı öz ürək sözlərilə çıxış edib Siyavuş müəllimin 70 illik yubileyi münasibətilə onu təbrik etdilər və can sağlığı arzuladılar.

Yubiley gecəsi iştirakçılarına "Kredo" qəzetinin yenicə çıxmış nömrəsi paylandı. Burada jurnalist Elnur yubilyar haqqında geniş portret materialı çap olunmuşdur. Yubiley gecəsində Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatı Vahid Hacıyev böyük nitq söylədi.

Yubiley yığıncağı "Zirvə" restoranının ansamblının xoş sədaları altında gecədən keçənədək çox şən keçdi və video görüntü ilə tarixin yaddaşına həkk olundu.

Sonda yubilyara söz verildi. Siyavuş müəllim yubileyin keçirilməsində hər hansı bir zəhməti olanların hamısına öz minnətdarlığını bildirdi və bir yubilyar kimi, həm də 70 yaşın zirvəsindən danışmağın nə dərəcədə çətin olduğunu qeyd etdi. O dedi ki, heç kəs ömrünün müdrik çağında səhvə yol verməməlidir. Bu yaşda olanlardan dinləyici, ağıllı söz, müdrik kəlamlar eşitmək istəyir, düzgün məsləhətlər almağı istəyir.

- İndi özünüz təsəvvür edin burada dayanmaq və bir yubilyar kimi danışmaq nə dərəcədə çətindir. Düzü mən yubileyin keçirilməsini istəmirdim. Çünki yubiley bir hesabat olmaqla, səndən dönüb arxaya baxmağı, gördüyün işlərə yekun vurmağı tələb edir. Mən isə demək olar ki, yubileyə əliboş gəlmişəm, bir sıra görüb qurtarmaq istədiyim işləri tamamlaya bilməmişəm, yarımçıq işlərim çoxdur. Lakin söz verirəm ki, yaxın vaxtlarda vacib işlərimi başa çatdıracağam. Hazırda özümü sağlam və gümrah hiss edirəm. Səhhətimdən şikayətim yoxdur, orqanizmimdə heç bir problem də yoxdur (sürəkli alqışlar. Replika "uzun ömür, yüz il yaşa"). Hamınıza da sağlam, uzun ömür arzulayıram. Bunu üçün isə sakit və zəhmətli həyat sürməyi tövsiyə edirəm. Hər xırda şeyə fikir verməyin, hər şeyin üstündə deyinmək can üzən şeydir. Ailədə stresləri azaldın. Qarşılıqlı hörmət vacibdir. Ailəyə bağlılıq vacibdir. Uzun ömürlülüyün sirri zəhmətdir, irəliyə baxmaq şərtilə, qarşına məqsəd qoy və ona çatmağa çalış. İkinci əsas məsələ - hər şeydə rejim və keyfiyyət: qidalanmada da, yuxuda da, zəhmətdə də... Sayıb gəldiyiniz üçün çox sağ olun. Sizə can sağlığı və uzun ömür arzulayıram.

*Xeyrulla Ağayev,*
*Vahid Hacıyev*





**"AÇIQ SÖZ"**

İctimai-siyasi qəzet. Qəzetin əsası 1915-ci ildə M.Ə. Rəsulzadə tərəfindən qoyulmuşdur.
Təsisçi: Fərid Dəmirli və jurnalist kollektivi
Baş redaktor: Mail Dəmirli
30 avqust 2006-cı il. № 460. s.5.



ZİYALI ÖMRÜNÜN İŞIQLARI

Heydar ƏLİYEV

## ZİYALI ÖMRÜNÜN İŞIQLARI

***Bütün ziyalıların, mədəniyyət xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalısı, öz mədəniyyəti, öz elmi ilə tanınır.***

***Heydər Əliyev***

2006-cı ilin aprel ayının 18-i idi. Gündəlik qəzetlərə baxırdım. Nazirlər Kabinetinin orqanı olan "Respublika" qəzetinin 7-ci səhifəsində bir məqalə və şəkil diqqətimi cəlb etdi: "Tanınmış neftçi-alim". Onun zəhmətdən "yoğrulmuş" çöhrəsi məni heyran etdİ. Oxudum. Az qala gözlərİmə inanmadım: bir ömürdə neçə ömür yaşamaq olarmış?! Bir insan nə qədər iş görə bilərmiş!? Sonradan mənə məlum oldu ki, burada yazılan hər bir cümlənin, hər bir faktın doğruluğu üçün neçə-neçə sənəd, dəlİl-sübut vardır. Həm də hər cümlənin arxasında nə qədər zəhmət, nə qədər görülmüş işlər durur. Sözüm onda deyil, mənim diqqətimi başqa bir məsələ daha çox cəlb etdi. Sən demə Siyavuş Alxazov bütün neft sənayesi tarixində yeganə adamdır ki, burada o, bilavasitə neft mütəxəssisi kimi işləməklə yanaşı, eyni vaxtda elm, texnika, istehsalat, maarif, mədəniyyət, təhsil, kütləvi informasiya vasitələri, kino, foto, ictimai iş və başqa sahələrdə də çalışmış, özünün yaratdığı yeni sahələrlə şəxsən məşğul olmuş və konkret yaradıcılıq nailiyyətləri əldə edərək işlədiyi neft sahəsi üçün çox cəhətli, faydalı xidmət göstərmişdir.

Neftçilər İçərisində maarifpərvər ziyalı olan Siyavuş Alxazov 31 il işlədiyi Neft Daşları üçün, sonra da, artıq 50 ildir öz sevimli peşəsi - üçün böyük xidmət göstərmişdir. Onun 70 illik həyatı, 55 illik ictimai və 50 illik yaradıcılıq fəaliyyəti gənc nəsil üçün əsl örnəkdir. Bu məqsədlə də mən Siyavuş müəllimin ömür yolu ilə müfəssəl tanış olmağı lazım bildİm. Lakin bu yazıda onun ancaq maarifçilik fəaliyyətindən danışmaq istərdim. Çünki onun bioqrafİyası ilə tanış olduqdan sonra, onu - neftçi-alim kimi tanıdığımız Siyavuş Alxazovu - mən, əsl maarifçi kimi, özüm üçün yenidən kəşf etmişdim.





...Heç də hər şey genlə gəlmir, fitri olmur. İstedadın müəyyən hissəsi həyatda qazanılır. Bunun üçün həvəs və çalışqanlıq lazımdır. Siyavuş müəllim həddindən artıq zəhmətkeş adamdır. O artıq 50 il-dən çoxdur, hər gün 36 saat işləyir. Həm də o buna uşaqlıqdan öyrəşib.

Hələ məktəb illərində 4 il ( 950-1954) məktəb komsomol təşkilatının katibi işləyərkən, öz ictimai fəaliyyətinin böyük bir hissəsini şagirdlərin intellektual səviyyəsinin, mədəniyyətinin yüksəldilməsinə sərf edirdi. Məsələn, məktəbdə o, fənn müəllimləri ilə birlikdə fənn dərnəkləri təşkil edir və təhsillərinin keyfiyyətini qaldırmağa çalışırdı. Özü də şəxsi nümunə göstərərək, dərnəklərdə elmi məruzələr ilə çıxış edərdi. O, məruzələrini olduqca cazibəli qurardı. Müəllimlərin təklifi ilə fənn dərnəklərinin böyük əksəriyyətinin sədri və ya katibi idi. Katibi olduğu dərnəklərin işini çox səliqəli olaraq albomlarda əks etdirirdi.

Siyavuş məktəb yoldaşları içərisində yaşca böyüyü idi. Onun məktəbə gəlişi müharibə vaxtına düşmüşdü (1943). O zaman uşaq bağçasında olanları məktəbə ancaq səkkız yaşları tamam olandan sonra bağçadan məktəbə köçürürdülər. Siyavuş birinci sinifdən başlamış ta axıra kimi bütün siniflərdə əlaçı olmuşdur. Müəllimlərdən xəstələnən olanda məktəbin müdiriyyəti Siyavuşu gəlməyən müəllimin yerinə dərsə göndərirdi. Siyavuş zəif şagirdlərə şəxsən kömək edir, bir komsomol katibi kimi isə zəif şagirdlərlə əlavə məşğələlər təşkil edirdi. Siyavuş məktəbdə ikən özünün səviyyəsinin yüksəldilməsinə xüsusi qayğı ilə yanaşırdı. O, Tbilisi Pioner və Məktəblilər Sarayını, Respublika Gənc Texniklər Stansiyasının, Aqrobiostansiyanın bir sıra dərnəklərinin müdavimi olmuş, uşaqlıqdan hər sahədə qabiliyyət əldə etmiş və yaradıcılıq-l0a məşğul olmuşdur. Gənc kimyaçıların Respublika olimpiadasında iştirak edən Siyavuş olimpiadanın hər üç turunun qalibi olmuşdur. Özünə tələbkar yanaşan Siyavuş, başqalarının da maarif-

ləndirilməsinin qeydinə qalırdı. O, bunu özünün bir insanlıq ictİmai vəzifə borcu hesab edirdi. Öz, hazırladığı və redaktə etdiyi "Pioner' və "Komsomolçu" məktəb divar qəzetləri vasitəsilə şagirdlərin maariflənməsinə hərtərəfli kömək edirdi.

Siyavuş məktəbdə tez-tez ekskursiyalar təşkil edirdi. Xüsusilə Rüstavi metallurgiya zavoduna, "Qruziyafilm" kinostudiyasına, Gürcüstanın qədim paytaxtı Mtsxeta şəhərinə olan ekskursiyalar çox maraqlı keçmişdi. Siyavuş Tbilisi azərbaycanlılarının balalarını tez-tez mədəni-maarif ocaqlarına aparmaq üçün biletlər tapıb gətirər, şagirdlər arasında yayardı. Xüsusilə Zaxari Paliaşvili adına Tbilisi Opera və Balet Teatrına, Şota Rustaveli adına Gürcüstan Dövlət Akademik Dram teatrına, Bakıdan gələn Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının qastrollarına tamaşa üçün daha tez-tez kollektiv gediş təşkil edərdi.

Məktəbi qızıl medalla başa vurub Bakıya gələn (1954) Siyavuş Alxazov artıq Azərbaycan Neft və Kimya institutu geoloji-kəşfiyyat fakültəsinin tələbəsi idi. O, burada da mədəni-maarif işlərinə həvəs göstərir, institut həyatında fəal iştirak edirdi. Birinci kursda ikən institutun Xalq çalğı alətləri orkestrində tar çaldı, ikinci kursda ikən həmin fakültənin IV kurs tələbəsi olan Məmməd Məmmədovun təşkil etdiyi ədəbiyyat dərnəyinin üzvü oldu və nümayəndəsi seçildi. Hələ məktəbdə ikən ara-sıra şerlər yazan Siyavuş Bakıda texniki institutlar üzrə ilk dəfə burada yenicə təşkil olunan bu dərnəyin işində fəal iştİrak edir, divar qəzeti buraxırdı. Bununla Siyavuş texniki təmayüllü gələcək ziyalılara bədii zövq aşılamağa çalışırdı, Siyavuş burada Tələbə Elmi Cəmiyyətinin üzvü olduqdan sonra da özünün və başqalarının intellektual səviyyələrinin artması qayğısına qalırdı.

Siyavuş Alxazov III kursda ikən institut Komsomol Komitəsinin mədəni-kütləvi işlər üzrə üzvü seçilir. 12 min tələbəsi olan institutun gənclərinə rəhbərlik edən bir təşkilatın on bir nəfər üzvündən biri kimi Siyavuşun üzərinə böyük məsuliyyət qoyulmuşdu. Tələbə yoldaşları ona zarafatla "institutun mədəniy-





yət naziri" deyirdilər. Məktəbdə olduğu kimi burada da Siyavuşun təşkilatçılıq qabiliyyəti bir daha üzə çıxmışdı. Tam 3 il Siyavuş İnstitutda bu istiqamətdə gələcək neftçilərin hərtərəfli maariflən-dirilməsində, bədii zövqlərinin formalaşdırılmasında çox iş gördü.

İnstitutu müvəffəqiyyətlə bitirən Siyavuş Məmmədiyə oğlu Alxazov dağ mühəndisi-geofizik ixtisası ilə təyinatla Neft Daşların" gəlir və 1990-cı ilə qədər 31 il bu-rada işləyir.

Təhsil illərində gördüyü işlər, qazandığı təcrübə ona burada daha çox gərək olacaqdı.

Sİyavuş Alxazov buraya gələndə, 1949-cu ildən istismara başlamış Neft Daşları artıq özünün 10 illik yubileyini qeyd etmişdi. 10 il ərzində istehsalatda çox dəyişikliklər baş vermişdi. "Neft Daşları" artıq dünyaya tanınmış unikal neft yatağı idi. Buradan sutkada minlərlə ton neft çıxarılırdı. Estakadaların ümumi uzunluğu 150 kilometrə çatmışdı. İşçilərin sayı 4 mini ötmüşdü. Onlar növbəli qrafik sistemi ilə işləyərək, ayda iki dəfə buraya gəlir və hər dəfə 7-8 gün sahildə qalırdılar. Yəni işçilər üçün burada şəhər şəraiti yaratmaq lazım idi. Tədricən Neft Daşları açıq dənizdə əsl dəniz şəhərinə çevrildi. S.M. Alxazov buraya gələndə Neft Daşlarında neft təsərrüfatından başqa, ancaq poçt kİtabxana, Mədəniyyət evi, Neft texnikumunun filialı var idi.

Neft Daşlarında gündəlik mühəndis fəaliyyətini davam etdirməklə yanaşı S.M. Alxazov çox düşünürdü, çox götür-qoy edirdi: "Burada geniş maarifçilik fəaliyyətinə çox ehtiyac var". İşdən qayıdan S. Alxazov hər axşam bu mövzuda düşünürdü. İşdən sonra fəhlələrin axşamlar dominodan başqa məşğuliyyəti yox idi. Bir də ki, hər axşam filmə baxmaq olurdu. Vəssalam. Lakin gündüzlər çətin neft işilə məşğul olan işçilərin axşamlar mədəni istirahətini, onların intellektual və mədəni səviyyələrinin yüksəldilməsini təmin etmək lazım idi. Bütün bunlar çoxşaxəli və çox böyük məsələlərdir. Bu istiqamətdə çox iş görmək lazım idi. Lakin bu məsələlərlə məşğul olmaq üçün fövqəladə bir qüvvəyə, daxili zənginliyə malik, yüksək mənəviyyatlı, böyük

ürəkli adamlar lazım idi. Bütün qarşıdakı işlər, Neft Daşlarının təbii şəhər şəraitinə olan tələbatı S. Alxazovu, özündən asılı olmayaraq, tədricən özünə doğru çəkməkdə idi.

İşdən sonra axşamlar Siyavuş gündəlik mətbuatı oxuyur, təbliğatçılıqla məşğul olurdu. İkimərtəbəli taxta yataqxanada qırmızı guşəyə xeyli adam yığışardı. Fəhlələr iqtisadiyyata dair ona xeyli suallar verərdilər. İqtisadi biliklərin təbliği ilə məşğul olmağa başlayan Siyavuş Alxazov bu işlərlə düz 30 il vicdanla məşğul oldu. O, hər axşam fəhlələrlə görüşür və onların suallarına cavab verməkdən, onları iqtisadi maarifləndirməkdən həzz alırdı. Ümumiyyətlə o, iqtisadi məktəbin rəhbəri olmağından indi də fəxrlə danışır.

1961-ci il idi. Maarif nazirliyinin qərarı ilə Neft Daşlarında 73 saylı tam orta növbəli fəhlə - gənclər məktəbi açılmışdı. Avqust ayında məktəb tam tərkibdə gəmi ilə Neft Daşlarına gəldi. 1962-ci ilin aprel ayında məktəbin rəhbərliyi kimyadan dərs demək üçün ekspedisiyadan ali təhsilli mühəndis istədikdə, ekspedisiya S.M. Alxazovu məsləhət görmüşdü. Siyavuş müəllim burada bir sıra fənlərdən 17 il dərs dedi. Bu illər ərzində özü 2 il əlavə pedaqoji təhsil alan Siyavuş müəllim neftçi fəhlələrin hərtərəfli biliklərlə maarifləndirilməsi yolunda bütün pedaqoji qabiliyyətini qoymuşdu. Sosialist Əməyi Qəhrəmanı Xanoğlan Bayramov və yüzlərlə dəniz cəsurları onun yetirmələridir. 4 il sonra, 1966-cı ildə Siyavuş müəllimi texnikumda dərs deməyə dəvət edirlər və üst-üstə cəmi 8 il o, burada Bakı Axşam Neft Texnikumunun Neft Daşlarındakı filialında bir sıra fənlərdən dərs deyir. Burada da o, dəniz neft mütəxəssislərinin hazırlanmasında əlindən gələni əsirgəmir. Siyavuş müəllim də, başqaları kimi texnikumun yetirmələri olan Sosialist Əməyi Qəhrəmanları neftçi Qurban Abbasov, Yusif Kərimovla və onlarla adlı-sanlı dəniz neftçiləri ilə fəxr edir. Uzun illər ərzində, elə indi də burada təhsil almış cəsur dəniz neftçiləri Neft Daşlarının adını həmişə yüksək tutmuşlar, ona şərəf gətirmişlər. Bu işdə Siyavuş müəllimin də payı var.





1963-cü il idi. S.Alxazov burada, kommunal kantrorda tərbiyəçi vəzifəsində işləyən, uşaq şairi Mikayıl Şəfəqli ilə tanış olur. Bu tanışlıq onun üçün növbəti bir stimul və təkan olur. Mədəni-maarif sahəsində institut illərində Məmməd Məmmədovla olduğu kimi, burada da Mikayıl Şəfəqli ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıqlar öz müsbət bəhrəsini vermişdi. M.Şəfəqli 1964-cü ildə S.Alxazovun çətin mühəndislik fəaliyyəti haqqında radio-oçerk yazır və onu respublika radiosu müəllifin ifasında efirə verir. Bir qədər sonra respublika radiosunun dəvətilə S.Alxazov ekspedisiyanın nailiyyətləri haqqında respublika radiosu ilə çıxış edir.

M.Şəfəqlinin dəvətilə yerli radioya və fəhlə müxbirlər şurasına cəlb olunan S.Alxazov əvvəlcə yerli xəbərlər tərtibatına kömək edir. Texnika əldə etdikdən sonra isə "Qolos Kaspiya" adlı yerli radiostansiya yaradır və onun rus dilində ilk verilişini 24.04. i965-ci il tarixdə yerli efirə verir. 1969-cu ildən (M.Şəfəqli Neft Daşlarından getdikdən sonra) "Xəzərin səsi" – "Qolos Kaspiya" Neft Daşları yerli radio verilişləri studiyasına rəhbərlik edir. Siyavuş Alxazov işdən sonra, axşamlarını burada keçirərək, çox geniş radiojurnalist fəaliyyətinə başlayır və öz rəngarəng verilişləri vasitəsilə dəniz neftçilərinin hərtərəfli maarifləndirilməsi məsələsilə məşğul olur. S.Alxazov yerli efirə verilən 1500 verilişin müəllifi olur.

Siyavuş Alxazov eyni vaxtda Neft Daşlarının nailiyyətlərini və dəniz neftçilərinin qəhrəmanlıqlarını, Azteleradionun, "Vışka", "Bakı-Baku" qəzetlərinin, "Təşviqatçı" jurnalının ştatdankənar müxbiri kimi, yaymağa çalışır və Mərkəzi radio, "Pravda", "İzvestiya", "Kommunist", "Bakinskiy raboçiy" və bir sıra digər qəzet və jurnallar vasitəsilə dünya adamlarını məlumatlandırırdı.

1967-cü ildə S.Alxazov və M.Şəfəqli tərəfindən Neft Daşlarında yerli mətbuat orqanının açılması məsələsi qaldırılır. Mərkəzi Komitənin qərarı ilə açılan "Neft Daşları" – "Neftyanıye kamni" çoxtirajlı qəzetlərinin ilk sayı həmin il oktyabr ayının 3-də çıxdı. S.Alxasov 1990-cı ilə qədər qəzetlə ən yaxın əlaqədə öz

publisist yazıları ilə dəniz neftçilərinin maarifləndirilməsi işinə çox zəhmət çəkmişdir.

Siyavuş Alxasov kino maarifinə böyük əhəmiyyət verən ziyalılarımızdandır. O, dəniz neftçilərinin kino sahəsində maarifləndirilməsi arzusunda idi. 1973-cü ildə S. Alxasov öz vəsaitilə fərdi kinostudiya əldə edir və sənədli filmlər çəkməyə başlayır. Sonra S.Alxazov Neft Daşlarında həvəskar kinostudiya təşkil edir və onun ilk iclasını 24.04.1975-ci il tarixdə keçirərək "Xəzərfilm"in əsasını qoyur. 1978-ci ildə kinostudiyaya fəxri ad verilir və o, respublikada ilk Xalq özfəaliyyət kinostudiyası olur. "Xəzərfilm" tərəfindən 22 film çəkilir. Siyavuş Alxazov respublika, ümumittifaq və beynəlxalq müsabiqələrin laureatı olur. Onu respublika Kinematoqrafçılar İttifaqı Aktivinin üzvlüyünə qəbul edirlər. Yeri gəlmişkən deyim ki, o, 1969-cu ildən SSRİ Jurnalistlər İttifaqının üzvü, "Qızıl qələm" mükafatı laureatıdır. S.Alxazov yerli kinostudiyada müntəzəm yığıncaqlar keçirir, həvəskar neftçilərə film çəkməyi öyrədir (onlardan ikisi - Vladimir Kuznetsov və Şövkət Kələntərov müstəqil və çox müvəffəqiyyətli həvəskar filmlər çəkirlər) S.Alxazov Neft Daşlan işçiləri içərisindən 30 nəfər kinohəvəskar hazırlaya bilir. Bundan başqa S.Alxazov dəniz neftçiləri üçün kinoya aid silsilə mühazirələr oxuyur.

S.Alxazov Mədəniyyət sarayının kitabxanasında ara-sıra elmi-publisist və ədəbi ("Nizami", "Maksim Qorki" və s.) mühazirələrlə çıxış edirdi. Elmi məcmuələrdə 4 elmi işini dərc etdirmiş, 2 cihaz ixtira etmiş və 5 səmərələşdirici təklifini istehsalatda tətbiq etmişdi. Bunları da təbliğ etməklə neftçilər üçün şəxsi nümunə göstərir, onları yaradıcılıqla məşğul olmağa sövq edir və intellektual səviyyələrinin yüksəldilməsinə çalışırdı. Mütaliəni və kitabları geniş təbliğ edən S.Alxazov Kitabsevərlər Cəmiyyətinin Neft Daşlarında ilk təşkilatını yaratmış (1977) və onun sədri kimi maarifpərvərlik nümunəsi göstərirdi. Yeri gəlmişkən, burada Jurnalistlər İttifaqının (1976) və Pedaqoji Cəmiyyətin (1978) ilk





təşkilatları da S.Alxazovun səyi ilə yaradılmış və onun maarifləndirərək fəaliyyətinin bir qolunu təşkil edirdi.

Maarifpərvər ziyalı Siyavuş Alxazov hər hansı yolla olur-olsun bütün ömrünü xalqın hərtərəfli maarifləndirilməsinə həsr edib. Onun gördüyü bütün işlər məhz bu İstiqamətə doğru yönəldilmişdir. Xüsusilə, nə çox. nə az, tam otuz il (1960-1990) Neft Daşlarında dəniz neftçilərinin maarifləndirilməsində onun böyük xidmətləri olmuşdur. 1955-ci ildən çap olunan S.Alxazovun 2500-ə qədər elmi texniki, publisist, bədii, ekran və s. yazıları, əl işləri var. Onun var-dövləti, özünün dediyi kimi, ancaq zəngin arxivi, kitabxanası və gözəl ailəsidir. O bütün varlığı ilə ailəsinə, millətinə, xalqına və yaradıcılığına bağlı adamdır.

1990-cı ildə elmi işə dəvət olunan S.Alxazov hazırda neft şirkəti sistemində - "Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. Texnika elmləri namizədidir. Eyni zamanda Bakı Dövlət Universitetində geofizikadan dərs deyir. Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Milli Geofizika Komitəsinin və Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyətinin üzvüdür. "Rəşadətli əməyə görə" və "Əmək veteranı" medalları və bir sıra fəxri fərmanlarla təltif olunub. Ona yeni uğurlar arzulayırıq.

*Davud Dəmirli,*
*fəlsəfə elmləri namizədi,*
*"Qızıl qələm" mükafatı laureatı*

**İnternet – www. Akademiya.net**
**Bülleten .Bizdən soruşun. Bizə yazın. Haqqında. Sizdən gələnlər.**




Bulleten Bizden Soruşun Bize Yazın Haqqımızda

SIZDƏN GƏLƏNLƏR

Ana Səhifə
Sizdən Gələnlər

SIZDƏN GƏLƏNLƏR

ÖMÜR YOLLARI



Azərbaycan ziyalılarından biri, Azərbaycan Dövlət Neft Şirkəti «Dənizneftqazlayihə» Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunun aparıcı elmi işçisi, texnika elmləri namizədi, Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyəti institut şöbəsinin sədri, Azərbaycan Milli Geofizika Komitəsinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, alim-pedaqoq, mühəndis-ixtiraçı, jurnalist-publisist, maarifçi-ictimaiyyətçi Alxazov Siyavuş Məmmədiyə oğlunun anadan olmasının 70, əmək, yaradıcılıq və ictimai fəaliyyətinin 55 illiyi tamam oldu.

Alxazov Siyavuş Məmmədiyə oğlu 1935-ci il aprelin 24-də Bakı şəhərində hərbi qulluqçu ailəsində anadan olmuş, 5 il burada və 1 il Moldaviyanın paytaxtı Kişinyov şəhərində yaşadıqdan sonra, 1941-ci ilin iyununda ailəsi ilə Tbilisiyə köçmüşdür.

Atası Məmmədiyə Kərim oğlu (1905-ci il təvəllüdlü) Şəki gimnaziyasında təhsil aldıqdan sonra Tiflisdə Cənubi Qafqaz Ali Piyada Məktəbini bitirmiş, təyinatla Bakı Salyan Qazarması rəisinin köməkçisi işləmiş, 1941-ci ilin iyununda cəbhəyə getmiş və topçu alayının batareya komandiri kimi kapitan rütbəsində 1945-ci ilin fevralında Böyük Vətən Müharibəsi cəbhəsində itkin düşmüşdür. Respublika Xatirə Kitabının məlumatına görə indiki Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının əsasını qoyanlardan biri olmuşdur (1922).

Anası Surə xanım Hacı Sadıx qızı (1914-cü il təvəllüdlü) Təbriz mənşəli Tiflis azərbaycanlılarından idi. Müharibə vaxtı hərbi geyimlər üzrə tikişçi-usta kimi fabrikdə işləmiş, sonra bir qədər müəllimlik etmişdir. İki övladını (qız və oğul) çox çətinliklə ayağa qaldırdıqdan sonra işləməmiş və oğlunun himayəsində olmuşdur. 1982-ci ildə ağır xəstəlikdən sonra 68 yaşında Bakıda vəfat etmişdir.

[illegible]

http://www.akademiya.net/meqale/omur.html 16.10.2006





## ÖMÜR YOLLARI

Azərbaycan ziyalılarından biri, Azərbaycan Dövlət Neft Şirkəti «Dənizneftqazlayihə» Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunun aparıcı elmi işçisi, texnika elmləri namizədi, Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyəti institut şöbəsinin sədri, Azərbaycan Millİ Geofizika Komitəsinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, alim-pedaqoq, mühəndis-ixtiraçı, jurnalist-publisist, maarifçi-ictimaiyyətçi Alxazov Siyavuş Məmmədiyə oğlunun anadan olmasının 70, əmək, yaradıcılıq və ictimai fəaliyyətinin 55 illiyi tamam oldu.

Alxazov Siyavuş Məmmədiyə oğlu 1935-ci il aprelin 24-də Bakı şəhərində, hərbi qulluqçu ailəsində anadan olmuş, 5 il burada və 1 il Moldaviyanın paytaxtı Kişinyov şəhərində yaşadıqdan sonra, 1941-ci ilin iyununda ailəsi ilə Tbilisiyə köçmüşdür.

Atası Məmmədiyə Kərim oğlu (1905-ci il təvəllüdlü) Şəki gimnaziyasında təhsil aldıqdan sonra Tiflisdə Cənubi Qafqaz Ali Piyada Məktəbini bitirmiş, təyinatla Bakı Salyan Qazarması rəisinin köməkçisi işləmiş, 1941-ci ilin iyununda cəbhəyə getmiş və topçu alayının batareya komandiri kimi kapitan rütbəsində, 1945-ci ilin fevralında Böyük Vətən Müharibəsi cəbhəsində itkin düşmüşdür. Respublika Xatirə Kitabının məlumatına görə indiki Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının əsasını qoyanlardan biri olmuşdur (1922).

Anası Surə xanım Hacı Sadıx qızı (1914-cü il təvəllüdlü) Təbriz mənşəli Tiflis azərbaycanlılarından idi. Müharibə vaxtı hərbi geyimlər üzrə tikişçi-usta kimi fabrikdə işləmiş, sonra bir qədər müəllimlik etmişdir. İki övladını (qız və oğul) çox çətinliklə ayağa qaldırdıqdan sonra işləməmiş və oğlunun himayəsində olmuşdur. 1982-ci ildə ağır xəstəlikdən sonra, 68 yaşında Bakıda vəfat etmişdir. Ata babası - sahibkar, ana babası isə tacir olmuşdur. Ailəlidir: 1 qız övladı və bir qız nəvəsi vardır. Uşaqlıq və gənclik illərini Tbilisİdə keçirən Siyavuş Alxazov,

orta təhsilini burada almış və on bir il əlaçı olmaqla məktəbi qızıl medalla başa vurduqdan sonra(1954), Bakıda Azərbaycan Neft və Kimya İnstitutunu (1959), Axşam Marksizm-Leninizm Universitetini (1970), Azərbaycan Texniki Yaradıcılıq və Patentşünaslıq İnstitutunu (1990) və digər təhsil ocaqlarını bitirərək, «Dağ mühəndisi-geofizik», «iqtisadi biliklərin təbliğatçısı», «patentşünas», «jurnalist», «fizika müəllimi», «kimya-biologiya müəllimi», «coğrafiya müəllimi», «III kateqoriyalı kinomexanik» və başqa 10-dan çox ixtisas və peşələrə yiyələnmiş və fəhlə, mühəndis, elmi işçi, pedaqoq, jurnalist və kinorejissor kimi çalışmışdır.

Hələ təhsil illərində S. M. Alxazov ictimai-siyasi və elmi-texniki yaradıcılıq fəaliyyəti göstərmirdi. 0, dörd il (1950-1954) məktəb komsomol təşkilatının katibi, məktəbin «Pioner» və «Komsomolçu» divar qəzetlərinin redaktoru, üç il (1956-1959) Azərbaycan Neft və Kimya institutu Komsomol Komitəsinin mədəni-kütləvi işlər üzrə üzvü, institutun ədəbiyyat dərnəyinin nümayəndəsi olmuş, məktəbin və məktəbdənkənar müəssisələrin bir sıra fənn, peşə və bədii dərnəklərində, Tələbə Elmi Cəmiyyəti və digər yaradıcı kollektivlərin işində iştirak etmiş, elmi məruzələrlə çıxış etmiş, Özünün bir sıra İxtira və konstruksiyalarını öz əlilə sərgilər üçün hazırlamış və gənc kimyaçıların Respublika olimpiadasının qalibi olmuşdur - (1954, Tbilisi).

S. M. Alxazov əmək fəaliyyətinə 1957-ci ildə tələbə ikən, tətil vaxtı, Cizak şəhərində yerləşən Özbəkistan Geofizika Ekspedisiyasının Zərəfşan dəstəsində fəhləlikdən başlamışdır. Burada o, kəşfiyyatçı-geofizik - əvvəl III, sonra IV dərəcəli metallometr kimi Qisar və Zərəfşan dağlarını qarış-qarış gəzmiş və metallometriya qrupu işçiləri ilə birlikdə burada maqnit kəşfiyyatı üsulu ilə faydalı qazıntı yatağı anomaliyası aşkar etmişlər. Bunun üçün ona rəhbərlik tərəfindən təşəkkür elan edilmişdi.





İnstitutun geoloji-kəşfiyyat fakültəsini «Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları» (04.00.12) ixtisası üzrə bitirdikdən sonra (1959), S. M. Alxazov təyinatla «Azneftgeofizika» trestinin Dənizdə Geofizika işləri Kantoruna gəlmiş və kantorun «Neft Daşları» Dəniz Mədən-Geofizika Ekspedisiyasında texnik-operator, mühəndis-operator, mədən-geofizika dəstəsinin növbə rəisi. nəzarət-interpretasiya dəstəsinin rəisi və Ekspedisiya rəisinin müavini vəzifələrində çalışmışdır. Otuz ildən artıq bir müddətdə Neft Daşlarında öz ixtisası sahəsində və həm əvəzçilik üzrə, həm də ictimai əsaslarla işlədiyi digər - istehsalat, elm, təhsil, jurnalistika, mədəniyyət və başqa sahələrdə çalışan Siyavuş Alxazov «Neft Daşları» neftqaz yatağının və Neft Daşları dəniz şəhərinin dünya şöhrəti qazanmasında müstəsna rol oynamışdır.

1959-1990- cı illərdə Xəzərin Azərbaycan sektorunun, xüsusilə, Abşeron arxipelağının öyrənilməsində S. M. Alxazovun, hər şeydən əvvəl, dəniz neft mütəxəssisi kimi mədən geofizikasının hər iki: texnika və interpretasiya sahələrində Neft Daşlarında səmərəli və faydalı mühəndislik fəaliyyəti olmuşdur. S. M. Alxazov mədən-geofizika dəstəsində, sonra isə ekspedisiyanın texniki rəhbəri kimi, əvvəlcə, geofizikanın texnika sahəsində fəaliyyət göstərərək, Neft Daşlarının yüzlərlə quyularında şəxsən geofiziki tədqiqat ölçü işləri aparmış və sonra bu işlərə başçılıq etmiş, Kantor rəhbərliyinin tapşırığı ilə müəssisədə İlk OKS-56 avtomat-karotaj stansiyasının, yeni geofiziki üsulların-induksiya, dielektrik, maqnit karotajı üsulları və cihazlarının Azərbaycanda ilk dəfə mənimsənilib işə salınmasında iştirak etmiş, radioaktiv karotaj cihazlarının etalonlaşdırılmasının üsulunu və texnologiyasını mənimsəyərək müəssisədə tətbiq etmiş və trestin əmri (1964) və tərtib etdiyi proqramı əsasında iki aylıq seminar-kursun rəhbəri və müəllimi kimi müəssisənin mühəndis-texnik İşçilərinin ixtisasının artmasına kömək göstərmişdir. Sonra isə, trestin tapşırığı ilə ekspedisiyada

interpretasiya xidmətini təşkil etmiş, nəzarət-İnterpretasiya dəstəsinin əsasını qoymuş (1966) və dəstənin rəisi kimi, yüzlərlə qazılan quyuların lülələrinin elmi-texniki əsaslarla düzgün istiqamətləndirilməsini və neftli-qazlı obyektlərə çatdırılmasını təmin etmiş, 1970-ci illərdə özünün ixtira etdiyi 0-90° diapazonlu inklinometr vasitəsilə respublikada rekord əyriliyə malik quyuların qazılmasını mümkün etmiş, qazılan hər quyu üçün tədqiqlərin mədən-geofiziki göstəricilərinin təhlili nəticələri olan geoloji-geofiziki «Rəy»-lər, quyulardan neft və qaz almaq məqsədi ilə sınaq obyektlərinin təyini barədə «Tövsiyyə»-lər, yatağın istismarına nəzarət məqsədi ilə yerinə yetirilən ölçü kompleksinin təhlili nəticəsi olan «Rəy»-lər vermiş, «Günəşli» və «Həzi Aslanov» neft yataqlarının kəşfində iştirak etmiş, quyuların mədən-geofiziki tədqiqat materiallarının miqdari təhlili üzrə respublikada ilk müfəssəl rəsmi «Rəy»i də o vermiş (1973-cü il, «Neft Daşları» yatağı, quyu №1726) və bu işi müntəzəm davam etdirərək «Neft Daşları» yatağı üzrə çox vacib geofiziki parametrlər hazırlamışdır.

Neft Daşlarında işlədiyi müddətdə S.M. Alxazovun beş səmərələşdirici təklifi istehsalatda tətbiq olunmuş, dörd elmi işi məcmuələrdə dərc edilmiş və bir-neçə işləmələrinin tətbiqinə Trest tərəfindən icazə verilmişdir. O, Qroznı, Ufa və Moskva şəhərlərində öz ixtisasmı təkmilləşdirmişdir. (1970, 1975, 1979).

1960-1990-ci illərdə S. M. Alxazov Neft Daşlarında geniş maarifçilik fəaliyyəti göstərmişdir. O, burada mühəndisliklə yanaşı elm, təhsil, maarifçilik, mədəniyyət və kütləvi informasiya sahələrində çalışmışdır. S. M. Alxazov burada otuz il iqtisadi məktəbin təbliğatçısı olmuş, məktəb və texnikumda dərs demiş, kino maarifçisi olmuş və geniş miqyasda müxbirlik etmişdir. S. M. Alxasov dəniz neftçilərinin maarifləndirilməsi və onların nailiyyətlərinin geniş təbliği məqsədilə, Neft Daşlarında «Xəzərin səsi» - «Qolos Kaspiya» radiostudiyasının (1965), respublikada ilk «Xəzərfilm» Xalq Özfəaliyyət Kinostudiyasının (1975) əsasını qoymuş, çoxtirajlı «Neft Daşları»-«Neftyanıye Kamni» qəzetlərinin açılmasının (1967) təşəbbüsçülərindən biri olmuş, Azərbaycan Jurnalistlər ittifaqının (1976), Azərbaycan Kitabsevərlər Cəmiyyətinin (1977), Azərbaycan Pedaqoji Cəmiyyətinin (1978) Neft Daşlarında ilk təşkilatlarını yaratmış və bu işlərdə şəxsi yaradıcılıqla iştirak və onların işlərinə rəhbərlik etmişdir. S. M. Alxazov Neft Daşlarında işlədiyi müddətdə 1500 yerli radioverilişləri hazırlamış, 100-dən artıq informasiya və süjetləri Bakı və Moskvanın radio və televiziyası ilə səslənmiş və göstərilmiş, 500-dən artıq müxtəlif janrlı jurnalistik materialları Neft Daşları, Bakı və Moskva şəhərlərinin 50-ə qədər müxtəlif mətbuat orqanlarında dərc edilmiş, 30 nəfər kino həvəskarı hazırlamış (onlardan bir neçəsi müstəqil həvəskar film çəkmişdir), Mədəniyyət sarayında və kitabxanada neftçilər qarşısında ədəbiyyat və kino maarifi sahələrində məruzələr etmiş və mühazirələr oxumuş, dəniz şəhərində neftçilərin çətin əmək fəaliyyətinə, istirahət və yaradıcılıqlarına həsr olunmuş 22 sənədli həvəskar filmi çəkmiş və Respublika, Ümumittifaq və Beynəlxalq müsabiqələrin laureatı olmuşdur. Siyavuş Alxazov 1969-cu ildən SSRİ Jurnalistlər İttifaqının, 1978-ci ildən Azərbaycan Kinematoqrafçılar İttifaqı Aktivinin üzvü, 15 il sex partiya təşkilatı katibi olmuş və uzun müddət bir sıra Respublika qəzet və jurnallarının və Azteleradionun ştatdankənar müxbiri kimi Neft Daşlarını təmsil etmişdir. «Qızıl qələm» mükafatı laureatıdır.

1990-cı İldə S. M. Alxazov elmi işə dəvət olunaraq, köçürmə yolu ilə və müsabiqədən keçərək Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunun «Geofizika işlərinin təhlükəsizlik bölməsində böyük elmi işçi vəzifəsini tutmuş, iki il sonra «Qazma işlərinin təhlükəsizliyi» laboratoriyasında həmin vəzifədə çalışmışdır. institutda işlədiyi 4 il ərzində üç ixtiranın müəllifi, 10-dan artıq elmi-tədqiqat işlərinin icraçısı, məsul icraçısı və institutun Elmi Şura bölməsinin katibi olmuşdur. 1994-cü ildən S. M. Alxazov köçürmə yolu ilə və müsabiqə

vasitəsilə Dəniz Neft və Qaz Yataqlarının İşlənməsİ üzrə Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutu - «Dənizneftqazlayihə»nin «Neftqazmədən geofizikası» laboratoriyasında 6 il böyük elmi işçi vəzifəsində çalışmış və 2000-ci ildən aparıcı elmi işçi vəzifəsinə keçirilmişdir. İnstitutda işlədiyi müddətdə 5 patent almış və 20-yə qədər elmi-texniki işləmənin icraçısı, məsul icraçısı olmuş və bir-neçə mövzunu müstəqil işləmişdir. Burada İşlədiyi müddətdə S. M. Alxazov bütün dəniz neft və qaz yataqlarının ehtiyatlarının hesablanmasında iştirak etmiş, Azərbaycanda neft və qaz yataqlarının qeyri antiklinal strukturlarda axtarılması məqsədi ilə qazılan quyularda aparılan quyu geofiziki tədqiqat nəticələrinin keyfiyyət və kəmiyyət təhlillərini ilk dəfə həyata keçirmişdİr (2004-cü il, «Mil düzü», quyular №1 və №2). 2001-ci ildən institutun və «Azneft» İB-nin texniki tədbirlər planı əsasında elmi-texniki yeniliklərin dənizneft yataqlarında tətbiqi ilə məşğuldur. S. M. Alxazov eyni vaxtda institutun 3 elmi bölməsinin - «Geoloji-kəşfiyyat və neftqaz yataqlarının işlənməsi», «Quyuların qazılması» və «İqtisadi tədqiqatlar» bölmələrinin üzvü olmuş, Beynəlxalq, Ümumittifaq və Respublika konfrans və seminarlarında məruzələrlə çıxış etmişdir. S. M. Alxazov istehsalatda və elmi-tədqiqat institutlarında aldığı böyük təcrübə əsasında yaratdığı çoxsaylı yeniliklərini ümumiləşdirərək, 1995-ci ildə «AzərGeofizika» Elmi-Tədqiqat İnstitutunun dissertantı olur və 3 il sonra, 1998-ci ildə «Böyük zenit bucaqlı mail istiqamətlənmiş quyuların lülələrinin əyrilik parametrlərinin ölçülməsinin texnika və texnologiyasının işlənməsi və təkmilləşdirilməsi» mövzusunda iki ixtisas –"quyuların qazılması" (05.15.10) və «Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları» (04.00.12) ixtisasları üzrə Azərbaycan Neft Akademiyasında namizədlik dissertasiyası müdafiə edib texnika elmləri namizədi alimlik dərəcəsini alır. Bir il sonra isə onun doktorluq dissertasiyasının mövzusu təsdiq edilir. Hazırda S. M Alxazov 150-dən çox elmi





işin, o cümlədən 8 ixtiranın, 25 tədqiqat işinin və 30 elmi məruzənin müəllifidir. Siyavuş müəllimi dəniz neftinin müxtəlif sahələri maraqlandırır. O, eyni vaxtda geofiziki tədqiqat üsulları, mədən geofizikasının texnikası və texnologiyası, mədən geofiziki tədqiqatların interpretasiyası, inklinometriya, əyri qazıma, qazıma zamanı təzahürlərlə əlaqədar mürəkkəbləşmələrin təyini, fiziki sahələrin qazımada tətbiqi, iqtisadiyyat, əməyin təşkili, əməyin mühafizəsi və təhlükəsizlik texnikası məsələləri üzrə müxtəlif problemlər üzərində işləyir, S. M. Alxazov respublikada çox təcrübəli və yüksək səviyyəli dəniz neftçisi və geofizika mütəxəssislərindəndir. O, bir geofizik kimi, müstəqil olaraq məsələ qoymağı, onu həll etməyi və istehsalatda tətbiq etməyi bacarır.

S. M. Alxazov 1962-ci ildən, kiçik fasilələrlə, geniş pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, dəvət və müsabiqə əsasında orta ümumtəhsil, peşə-texniki, orta-ixtisas, istehsalatda ixtisasartırma təhsili və ali təhsil sistemləri üzrə 6 müəssisədə: Neft Daşlarındakı 73 saylı axşam növbəli məktəbdə (Azərbaycan və rus dillərində), Bakının Nizami rayonundakı 214 saylı gündüz rus məktəbində, Bakı Kompüter Liseyində (Azərbaycan və rus dillərində), Bakı Axşam Neft Texnİkumunun Neft Daşlarındakı filialında (rus dilində) və Bakı Dövlət Universitetində (Azərbaycan dilində) gündüz, axşam və qiyabi təhsil formalarında 31 tədris ili ərzində 19 fəndən - Kimya, Zoologiya, Fizika, Riyaziyyat, Astronomiya, Rəsmxətt (orta təhsil sistemi üzrə). Ümumi biologiya, Dünyanın iqtisadi və sosial coğrafiyası (peşə-texniki təhsil sistemi üzrə), ümumi, neft və neftmədən geologiyası, Geodeziya, Neft və qaz quyularının qazılması, Neft və qaz yataqlarının istismarı, Neft mədənlərinin avadanlığı, Təhlükəsizlik texnikası(orta ixtisas təhsili sistemi üzrə), Mədən geofizikasının texnika və texnologiyası, Mədən geofiziki materiallarının interpretasiyası (istehsalatda ixtisasartırma təhsili sistemi üzrə) və Geofiziki tədqiqat üsulları və Geofiziki materialların geoloji

interpretasiyasi (ali təhsil sistemi üzrə) fənlərindən dərs demişdir. ANA və BDU-da təhsil alan onlarla xarici və yerli tələbələrin diplom işlərinin istehsalat və ya elmi rəhbəri olmuşdur. S.M. Alxazov iki il (1973, 1979) Bakı Müəllimləri Təkmilləşdirmə institutunda pedaqoji təhsil almışdır. S. M. Alxazova 1994-cü ildə 214 saylı məktəbdə keçirilən attestasiya nəticəsində Nizami RXMŞ-nın qərarı ilə 14-cü dərəcəli (I kateqoriyalı ) müəllim adı verilmiş, 2000-ci ildə isə 15-ci dərəcəli (ali kateqoriyalı) müəllim olmuşdur, S. M- Alxazov Azərbaycan Pedaqoji Cəmiyyətin üzvü (1978-ci ildən), Cəmiyyətin Neft Daşlarındakı ilk təşkilatının sədri (1978-ci ildən), 214 saylı məktəbin «Gənc Tusiçilər» fizika üzrə fənn dərnəyinin yaradıcısı və rəhbəri (1994-1997), İki dəfə (1994, 1995) ali məktəblərə qəbul imtahanlarında nəzarətçilər qrupunun rəhbəri, peşə-texniki məktəblər və liseylər üzrə Respublika coğrafiya olimpiadasında yoxlama komissiyasının sədri (17.06. 2001) və dərs dediyi müddətdə pedaqoji sahəyə aid 10-a qədər elmi-metodik işlərin müəllifi olmuşdur.

1955-ci İldən çap olunan S. M. Alxazov 2500-ə qədər elmi, texniki, pedaqoji, bədii, publisistik və jurnalistik yazıların müəllifidir. O, müxtəlif istiqamətli yaradıcılığını indi də davam etdirir. Siyavuş müəllimin kitab, jurnal və qəzetdən ibarət 5 min nüsxəli zəngin kitabxanası, 150 qovluqdan ibarət çox zəngin arxivi, 50-ə qədər eksponatdan ibarət əl işləri kolleksiyası və rəsmləri vardır. Siyavuş müəllimin gözəl ailəsi vardır. Həyat yoldaşı Nisə xanım Azərbaycan Slavyan Universitetində baş metodistdir. 1968-ci ildə Azərbaycan Xarici Dillər institutunu ingilis dili üzrə bitirmişdir. 45 ildir işləyir. Əmək veteranıdır. Övladı-qızı İradə 3 Universitet bitirmiş, 10 peşəyə yiyələnmişdir, İşıq idarəsində şöbə rəisi işləyir, bir qız anasıdır. Kürəkəni Nazim hərbi işçidir - hissələrin birində vzvod komandiridir. Sevimli nəvəsi Səmayə 2004-cü il təvəllüdlüdür.

S. M. Alxazov «Rəşadətli əməyə görə» (1970) , «Əmək veteranı» (1986) medalları və çoxlu sayda Fəxri fərmanlar və təşəkkürnamələrlə təltif olunmuşdur.

S. M. Alxazov qayğıkeş ailə başçısı, çox çalışqan, işgüzar, sadə və təvazökar bir insan kimi onu tanıyanların hörmətini qazanmışdır.

Resp əlikanın maraqlı adamlarından biri, hərtərəfli və mürəkkəb həyat yolu keçmiş, çoxcəhətli yaradıcılığa malik alim-pedaqoq, mühəndis-ixtiraçı, jurnalist-publisist, maarifçi-ictimaiyyətçi Siyavuş Məmmədiyə oğlu Alxazovun 70 illiyi münasibətilə «Dənizneftqazlayihə» DETLI-də yığıncaq keçirilmişdir. Yığıncağın rəyasət heyətində institutun elmi işlər üzrə direktor müavini, g.-m.e.n. Nazim Əkbərov, laboratoriya müdiri, geologiya-minerologiya elmləri doktoru, professor Azərbaycan Neftçi-Geoloqtar Cəmiyyətinin Prezidenti Nüsrət Xəlilov, laboratoriya müdiri, texnika elmləri doktoru, professor Asif Rəsulov, texnika elmləri doktoru Minəxanım Mürsəlovə və Azərbaycan Dövlət Neft Akademiyası ümumi geologiya kafedrasının müdiri, geologiya-minerologiya elmləri doktoru, professor Nəriman Babayev əyləşmişdilər.

Yığıncağı giriş sözü ilə N.Əkbərov açdı və yubilyara institut Direktorunun əmrini, kollektivin ünvanını və xatirə hədiyyəsini təqdim etdi.

Yığıncaqda çıxış edənlər S.M. Alxazovu nadir şəxsiyyət kimi qiymətləndirdilər. Nüsrət Xəlilov S. Alxazovu unikal adam və yaxşı alim adlandırdı. Asif Rəsulov S. Alxazovun həddindən artıq təvazökar olduğunu qeyd etdi və dedi ki, onun elmi işi çox aktual, maraqlı və çox çətin olsa da, biz onun yaxşı alim olduğunu bilirik və arzu edirik ki, bu il işini tamamlasın. Texnika elmləri doktoru Minəxanım Mürsəlova geniş nitq söyləyərək Siyavuş Alxazovu müsbət cəhətdən xarakterizə etdi. Yığıncaqda çıxış edən texnika elmləri namizədi, respublikanın əməkdar

səmərələşdirici, Prezidentin fərdi təqaüdçüsü, «Şöhrət» ordenli Bayram Bayramov dedi:

– Mən Siyavuş müəllimi Neft Daşlarından tanıyıram. Uzun müddət orada işləmişik. Mən onu yaxşı istehsalatçı, yaxşı ictimaiyyətçi kimi tanıyırdım; bu gün isə bildim ki, sən demə o, yaxşı da alim imiş. Siyavuş müəllimin Neft Daşlarında xidmətləri çox böyükdür. Neft Daşlarının tarixini öyrənmək istəyənlər onun jurnalistik-publisistik yazılarına, onun filmlərinə müraciət edəcəklər. Siyavuş müəllim öz fəlsəfəsinə malik orijinal adamdır. O, həyatın mənasını ancaq düzgünlükdə və ədalətdə görür. O, sadə və təvazökar olduğu qədər də nöqsanlara qarşı sərt və barışmazdır. Siyavuş müəllim düzgünlüyə nail olmağı və «ətraf mühitə» təsir etməyi bacarır. Siyavuş müəllim çox mənəviyyatlı və yüksək mədəniyyətə malik bir insandır. Biz bir yerdə dərs demişik. Mən elə hesab edirdim ki, mən ondan on yaş böyüyəm, amma indi başa düşdüm ki, 5-6 yaş ondan kiçiyəm. Mən Siyavuş müəllimə yeni-yeni uğurlar arzulayıram.

Çıxış edən «Neft Daşları» qəzetinin Baş redaktor müavini Vahid Hacıyev qeyd etdi ki, o, yubilyarı 16 ildir ki, təmiz adam, səmimi bir insan kimi tanıyır. O dedi ki, Siyavuş müəllim çox səbirlidir və işini tamamlamağa da tələsmir, çünki onun elmi əsl elmdir, ciddi elmdir və özünə qarşı çox tələbkar yanaşır.

Laboratoriya müdiri, geologiya - minerologiya elmləri namizədi Rafik Cəfərov:

- Siyavuş müəllimin bir keyfiyyəti üzərində dayanmaq istəyirəm. O, hər dəfə bizim laboratoriyaya gələndə nə lazımdırsa aydın, birmənalı və konkret iş barədə qısa danışıb gedər. Bir kəlmə artıq söz İşlədən, artıq hərəkət edən deyil. Danışığı-davranışı ölçülmüş-biçilmiş adamdır. Sanki kompyuterdir, əvvəlcədən hər şey proqramlaşdırılıb. Bir də ki, Siyavuş müəllim çox sakit, çox hövsələli və çox səbrli adamdır, çünki bilir hər şeyin öz vaxtı var.





Nəriman Babayev öz çıxışında S.M. Alxazovun yüksək insani keyfiyyətlərini xatırlayaraq, diqqəti belə bir fakta cəlb etdi:

- Biz bir qrupda oxumuşuq. Adamı səfərdə yaxşı tanıyarlar. Biz hər yay istehsalat təcrübəsində olurduq. İkinci kursdan sonra Şamaxıya getmişdik. Bizi Mariyovka kəndində ayrı-ayrı otaqlara paylaşdırdılar. Tələbə yoldaşlardan birinə çarpayı çatmamışdı. Sivavuş öz çarpayısını tələbə yoldaşına verib, özü quru, taxta döşəmədə yatmışdı. Siyavuşun gözəl dostluğu, qorxmaz ürəyi, möhkəm iradəsi var. Biz onunla fəxr edirik.

Sonda S.M. Alxazov yığıncaqda iştirak edənlərə öz minnətdarlığını bildirdi. Yığıncağın gedişi operator Rövşən Zülfəliyev tərəfindən tam şəkildə videolentə alınmışdır.

*Nüsrət Xəlilov,*
*«Dənizneftqazlayihə» Dövlət Elmi - Tədqiqat və Layihə institutu Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı laboratoriyasının müdiri, g.-m.e.d., prof., Azərbaycanın əməkdar geoloqu, Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin Prezidenti*

*Şahvələd Köçərli,*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkəti «Geofizika və Geologiya» idarəsi Geologiya şöbəsinin rəisi, g.-m.e.n.*

*Məmməd Mirzəyev,*
*AR DNŞ Mətbuat Mərkəzinin rəisi, Eko-Energetika Akademiyasının professoru, «Humay» mükafatı laureatı.*




**Məmməd Sarvan**
**"Borçalı alimləri"**
**II cild**

"Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyatı, Bakı 2001, 509 s. Səh. 282-283

**SİYAVUŞ ALXAZOV**



Siyavuş Məmmədiyə oğlu Alxazov 1935-ci ildə hərbi qulluqçu ailəsində anadan olmuşdur. 1943-cü ildə Tbilisinin Ortaçala məhəlləsində yerləşən 31 saylı kişi beynəlmiləl məktəbində 1-ci sinfə daxil olmuşdur. Siyavuş Alxazov 1949-cu ildə təhsilini 37 saylı Azərbaycan orta ümumtəhsil məktəbində (indiki 73 saylı) davam etdirmiş, 1954-cü ildə orta məktəbi qızıl medalla bitirmişdir.

1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ADNA) geoloji-kəşfiyyat fakültəsinin "Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları" ixtisası üzrə bitirmiş, Neft Daşlarında, Dəniz Mə'dən-Geofizikası Ekspedisiyasında texnik-operator, mühəndis-operator, dəstə rəisi və ekspedisiya rəisinin müavini vəzifələrində işləmişdir. Onun beş səmərələşdirici təklifi tətbiq olunmuş və beş elmi işi dərc edilmişdir.





## SIYAVUŞ ALXAZOV

Siyavuş Məmmədiyə oğlu Alxazov 1935-ci ildə hərbi qulluqçu ailəsində anadan olmuşdur. 1943-cü ildə Tbilisinin Ortaçala məhəlləsində yerləşən 31 saylı kişi beynəlmiləl məktəbində 1-ci sinfə daxil olmuşdur. Siyavuş Alxazov 1949-cü ildə təhsilini 37 saylı Azərbaycan orta ümumtəhsil məktəbində (indiki 73 saylı) davam etdirmiş, 1954-cü ildə orta məktəbi qızıl medalla bitirmişdir.

1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki ADNA) geoloji-kəşfiyyat fakültəsinin "Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları" ixtisası üzrə bitirmiş, Neft Daşlarında, Dəniz Mədən – Geofizikası Ekspedisiyasında texnik-operator, mühəndis-operator, dəstə rəisi və ekspedisiya rəisinin müavini vəzifələrində işləmişdir. Onun beş səmərələşdirici təklifi tətbiq olunmuş və beş elmi işi dərc edilmişdir.

Neft Daşlarında işlədiyi müddətdə burada «Xəzərin səsi» yerli radiostansiyası yaratmış, ona rəhbərlik etmiş, «Neft Daşları» və «Neftyanıye Kamni» çoxtirajlı qəzetlərin açılmasının (1967) təşəbbüskarı və onların redaksiya heyyətinin üzvü olmuşdur. «Xəzərfilm» studiyası yaratmış (1975) və iki il onun kinorejisoru vəzifəsində işləmişdir. 1969-cu ildən SSRİ Jurnalistlər İttifaqının üzvü olmuşdur. O, 1962-ci ildə 73 saylı fəhlə gənclər məktəbində, 1968-ci ildə isə Bakı Axşam Neft Texnikumunun filialında Geologiya və Geodeziyadan dərs deməyə dəvət olunmuşdur. 30 il iqtisadi məktəbin rəhbəri, 10 il partiya təşkilatı katibi olmuşdur. Sonrakı illərdə Bakının 214 saylı orta ümumtəhsil məktəbində fizikadan və Bakı Kompüter Litseyində coğrafiyadan dərs demişdir. Ali kateqoriyalı müəllimdir.

1990-ci ildə elmi işə keçən Siyavuş Alxazov əvvəlcə Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunda, 1994-cü ildə isə «Dənizneftqazlayihə»Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunda böyük elmi işçi vəzifəsində işləmişdir.

Hazırda «Dənizneftqazlayihə» DETLİ neftqaz mədən geofizikası laboratoriyasının aparıcı elmi işçisi, texnika elmləri namizədi və inatitutun doktorantıdır. 100-ə qədər elmi işin, o cümlədən 5 ixtiranın, 25 elmi məruzənin müəllifidir. Azərbaycan Milli Geofiziklər Komitəsinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Rəşadətli əməyə görə və «Əmək veteranı» medalları ilə təltif olunmuşdur.








**"Şəki. Alim və ziyalılar"**

Tərtibçilər:
Ələfsər Məmmədov
Fikrət Xalıqov

Bakı Universiteti nəşriyyatı.
Bakı 2002, 582s.. Səh.33-35.

**ALXAZOV SİYAVUŞ MƏMMƏDİYƏ OĞLU**



Siyavuş Alxazov 1935-ci ildə anadan olmuşdur. Babası Şəkidə ipək sapı əyirən zavodun sahibi Alxaz oğlu Kərim (Kərimov Kərim Alxaz oğlu) Şəki gimnaziyasını və Tiflisdə Cənubi Qafqaz Piyada Ali Hərbi Məktəbini bitirmiş, Bakıda "Salyan kazarması" rəisinin köməkçisi işləmiş, Böyük Vətən müharibəsində topçu alayının batareya komandiri kimi kapitan rütbəsində həlak olmuşdur. El arasında Mirzə Qardaş adı ilə tanınmış, indiki Sabit Rəhman adına Şəki Dövlət Teatrının əsasını qoyanlardan biri olmuşdur.

S.M.Alxazov 1954-cü ildə Tbilisi şəhərində 73 saylı Azərbaycan orta məktəbini qızıl medalla bitirmişdir. Həmin ildə Bakıda Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft Akademiyasına) daxil olmuş və 1959-cu ildə müvəffəqiyyətlə bitirərək dağ mühəndisi-geofizik ixtisası

33

## ALXAZOV SIYAVUŞ MƏMMƏDIYƏ OĞLU

Siyavuş Alxazov 1935-ci ildə anadan olmuşdur. Babası Şəkidə ipək sapı əyirən zavodun sahibi Alxaz oğlu Kərim (Kərimov Kərim Alxaz oğlu) idi. Atası Şəki gimnaziyasını və Tiflisdə Cənubi Qafqaz Piyada Ali Hərbi Məktəbini bitirmiş, Bakıda "Salyan Qazarması" rəisinin köməkçisi işləmiş, Böyük Vətən müharibəsində topçu alayının batareya komandiri kimi kapitan rütbəsində həlak olmuşdur. El arasında Mirzə Qardaş adı ilə tanınmış, indiki Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının əsasını qoyanlardan biri olmuşdur.

S.M.Alxazov 1954-cü ildə Tbilisi şəhərində 73 saylı Azərbaycan orta məktəbini qızıl medalla bitirmişdir. Həmin ildə Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft Akademiyasına) daxil olmuş və 1959-cu ildə müvəffəqiyyətlə bitirərək dağ mühəndisi-geofizik ixtisası almışdır. Daha sonra "patentşünas" və "iqtisadi biliklərin təbliğatçısı" ixtisaslarına da yiyələnmişdir.

İnstitutu bitirdikdən sonra təyinatla 31 il "Azərneftgeofizika" tresti Dənizdə Geofizika İşləri Kantorunun "Neft Daşları" Dəniz Mədən – Geofizika Ekspedisiyasında texnik operator, mühəndis – operator, dəstə rəisi və ekspedisiya rəisinin müavini – texniki rəhbər vəzifələrində işləyən S.M. Alxazov 1990-cı ildən köçürmə yolu ilə elmi işə keçmiş və müsabiqə vasitəsilə böyük elmi işçi vəzifəsini tutaraq, əvvəlcə Ümumittifaq Neft Elmi – Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunda iki il "Geofizika işlərində təhlükəsizlik texnikası" laboratoriyalarında, işləmiş, sonra isə "Dənizneftqazlayihə" Dövlət Elmi – Tədqiqat və Layihə İnstitutunun "Neftqazmədən geofizikası" laboratoriyasına keçmiş, 1994-cü ildən indiyədək həmin vəzifədə çalışır.

S.M. Alxazov 1995-ci ildə Azərbaycan Geofizika Elmi – Tədqiqat İnstitutunun dissertantı təsdiq olunmuş və 1998-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının D 054.02.01 İxtisaslaşdırılmış Şurasında "Böyük zenit bucaqlı mail istiqa-





mətlənmiş quyuların lülələrinin əyrilik parametrlərinin ölçülməsinin texnika və texnologiyasının işlənməsi və təkmilləşdirilməsi" (elmi rəhbər t.e.d., prof. A.A. Mövsümov) mövzusunda 05.15.10 və 04.00.12 şifrli iki ixtisas üzrə dissertasiya müdafiə edərək texnika elmləri, namizədi alimlik dərəcəsi almışdır. Dissertasiya işində o, qazma, geofizika, riyaziyyat, fəlsəfə və iqtisadiyyat kimi elm sahələri üzrə ciddi nəticələr əldə etmiş və onlar Neft Daşlarında geniş tətbiq olunmuşdur.

1999-cu ildən S.M. Alxazov "Dənizneftqazlayihə" Dövlət ETLİ-nin doktorantıdır. Hazırda o, inklinometriya, mədən geofizikası materiallarının interpretasiyası, neft və qaz ehtiyatlarının hesablanması, geofizikanın fiziki əsasları, cihazların həndəsi əsasları, maili qazma quyularında qaz təzahürləri ilə əlaqədar mürəkkəbləşmələr, texnikanın fəlsəfi aspektləri, mədən geofizikasının iqtisadiyyatı, texniki fənlərin tədrisi və b. problemlər üzərində çalışır.

S.M. Alxazov 1962-ci ildən, Bakı Axşam Neft Texnikumunda, Bakı Kompüter Litseyində, 73 saylı axşam və 214 saylı gündüz orta məktəblərində 17 fəndən dərs demişdir.

S.M. Alxazov beynəlxalq və respublika konfrans və seminarlarında 25 elmi məruzə ilə çıxış etmişdir. O, 100-ə qədər elmi işin, o cümlədən 5 ixtiranın, 5 səmərələşdirici təklifin və tədris proqramlarının müəllifidir. Onun 500-dən artıq jurnalistlik, publisistik və bədii yazıları dərc olunub. Neft Daşlarında "Xəzərin səsi" yerli radiostudiyasının yaradıcısı və rəhbəri, "Neft Daşları" və "Neftyanıye Kamni" çoxtirajlı qəzetlərinin açılmasının təşəbbüskarı və redaksiya heyətinin üzvü, dövlət teleradiosunun və bir sıra respublika jurnal və qəzetlərinin ictimai müxbiri olmuşdur. Həvəskar filmlərin beynəlxalq, ümumittifaq və respublika müsabiqələrinin laureatıdır. "Rəşadətli əməyə görə" və "Əmək veteranı" medalları ilə təltif olunmuşdur.

S.M. Alxazov hazırda işlədiyi institutun "Geologiya və kəşfiyyat", "Quyuların qazılması", "İqtisadi tədqiqatlar" elmi seksiyalarının, Azərbaycan Milli Geofizika Komitəsinin üzvüdür.




Məmməd Mirzəyev
Canalı Mirzəliyev

""QARA QIZIL"
AĞ SƏADƏT RƏNGİNDƏ"
(Altıncı kitab)

"MBM" MMC. Bakı 2006.
240 s.. Səh. 165-168.

ÖMRÜN 70 BAHARI



Azərbaycan Dövlət Neft Şirkəti "Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat və Layihə institutunun aparıcı elmi işçisi, texnika elmləri namizədi, Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyəti institut şöbəsinin sədri, Azərbaycan Milli Geofizika Komitəsinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, mühəndis-ixtiraçı, alim-pedaqoq Alxazov Siyavuş Məmmədiyyə oğlunun anadan olmasının 70, yaradıcılıq və əmək fəaliyyətinin 55 illiyi tamam olmuşdur.

Alxazov Siyavuş Məmmədiyyə oğlu 1935-ci il aprelin 24-də Bakı şəhərində, hərbi qulluqçu ailəsində anadan olmuşdur.

Uşaqlıq və gənclik illərini Tbilisidə keçirən Siyavuş Alxazov orta təhsilini burada almış və məktəbi qızıl medalla başa vurduqdan sonra (1954), Bakıda Azərbaycan Neft və Kimya institutunu (1959), Axşam Marksizm-Leninizm Universitetini (1970), Azərbaycan Texniki Yaradıcılıq və Patentşünaslıq İnstitutunu (1990) bitirərək "dağ mühəndisi-geofizik", "iqtisadi biliklərin təbliğatçısı", "patentşünas", "jurnalist", "fizika müəllimi", "kimya-biologiya müəllimi", "coğrafiya müəllimi", "III kateqoriyalı kinomexanik" və başqa 10-dan çox ixtisas və peşələrə yiyələnmişdir.

S.M.Alxazov əmək fəaliyyətinə 1957-ci ildə tələbə ikən, Cizak şəhərində yerləşən Özbəkistan Geofizika Ekspedisiyasının Zərəfşan dəstəsində fəhləlikdən başlamışdır. Burada o, kəşfiyyatçı geofizik - əvvəl III sonra IV dərəcəli metallometr kimi Qisar və Zərəfşan dağlarını qarış-qarış gəzmiş və metallometriya qrupu işçiləri burada faydalı qazıntı yatağı anomaliyası aşkar etmişdir.

İnstitutun geoloji-kəşfiyyat fakültəsini "Faydalı qazıntı yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı" ixtisası üzrə bitirdikdən sonra (1959), S.M.Alxazov təyinatla "Azneftgeofizika" trestinin Dənizdə Geofizika İşləri kontoruna gəlmiş və kontorun "Neft

165





## ÖMRÜN 70 BAHARI

Azərbaycan Dövlət Neft Şirkəti "Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat və Layihə institutunun aparıcı elmi işçisi, texnika elmləri namizədi, Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyəti institut şöbəsinin sədri, Azərbaycan Milli Geofizika Komitəsinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, mühəndis-ixtiraçı, alim-pedaqoq Alxazov Siyavuş Məmmədiyə oğlunun anadan olmasının 70, yaradıcılıq və əmək fəaliyyətinin 55 illiyi tamam olmuşdur.

Alxazov Siyavuş Məmmədiyə oğlu 1935-ci ıl aprelin 24-də Bakı şəhərində, hərbi qulluqçu ailəsində anadan olmuşdur.

Uşaqlıq və gənclik illərini Tbilisidə keçirən Siyavuş Alxazov orta təhsilini burada almış və məktəbi qızıl medalla başa vurduqdan sonra (1954), Bakıda Azərbaycan Neft və Kimya institutunu (1959), Axşam Marksizm-Leninizm Universitetini (1970), Azərbaycan Texniki Yaradıcılıq və Patentşünaslıq İnstitutunu (1990) bitirərək, "dağ mühəndisi - geofizik", "iqtisadi biliklərin təbliğatçısı", "patentşünas", "jurnalist", "fizika müəllimi", "kimya – biologiya müəllimi", "coğrafiya müəllimi", "III kateqoriyalı kinomexanik" və başqa 10-dan çox ixtisas və peşələrə yiyələnmişdir.

S.M. Alxazov əmək fəaliyyətinə 1957-ci ildə tələbə ikən, Cizak şəhərində yerləşən Özbəkistan Geofizika Elspedisiyasının Zərəfşan dəstəsində fəhləlikdən başlamışdır. Burada o, kəşfiyyatçı geofizik - əvvəl III sonra IV dərəcəli metallometr kimi Qisar və Zərəfşan dağlarını qarış-qarış gəzmiş və metallometriya qrupu işçiləri burada faydalı qazıntı yatağı anomaliyası aşkar etmişdir.

İnstitutun geoloji – kəşfiyyat fakültəsini "Faydalı qazıntı yataqlarının geofiziki üsullarla axtarışı və kəşfiyyatı" ixtisası üzrə bitirdikdən sonra (1959), S.M. Alxazov təyinatla "Azneftgeofizika" trestinin Dənizdə Geofizika İşləri kantoruna

gəlmiş və kantorun "Neft" daşları" Dəniz Mədən-Geofizİka Ekspedisİyasında texnik-operator, mühəndis-operator, mədən-geofizika dəstəsinin növbə rəisi, nəzarət-interpretasiya dəstəsinin rəisi və Ekspedİsiya rəisinin müavini vəzifələrində çalışmışdır. 30 ildən artıq bir müddətdə Neft Daşlarında öz ixtisası və əvəzçilik üzrə işləyən Siyavuş Alxazov "Neft Daşları" neftqaz yatağının və Neft Daşlan dəniz şəhərinin dünya şöhrəti qazanmasında müəyyən rol oynamışdır.

1959-1990-cı illərdə Xəzərin Azərbaycan sektorunun, xüsusilə, Abşeron arxipelağının öyrənilməsində S.M.Alxazovun böyük fəaliyyəti olmuşdur. S.M.Alxazov Neft Daşlarının yüzlərlə quyularında şəxsən geofiziki tədqiqat ölçü işləri aparmış və sonra bu işlərə başçılıq etmiş, kantor rəhbərliyinin tapşırığı ilə müəssisədə ilk OKS-56 avtomat karotaj stansiyasının, yeni geofiziki üsulların - induksiya, diefektrik, maqnit karotajı üsulları və cihazlarının mənimsənilib işə salınmasında iştirak etmiş, radioaktiv karotaj cihazlarının etalonlaşdırılmasının üsulunu və texnologiyasını mənimsəyərək müəssisədə tətbiq etmişdir. Sonra isə, trestin tapşırığı ilə ekspedisiyada interpretasiya xidmətini təşkil etmiş, nəzarət -interpretasiya dəstəsinin əsasını qoymuşdur (1966), Dəstənin rəisi kimi, qazılan hər quyu üçün tədqiqlərin mədən-geofiziki göstəricilərinin təhlili nəticələri olan geoloji-geofiziki "Rəylər", quyulardan neft və qaz almaq məqsədilə sınaq obyektlərinin təyini barədə Tövsiyyələr", yatağın istismarına nəzarət məqsədilə yerinə yetirilən ölçü kompleksinin təhlili nəticəsi olan "Rəy"lər vermiş, "Günəşli" *və* "Həzi Aslanov" neft yataqlarının kəşfində iştirak etmiş, quyuların mədən-geofiziki tədqiqat materiallarının miqdarı təhlili üzrə respublikada müfəssəl rəsmi "Rəy" vermişdir (1973-cü İl, "Neft Daşları" yatağı, quyu N 1726).

Neft Daşlarında işlədiyi müddətdə S.M.Alxazovun beş səmərələşdirici təklifi istehsalatda tətbiq olunmuş, dörd elmi işi





elmi məcmuələrdə dərc edilmiş və bir neçə işləmələrinin tətbiqinə trest tərəfindən icazə verilmişdir.

1960-1990-cı illərdə S.M.Alxazov Neft Daşlarında geniş maarifçilik fəaliyyəti göstərmişdir. O, burada mühəndisliklə yanaşı elmi, pedaqoji, maarifçilik, mədəniyyət və jurnalistika sahələrində çalışmışdır. S.M.Alxazov burada 30 il iqtisadi məktəbin təbliğatçısı olmuşdur. S.M.Alxazov Neft Daşlarında işlədiyi müddətdə dəniz şəhərində neftçilərin çətin əmək şəraitinə, istirahət və yaradıcılıqlarına həsr olunmuş 22 sənədli həvəskar filmi çəkmiş və Respublika Ümumittifaq və Beynəlxalq müsabiqələrin laureatı olmuşdur, Siyavuş Alxazov 1969-cu ildən SSRİ Jurnalistlər İttifaqının, 1978-ci İldən Azərbaycan Kinematoqrafçılar İttifaqı Aktivinin üzvü olmuş və uzun müddət bir sıra respublika qəzet və jurnallarının və Azteleradionun ştatdankənar müxbiri kimi Neft Daşlarını təmsil etmişdir.

1990-cı ildə S.M.Alxasov elmi işə dəvət olunaraq, köçürmə yolu ilə və müsabiqə vasitəsilə Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutunun "Geofizika işlərinin təhlükəsizliyi" bölməsində böyük elmi işçi vəzifəsini tutmuş, iki Il sonra "Qazma işlərinin təhlükəsizliyi" laboratoriyasında həmin vəzifədə çalışmışdır. İnstitutda işlədiyi dörd il ərzində üç ixtiranın müəllifi, 10-dan artıq elmi-tədqiqat işlərinin icraçısı, məsul icraçısı və Elmi Şura bölməsinin katibi olmuşdur.

1994-cü ildən S.M.Alxazov köçürmə yolu ilə və müsabiqə vasitəsilə Dəniz Neft və Qaz Yataqlarının İşlənməsi üzrə Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutu - "Dənizneftqazlayihə"nin "Neft-qazmədən geofizikası" laboratoriyasında 6 il böyük elmi işçi vəzifəsində çalışmış və 2000-ci ildən burada aparıcı elmi işçi vəzifəsinə keçirilmişidir. İnstitutda işlədiyi müddətdə 5 patent almış və 20-yə qədər elmi-texniki işləmənin icraçısı və məsul icraçısı olmuşdur.

S.M.Alxasov eyni vaxtda institutun üç elmi bölməsinin - "geoloji-kəşfiyyat və neftqaz yataqlarının işlənməsi, "quyuların

qazılması" və "İqtisadi tədqiqatlar" bölmələrinin üzvü olmuş, Beynəlxalq, ümumittifaq və Respublika konfrans və seminarlarında məruzələrlə çıxış etmişdir. S.M.Alxasov istehsalatda və elmi-tədqiqat institutlarında aldığı böyük təcrübə əsasında yaratdığı çoxsaylı elmi-texniki yenilikləri ümumiləşdirərək, 1995-ci ildə "AzərGeofizika" Elmi-Tədqiqat İnstitutunun dissertantı olur və üç il sonra, 1998-ci ildə "Böyük zenit bucaqlı mail istiqamətlənmiş quyuların lülələrinin əyrilik parametrlərinin ölçülməsinin texnika və texnologiyasının işlənməsi və təkmilləşdirilməsi" mövzusunda iki ixtisas - "quyuların qazılması" (05.15.10) və "faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatının geofiziki üsulları" (04.00.12) ixtisasları – üzrə Azərbaycan Neft Akademiyasında namizədlik dissertsiyası müdafiə edib texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Bir il sonra isə doktorluq dissertasiyasının mövzusu təsdiq edilmişdir.

S.M.Alxazov 150 elmi işin, o cümlədən, 8 ixtiranın, 25 tədqiqat işinin və 30 elmi məruzənin müəllifidir.

S.M.Alxazov 1962-ci ildən, kiçik fasilələrlə, geniş pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

S.M.Alxazov 2500-ə qədər elmi, texniki, pedaqoji, bədii, publisistik yazıların müəllifidir. O, müxtəlif istiqamətli yaradıcılığını indi də davam etdirir. Siyavuş müəllimin kitab, jurnal, qəzetdən ibarət 5 min nüsxəlik zəngin kitabxanası, 150 qovluqdan ibarət zəngin arxivi, 50-yə qədər eksponatdan ibarət əl işləri kollekviyası və rəsmləri vardır.

Siyavuş müəllimin həyat yoldaşı Nisə xanım Slavyan Universitutində baş metodistdir. Yeganə övladı – qızı İradə 3 universitet bitirmiş, 10 peşəyə yiyələnmişdir, işıq idarəsində şöbə rəisi işləyir, bir qız anasıdır.

S.M.Alxazov «Rəşadətli əməyə görə» (1970), «Əmək veteranı» (1986) medalları və çoxlu sayda Fəxri fərmanlarla təltif olunmuşdur.





## 4. YUBİLEY

**Əmr**

Azərbaycan Respublikası
Dövlət Neft Şirkəti

"Azneft" İstehsalat Birliyi
"Dənizneftqazlayihə" DETLI

Ə M R
18.03.2005 № 10 / təş.

Alxazov Siyavuş Məmmədiyə oğluna (01159) – neftqaz mədən geofizikası laboratoriyasının 15-ci dərəcəli aparıcı elmi işçisinə, anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq və neft sənayesində uzun səmərəli əməyinə görə

TƏŞƏKKÜR

elan edilsin və o, bir aylıq əmək haqqı məbləğində mükafatlandırılsın.

ƏSAS: Laboratoriya müdirinin təqdimatı,

Direktor əvəzi B.Ə.Süleymanov

R.A. Həsənzadə
3-61

## Ünvan








## Tədbirlər

"Zirvə" restoranında yubiley gecəsi



DƏVƏTNAMƏ

Hörmətli,

Siyavuş müəllim,

Sizi xanımınız Nisə xanımla birlikdə

"Zirvə" restoranına

DƏVƏT EDİRİK



DƏVƏT EDİRİK

YUBİLEY TƏDBİRİNƏ

Tədbirin səbəbi:

Texnika Elmləri Namizədi, 55 illik əmək stajlı, 70 illik həyat stajlı, mehriban, ən gözəl dost, ata, tərbiyəçi, hər bir problemin səbrlə həllini tapan, hər bir vəziyyətdə hamıya kömək etməyə çalışan, ömür boyu çalışan, canlı ensklopediya, neftçi, ixtiraçı, müəllim, jurnalist, kinorejissor, kinooperator, bir sözlə nadir tapıntı, dahi insanın

Tədbir :

24.04.2005-ci il tarixində saat 15:00-da "ZİRVƏ" restoranında keçiriləcəkdir.

Ünvan:

H.Əliyev küçəsi, (keçmiş Çapayev) "Əbu-Bəkr" Məscidinin yanı

Hörmətlə:

Nazim, İradə, Səmayə





Aprelin 24-də Bakıda saat $15^{00}$ "Zirvə" restoranı öz zirvə sahibini gözləyirdi. Əslində Siyavuş müəllimin bu tədbirlərdən xəbəri yox idi. Ona bir gün əvvəl xəbər verilmişdi. Yubiley gecəsinin təşkilatçıları – qızı İradə və kürəkəni Nazim idi. "Zirvə" restoranına Siyavuş müəllimin qohum - əqrabası, qonşuları, dostları, yoldaşları toplaşmışdılar. Yubiley gecəsini Nazim və İradə açdılar, qonaqları salamladılar. Yubiley haqqında ağız dolusu razılıq və tərif dedilər və övladlıq borclarını bir daha yerinə yetirdilər.

Yubiley gecəsində iştirak edənlərin, demək olar ki, hamısı öz ürək sözlərilə çıxış edib Siyavuş müəllimin 70 illik yubileyi münasibətilə onu təbrik etdilər və can sağlığı arzuladılar.

Yubiley gecəsi iştirakçılarına "Kredo" qəzetinin yenicə çıxmış nömrəsi paylandı. Burada jurnalist Elnur yubilyar haqqında geniş portret materialı çap olunmuşdur. Yubiley gecəsində Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl Qələm" mükafatı laureatı Vahid Hacıyev böyük nitq söylədi.

Yubiley yığıncağı "Zirvə" restoranının ansamblının xoş sədaları altında gecədən keçənədək çox şən keçdi və video görüntü ilə tarixin yaddaşına həkk olundu.

Sonda yubilyara söz verildi. Siyavuş müəllim yubileyin keçirilməsində hər hansı bir zəhməti olanların hamısına öz minnətdarlığını bildirdi və bir yubilyar kimi, həm də 70 yaşın zirvəsindən danışmağın nə dərəcədə çətin olduğunu qeyd etdi. O dedi ki, heç kəs ömrünün müdrik çağında səhvə yol verməməlidir. Bu yaşda olanlardan dinləyici, ağıllı söz, müdrik kəlamlar eşitmək istəyir, düzgün məsləhətlər almağı istəyir.

- İndi özünüz təsəvvür edin burada dayanmaq və bir yubilyar kimi danışmaq nə dərəcədə çətindir. Düzü mən yubileyin keçirilməsini istəmirdim. Çünki yubiley bir hesabat olmaqla, səndən dönüb arxaya baxmağı, gördüyün işlərə yekun vurmağı tələb edir. Mən isə demək olar ki, yubileyə əliboş gəlmişəm, bir sıra görüb qurtarmaq istədiyim işləri tamamlaya bilməmişəm,

yarımçıq işlərim çoxdur. Lakin söz verirəm ki, yaxın vaxtlarda vacib işlərimi başa çatdıracağam. Hazırda özümü sağlam və gümrah hiss edirəm. Səhhətimdən şikayətim yoxdur, orqanizmimdə heç bir problem də yoxdur (sürəkli alqışlar. Replika "uzun ömür, yüz il yaşa"). Hamınıza da sağlam, uzun ömür arzulayıram. Bunu üçün isə sakit və zəhmətli həyat sürməyi tövsiyə edirəm. Hər xırda şeyə fikir verməyin, hər şeyin üstündə deyinmək can üzən şeydir. Ailədə stresləri azaldın. Qarşılıqlı hörmət vacibdir. Ailəyə bağlılıq vacibdir. Uzun ömürlülüyün sirri zəhmətdir, irəliyə baxmaq şərtilə, qarşına məqsəd qoy və ona çatmağa çalış. İkinci əsas məsələ - hər şeydə rejim və keyfiyyət: qidalanmada da, yuxuda da, zəhmətdə də... Sayıb gəldiyiniz üçün çox sağ olun. Sizə can sağlığı və uzun ömür arzulayıram.

*Vahid Hacıyev,*
*yazıçı- jurnalist, "Qızıl qələm"*
*mükafatı laureatı*





























## ALİMİN ŞƏRƏFLİ YUBİLEYİ

Respublikanın maraqlı adamlarından biri, hərtərəfli və mürəkkəb həyat yolu keçmiş, çoxcəhətli yaradıcılığa malik alim-pedaqoq, mühəndis-ixtiraçı, jurnalist-publisist, maarifçi-ictimaiyyətçi Siyavuş Məmmədiyə oğlu Alxazovun 70 illiyi münasibətilə "Dənizneftqazlayihə" DETLİ-də yığıncaq keçirilmişdir. Yığıncağın rəyasət heyyətində institutun elmi işlər üzrə direktor müavini d.-m.e.n. Nazim Əkbərov, laboratoriya müdiri, geologiya-minerologiya elmləri doktoru, professor Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyətinin Prezidenti Nüsrət Xəlilov, laboratoriya müdiri, texnika elmləri doktoru, professor Asif Rəsulov, texnika elmləri doktoru Minəxanım Mürsəlova və Azərbaycan Dövlət Neft Akademiyası ümumi geologiya kafedrasının müdiri, geologiya-minerologiya elmləri doktoru, professor Nəriman Babayev əyləşmişdilər.

Yığıncağı giriş sözü ilə N.Əkbərov açdı və yubilyara institut direktorunun əmrini, kollektivin ünvanını və xatirə hədiyyəsini təqdim etdi.

Yığıncaqda çıxış edənlər S.M. Alxazovu nadir şəxsiyyət kimi qiymətləndirdilər. Nüsrət Xəlilov S.Alxazovu unikal adam və yaxşı alim adlandırdı. Asif Rəsulov S.Alxazovun həddindən artıq təvazökar olduğunu qeyd etdi və dedi ki, onun elmi işi çox aktual, maraqlı və çox çətin olsa da, biz onun yaxşı alim olduğunu bilirik və arzu edirik ki, bu il işini tamamlasın. Texnika elmləri doktoru Minəxanım Mürsəlova geniş nitq söyləyərək Siyavuş Alxazovu müsbət cəhətdən xarakterizə etdi. Yığıncaqda çıxış edən texnika elmləri namizədi, respublikanın əməkdar səmərələşdiricisi, Prezidentin fərdi təqaüdçüsü, "Şöhrət" ordenli Bayram Bayramov dedi:

- Mən Siyavuş müəllimi "Neft Daşları"ndan tanıyıram. Uzun müddət orada işləmişik. Mən onu yaxşı istehsalatçı, yaxşı ictimaiyyətçi kimi tanıyırdım; bu gün isə bildim ki, sən demə o, yaxşı da alim imiş. Siyavuş müəllimin "Neft Daşları"nda xidmətləri çox böyükdür. "Neft Daşları" - nın tarixini öyrənmək istəyənlər onun jurnalistik-publisistik yazılarına, filmlərinə müraciət edəcəklər. Siyavuş müəllim öz fəlsəfəsinə malik orijinal adamdır. O, həyatın

mənasını ancaq düzgünlükdə və ədalətdə görür. Sadə və təvazökar olduğu qədər də nöqsanlara qarşı sərt və barışmazdır. Siyavuş müəllim düzgünlüyə nail olmağı və ətraf "mühitə" təsir etməyi bacarır. Yüksək mənəviyyatlı və yüksək mədəniyyətə malik bir insandır. Biz bir yerdə dərs demişik. Mən elə hesab edirdim ki, ondan on yaş böyüyəm, amma indi başa düşdüm ki, 5-6 yaş ondan kiçiyəm. Mən Siyavuş müəllimə yeni-yeni uğurlar arzulayıram.

Çıxış edən "Neft Daşları" qəzetinin baş redaktor müavini Vahid Hacıyev qeyd etdi ki, o, yubilyarı 16 ildir təmiz adam, səmimi bir insan kimi tanıyır. Siyavuş müəllim çox səbrlidir və işini tamamlamağa da tələsmir, çünki onun elmi əsl elmdir; ciddi elmdir və o, özünə qarşı çox tələbkar yanaşır.

Laboratoriya müdiri, geologiya-minerologiya elmləri namizədi Rafiq Cəfərov dedi:

- Siyavuş müəllimin bir keyfiyyəti üzərində dayanmaq istəyirəm. O, hər dəfə bizim laboratoriyaya gələndə nə lazımdırsa aydın, birmənalı və konkret iş barədə qısa danışıb gedər. Bir kəlmə artıq söz işlədən, artıq hərəkət edən deyil. Danışığı-davranışı ölçülmüş-biçilmiş adamdır. Sanki kompüterdir, əvvəlcədən hər şey proqramlaşdırılıb. Bir də ki, Siyavuş müəllim çox sakit, hövsələli və səbrli adamdır, çünki bilir hər şeyin öz vaxtı var.

Nəriman Babayev öz çıxışında S.M.Alxazovun yüksək insani keyfiyyətlərini xatırlayaraq, diqqəti belə bir fakta cəlb etdi:

- Biz bir qrupda oxumuşuq. Adamı səfərdə yaxşı tanıyarlar. Biz hər yay istehsalat təcrübəsində olurduq. İkinci kursdan sonra Şamaxıya getmişdik. Bizi Marijovka kəndində ayrı-ayrı otaqlara paylaşdırdılar. Tələbə yoldaşlardan birinə çarpayı çatmamışdı. Siyavuş öz çarpayısını tələbə yoldaşına verib, özü quru, taxta döşəmədə yatmışdı. Siyavuşun gözəl dostluğu, qorxmaz ürəyi, möhkəm iradəsi var. Biz onunla fəxr edirik.

Sonda S.M.Alxazov yığıncaqda iştirak edənlərə öz minnətdarlığını bildirdi. Yığıncağın gedişi operator Rövşən Zülfəliyev tərəfindən tam şəkildə videolentə alınmışdır.

*İradə Alxazova,*
*"Barmek Azərbaycan EŞ"*
*MMC-nin mütəxəssisi*





















## HƏDIYYƏLƏR

1. Yubiley çərçivəsi – "Açıq söz" qəzeti redaksiyası adından Davud Dəmirli
2. "Orange" (rəsm əsəri, natürmort - reproduksiya) – Azərbaycan Neft Akademiyasından, dostum Nəriman Babayev tərəfindən.
3. Kostyumluq parça – dostum Ahudər Məmmədov tərəfindən.
4. Fincan – nəlbəki – laboratoriya kollektivi tərəfindən.
5. Kostyum, yubiley, tədbiri, çəkilmiş video kaset – qızım İradə və kürəkənim Nazim tərəfindən.
6. "Şəlalə" (rəsm əsəri, mənzərə - reproduksiya) – baldızım qızı Sevil və yoldaşı İlqardan.
7. Kalkulyator – pribor – bacım qızı Sevda və bibim nəvəsi Mehribandan.
8. Telefon apparatı – bacım oğlu Rüstəm və yoldaşı Şəhladan.









## SİYAVUŞ – 70

Qəribə insandır dostum Siyavuş,
Bütün şər işlərdən kənarda durmuş,
Ağıllı gözləri, sakit səsilə,
Sevinc bəxş eyləyən xoş nəfəsilə,
Hamıya yaxşılıq arzulamışdır,
Yaxşılıq da onu qarşılamışdır.
Yadıma salanda Müqəddəsləri,
Qulağıma çatır hərdən səsləri,
Bu səs Siyavuşun səsinə bənzər,
Siyavuş onlar tək dolanar, gəzər,
Bir dəfə də deməz: - "baxın mən varam!"
Bu yerdə açıldı bağlanmış yaram,
Nə qədər insanlar tanıyırıq biz,
Özündən çox razı, işi natəmiz,...
Demə, belə mühitdə də, istəsə Tanrı,
Yetirər pak, müdrik, təmiz, vicdanlı,
Bir oğul ki, ürəyin cahana açmış,
Çox sadə, səbrli, adı – Siyavuş!

*Nəriman Babayev,*
*tələbəlik dostu,*
*professor*





## 5. Sənədlər






„ЗА ДОБЛЕСТНЫЙ ТРУД. В ОЗНАМЕНОВАНИЕ 100-ЛЕТИЯ СО ДНЯ РОЖДЕНИЯ ВЛАДИМИРА ИЛЬИЧА ЛЕНИНА"




УДОСТОВЕРЕНИЕ

АЛХАЗОВ
СИЯВУШ
МАМЕДОВИЧ

от имени ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА СССР награжден юбилейной медалью
„ЗА ДОБЛЕСТНЫЙ ТРУД. В ОЗНАМЕНОВАНИЕ 100-ЛЕТИЯ СО ДНЯ РОЖДЕНИЯ ВЛАДИМИРА ИЛЬИЧА ЛЕНИНА"

Секретарь исполкома
Азизбековского
районного
Совета депутатов трудящихся

М. П. 2 апреля 1970 года




УДОСТОВЕРЕНИЕ

Алхасов
Сиявуш
Мамедович

за долголетний добросовестный труд от имени Президиума Верховного Совета СССР Указом Президиума Верховного Совета Азербайджанской ССР от 31 января 1986 г. награжден медалью
„ВЕТЕРАН ТРУДА"

Секретарь Президиума Верховного Совета Азерб. ССР

24 февраля 1986 г.





РОССИЙСКАЯ ФЕДЕРАЦИЯ

РОССИЙСКОЕ АГЕНТСТВО ПО ПАТЕНТАМ И ТОВАРНЫМ ЗНАКАМ (РОСПАТЕНТ)

# ПАТЕНТ

№ 2091575

на ИЗОБРЕТЕНИЕ

"Способ выделения осложнений в стволе скважины и устройство для его осуществления"

Патентообладатель (ли): Алхазов Сиявуш Намедия оглы (AZ)

Автор (авторы): Адилов Забит Мусаиб оглы (AZ), Кирш Борис Александрович (AZ) и Алхазов Сиявуш Намедия оглы (AZ)

Приоритет изобретения 3 августа 1992г.

Дата поступления заявки в Роспатент 3 августа 1992г.

Заявка № 5057599

Зарегистрирован в Государственном реестре изобретений 27 сентября 1997г.

ГЕНЕРАЛЬНЫЙ ДИРЕКТОР

AZƏRBAYCAN RESPUBLİKASI

Dövlət Elm və Texnika Komitəsi

## MÜƏLLİFLİK ŞƏHADƏTNAMƏSİ

Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi ixtiraya görə P960024 N-li Patent üzrə müəlliflik şəhadətnaməsi verir

İxtiranın adı Qazıma prosesi zamanı quyuların lüləsində mürəkkəbləşmənin təyin edilməsi üsulu.

Patent sahibi Dövlət Elmi-Tədqiqat Layihə İnstitutu "Dənizneftqazlayihə".

Müəllif Alxazov Siyavuş Məmmədiyyə oğlu və başqaları.

Ərizənin nömrəsi 5060392/03

İlkinlik tarixi 28.08.92

22.06.96 il tarixdə Dövlət reyestrində qeyd olunub

Komitənin sədri

Patent-lisenziya idarəsinin rəisi





zərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 5 mart tarixli 36 nömrəli qərarı ilə müəyyən edilmişdir

AZƏRBAYCAN RESPUBLİKASI

Dövlət Elm və Texnika Komitəsi

## ŞƏHADƏTNAMƏ

**N 2000 0504**

Əmtəə nişanının sahibi **Alxazov Siyavuş Məmmədiyə oğlu, 370118, Bakı - 118, Q. Qarayev pr-ti, ev N61, mən. 59, Azərbaycan.**

Ərizənin nömrəsi **99 4655**

İlkinlik tarixi **20.07.99**

**28.04.2000** il tarixdə Dövlət reyestrində qeyd olunub

Komitənin sədri

Patent-lisenziya idarəsinin rəisi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 5 mart tarixli 16 nömrəli qərarı ilə müəyyən edilmişdir

AZƏRBAYCAN RESPUBLİKASI

Dövlət Elm və Texnika Komitəsi

## ŞƏHADƏTNAMƏ

**N 2000 0503**

*Əmtəə nişanının sahibi* **Alxazov Siyavuş Məmmədiyə oğlu, 370118 Bakı - 118, Q. Qarayev pr-ti ev N61, mən.59, Azərbaycan.**

*Ərizənin nömrəsi* **99.4654**

*İlkinlik tarixi* **20.07.99**

**28.04.2000** *il tarixdə Dövlət reyestrində qeyd olunub*

*Komitənin sədri*

*Patent lisenziya idarəsinin rəisi*





AZƏRBAYCAN RESPUBLİKASI

Dövlət Elm və Texnika Komitəsi

## PATENT

**İ 2000 0182**

*İxtiranın adı* **Qazma məhlulunun özlülüyünün azaldılması üsulu və onun həyata keçirilməsi üçün qurğu.**

*Patentin sahibi* **Alxazov Siyavuş Məmmədiyə oğlu, Kazımov Elçin Arif oğlu.**

*Müəllif* **Alxazov Siyavuş Məmmədiyə oğlu, Kazımov Elçin Arif oğlu.**

*Ərizənin nömrəsi* **99/001343**

*İlkinlik tarixi* **30.03.99**

**31.08.2000** *il tarixdə Dövlət reyestrində qeyd olunub*

*Komitənin sədri*

*Patent lisenziya idarəsinin rəisi*

AZƏRBAYCAN RESPUBLİKASI

Dövlət Elm və Texnika Komitəsi

# PATENT

**P 990113**

*İxtiranın adı* **Böyük əyriliyə malik quyu lüləsinin parametrlərinin nöqtəvi ölçülməsi üçün qurğu.**

*Patentin sahibi* **Alxazov Siyavuş Məmmədiyə oğlu.**

*Müəllif* **Alxazov Siyavuş Məmmədiyə oğlu.**

*Ərizənin nömrəsi* **98/001143**

*İlkinlik tarixi* **11.03.98**

**07.07.99** *il tarixdə Dövlət reyestrində qeyd olunub*

*Komitənin sədri*

*Patent lisenziya idarəsinin rəisi*





AZƏRBAYCAN RESPUBLİKASI

Dövlət Elm və Texnika Komitəsi

# PATENT

**S 2000 0005**

*Sənaye nümunəsinin adı* **Ölçü cihazı.**

*Patentin sahibi* **Alxazov Siyavuş Məmmədiyyə oğlu.**

*Müəllif* **Alxazov Siyavuş Məmmədiyyə oğlu, Məmmədov Mürşüd İsmayıl oğlu, Alxazova İradə Siyavuş qızı, Xəlilzadə Şəhla Əli qızı.**

*İddia sənədinin nömrəsi* **99 0051**

*İlkinlik tarixi* **20.07.99**

**30.10.2000** *il tarixdə Dövlət reyestrində qeyd olunub*

*Komitənin sədri*

*Patent lisenziya idarəsinin rəisi*



AZƏRBAYCAN RESPUBLİKASI

Dövlət Elm və Texnika Komitəsi

PATENT

Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi İxtiraya P960029 N-li Patent verir

İxtiranın adı Qazma prosesində qaz təhlükəli vəziyyətin qabaqcadan aşkar edilməsi üçün qurğu.

Patent sahibi Alxazov Siyavuş Məmmədiyyə oğlu

Müəllif Alxazov Siyavuş Məmmədiyyə oğlu, Kirs Boris Aleksandroviç, Acalov Zabit Museyib oğlu.

Ərizənin nömrəsi 000016

İlkinlik tarixi 13.10.92

14.06.96 il tarixdə Dövlət reyestrində qeyd olunub

Komitənin sədri

Patent-lisenziya idarəsinin rəisi







УДОСТОВЕРЕНИЕ

НА РАЦИОНАЛИЗАТОРСКОЕ ПРЕДЛОЖЕНИЕ

№ 29

В соответствии с пунктом 8 „Положения об открытиях, изобретениях и рационализаторских предложениях“ настоящее удостоверение выдано [illegible]

(фамилия, имя, отчество)

на принятое [illegible]

(наименование предприятия, организации)

и внедрению

рационализаторское предложение [illegible]

(наименование предложения)

Руководитель предприятия (организации)

1980 г.



# УДОСТОВЕРЕНИЕ

НА РАЦИОНАЛИЗАТОРСКОЕ ПРЕДЛОЖЕНИЕ

№ 18

В соответствии с пунктом 8 „Положения об открытиях, изобретениях и рационализаторских предложениях" настоящее удостоверение выдано Алхазов Сиявуш
(фамилия, имя, отчество)
Мамедович

на принятое Конторой геофизических
(наименование предприятия,
работ в море треста «Союзгео-
физика»
организации)
и внедрению

рационализаторское предложение Приспособление для построения [illegible]
(наименование предложения)
[illegible] ствола скважин

Руководитель
предприятия (организации)

3 декабря 1980 г.





# УДОСТОВЕРЕНИЕ

НА РАЦИОНАЛИЗАТОРСКОЕ ПРЕДЛОЖЕНИЕ

№ 20

В соответствии с пунктом 8 „Положения об открытиях, изобретениях и рационализаторских предложениях" настоящее удостоверение выдано Алхазов Сиявуш
(фамилия, имя, отчество)
Мамедович

на принятое Конторой геофизических
(наименование предприятия,
работ в море треста «Союзгеофизика»
организации)
и внедрению

рационализаторское предложение [illegible]
(наименование предложения)
[illegible]

Руководитель
предприятия (организации)

[illegible] октября 1980 г.



УДОСТОВЕРЕНИЕ

НА РАЦИОНАЛИЗАТОРСКОЕ ПРЕДЛОЖЕНИЕ

№ 15

В соответствии с пунктом 8 „Положения об открытиях, изобретениях и рационализаторских предложениях" настоящее удостоверение выдано

Алхазов Сиявуш

(фамилия, имя, отчество)

на принятое Конторой Геофизических работ на море треста „Азнефтегеофизика"

(наименование предприятия, организации)

к внедрению рационализаторское предложение

(наименование предложения)

(м. п.) Руководитель предприятия (организации)

197_ г.





ГРУЗИНСКАЯ ССР

МИНИСТЕРСТВО ПРОСВЕЩЕНИЯ

ПОХВАЛЬНАЯ ГРАМОТА

Выдана ученику VIII-го класса 37 азербайдж. средней школы

Алхазову Сиявуш Мамеда-оглы

ЗА ОТЛИЧНЫЕ УСПЕХИ И ПРИМЕРНОЕ ПОВЕДЕНИЕ

М. П. Директор (заведующий) школы

20 марта 1951 г.

№ 016614

Учитель


ГРУЗИНСКАЯ ССР
МИНИСТЕРСТВО ПРОСВЕЩЕНИЯ
ПОХВАЛЬНАЯ ГРАМОТА
Выдана ученику VIII -го класса
И ПРИМЕРНОЕ ПОВЕДЕНИЕ
№ 5
Учитель:






საპატიო სიგელი
საქართველოს ალკკ ცენტრა-
ლური კომიტეტი აჯილდოებს
აღნიშნული სიგელით
Центральный Комитет ЛКСМ Грузии
награждает Почетной грамотой
АЛХАЗОВА С.М.
за отличную учебу и общественную
работу
Секретарь ЦК ЛКСМ Грузии



АЛХАЗОВ СИЯВУШ

М.Әзизбәјов адына Азәрбајҹан Сәнаје Институтунун факултәләрарасы бәдии өзфәалијјәт бахышында мүвәффәгијјәтли чыхышына ҝөрә тәлтиф олунур.

Республика Халг Јарадыҹылығы Евинин директору /М.Исмајылзадә/

Бакы шәһ.
12 декабр 1957-ҹи ил









ПРОЛЕТАРИИ ВСЕХ СТРАН, СОЕДИНЯЙТЕСЬ!

ПОЧЕТНАЯ ГРАМОТА

ЗА ДОЛГОВРЕМЕННУЮ И БЕЗУПРЕЧНУЮ РАБОТУ И

В ЧЕСТЬ 50-ЛЕТИЯ СО ДНЯ РОЖДЕНИЯ

НАЧАЛЬНИКУ КИП П Г Э Н/КАМНИ

тов. АЛХАЗОВУ СИЯВУШУ МАМЕДОВИЧУ

ДИРЕКТОР КГРМ З.А.АГАЕВ

СЕКРЕТАРЬ ПАРТИЙНОЙ ОРГАНИЗАЦИИ В.В.ТОРОПОВА

ПРЕДСЕДАТЕЛЬ ПРОФКОМА Н.Ф.НАЗАРЕНКО

1985г














# MÜNDƏRİCAT


Səh.

Tərtibçi-müəlliflərdən.....3
Redaktordan.....4
Alxazov Siyavuş Məmmədiyə oğlu.....5
Xasiyyətnamə.....8
Giriş əvəzi.....11
1. Xalq sözü.....12
2. Rəhbər sözü.....13
3. Şair sözü.....14
70 ilin lövhəsi.....18
1. Belə gəldim bu dünyaya (ürək sözüm).....19
2. Tərcümeyi – hal.....21
Geniş rəsmi variant.....25
Tərcümeyi - halın təqdim olunduğu vaxt səbəb və yerlər (siyahı).....46
3. Bioqrafiya.....49
Tanınmış neftçi-alim ("Respublika").....49
Как «звучит» месторождение первым слышит геофизик («Бакинский рабочий»).....54
İllərin izi ("Kredo").....62
Ziyalı ömrü ("Neft daşları").....70
Ziyalı ömrünün işıqları ("Açıq söz").....79
Ömür yolları (İnternet).....88
Siyavuş Alxazov (Borçalı alimləri - kitab).....100
Alxazov Siyavuş Məmmədiyə oğlu (Şəki, Alim və ziyalılar - kitab).....103
Ömrün 70 baharı. ("Qaqa qızıl" ağ səadət rəngində- VI kitab).....106
4. Yubiley.....111
Əmr.....111
Ünvan.....112
Tədbirlər.....113
"Zirvə" restoranında yubiley gecəsi.....113
Alimin şərəfli yubileyi.....121
Hədiyyələr (siyahı).....126
5. Sənədlər.....129
Mündəricat.....151

**Toplayıb tərtib edənlər:** *Nisə AğaHüseyn qızı Alxazova,*
*İradə Siyavuş qızı Alxazova*

**BIR ÖMRÜN SƏTIRLƏRI**

**Buraxılışa məsul:** Ələddin Məhərrəmov
**Korrektor:** Məmmədiyə oğlu
**Dizayner:** Mətanət Babayeva
**Naşir:** S.Məmmədiyə oğly

---

Yığılmağa verilmişdir: 20.05.2007
Çapa imzalanmışdır: 18.06.2007
Həcmı 9,5. Format 60x84 1/16
Sıfarış №12 .Tiraj 200 nüsxə
Kitab ofset üsulu ilə çap edilmişdir.

---

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: 514 – 73 - 73